www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23 oktyabr 2015-ci il Cümə № 235 (6263) Qiyməti 40 qəpik

## Xəbər

**Prezident gömrükdə bəzi yoxlamaların sadələşdirilməsi haqda fərman imzaladı**

yazısı səh.2-də

## Gündəm

### Prezident Administrasiyası önündə icra başçısı əleyhinə aksiya keçirildi



Gədəbəy rayonundan olan bir qrup sahibkar Ramiz Yedigarovun rayonda yaratdığı xaosa son qoyulmasını istəyib

yazısı səh.4-də

### AMEA-nın ləğvi təklifi etiraz doğurdu

yazısı səh.10-da

### Dalana dirənən Qarabağ müzakirələri - bundan sonra nə olacaq?

yazısı səh.11-də

### Vicdan məhbusları məhkəmədə iştirakdan imtina etdilər

yazısı səh.3-də

### Gürcülər niyə daha Azərbaycan qazı ilə qızınmaq istəmir?

yazısı səh.8-də

### 1 noyabrdan sonrakı Türkiyə: AKP iqtidar olmasa...

yazısı səh.9-da

### Sabah Aşuradır - siyasətçilərdən kim qan verəcək?

yazısı səh.13-də

### Narazı sahibkarlar həbs olunan sabiq istintaqçılardan şikayətə başladı

yazısı səh.4-də

### Azərbaycanda qışın necə keçəcəyini Afrikadan deyəcəklər

yazısı səh.15-də

### Vəkil "kredit işi" ilə bağlı yeni sensasion faktlar açıqladı

yazısı səh.12-də

### Putinin kəllə-çarxa çıxan reytinqinin sirri

yazısı səh.9-da

### KXCP sədrinə qarşı daha bir qanunsuzluq - 8 dəqiqəlik məhkəmə

yazısı səh.3-də

## Eldar Mahmudovun "imperatorluğu" haqda yeni bilgilər

# MTN-Ə AYLIQ XƏRAC VERƏN MƏMURLARIN ŞOK SİYAHISI

Milli Təhlükəsizlik Nazirliyinin sabiq idarə rəisləri təkcə iş adamlarına çökməyibmiş; aylıq hesaba otuzdurulan xeyli dövlət məmuru da olub; həbsdəki MTN zabitlərinin ifadəsi əsasında yeni həbslər başlaya bilər; nazirliyin daha bir idarə rəisinin işdən çıxarıldığı, aeroportun rəisinin istintaqa cəlb olunduğu deyilir




yazısı səh.6-da

# Hakimiyyət cəbhələrdən birini bağlayır

İqtidar bütün "ağır daşları" yerindən oynadıb özünə qarşı yeni-yeni müqavimət mərkəzləri yaratmaq, seçki ərəfəsi hücumları üzərinə çəkmək istəmir - Ziya Məmmədovun qismən rahatlamasının səbəbini də burada axtarmaq lazımdır...

yazısı səh.5-də



*Sülhəddin Əkbər:*

**"MTN-də əslində nə baş verdiyi bilinməyəcək"**

yazısı səh.7-də



**Günel Mövludun atası qızından imtina etmələrindən danışdı**

yazısı səh.4-də



*Əli Nağıyev:*

**"Demək, dövlətin qulağı da, gözü də xarab imiş..."**

yazısı səh.7-də





# Oqtay Əsədov fövqəladə seçki toplantısı keçirib

## Spikerin icra hakimiyyəti və seçkiyə məsul şəxsləri danladığı deyilir



**Oktyabrın 22-də saat 12:00 radələrində Abşeron Rayon İcra Hakimiyyətində 45 saylı seçki dairəsindən namizədliyi YAP tərəfindən irəli sürülmüş Milli Məclisin sədri Oqtay Əsədovun iştirakı ilə fövqəladə toplantı keçirilib. Əldə etdiyimiz məlumata görə, toplantıda icra strukturlarının büdcədən maliyyələşən dövlət qurumlarının rəhbərləri, məktəb direktorları, bələdiyyə sədrləri, dairə seçki komissiyasının sədri, məntəqə komissiyalarının sədrləri və digər rəsmi şəxslər iştirak edib.**

Maraqlıdır ki, Oqtay Əsədovun keçirdiyi toplantıda Sumqayıtın yeni təyin olunmuş icra başçısı Zakir Fərəcov da iştirak edib. Hətta spikeri Abşeron Rayon İcra icra Hakimiyyətində bu rayonun icra başçısı deyil, Zakir Fərəcov qarşılayıb yola salıb. Qaynağımızın dediyinə görə, görüşdə məqsəd seçkilərlə bağlı Oqtay Əsədovun son tapşırıqlarını vermək olub. Toplantının rəsmi təqdimatı isə Oqtay Əsədovun seçki təbliğatı olaraq təqdim edilib.

Məlumatın həqiqiliyini təsdiqləmək üçün həmin dairədən namizədliyi AMİP tərəfindən irəli sürülmüş Təbriz Musayevlə əlaqə saxladıq və o qeyd etdi ki, doğrudan da belə bir görüş olub: "Şəxsi kanallarımla öyrəndim ki, Milli Məclisin sədri Oqtay Əsədov seçkilərlə bağlı Abşeron İcra Hakimiyyətinə gəlib və hətta icra hakimiyyətini qarşısında qoyulan vəzifənin öhdəsindən gəlməməkdə suçlayıb. O, görüşdə iştirak edənlərə iradlarını bildirərək onları sərt tənqid edib".

❑ **E.SEYİDAĞA**

# Gürcüstan prezidenti fövqəladə bəyanatla çıxış etdi

**"Konstitusiyanı müdafiə etmək hər bir vətəndaşın, ilk növbədə Gürcüstan hakimiyyətinin borcudur. Təəssüf ki, baş nazirin bugünkü çıxışı gərginliyi azaltmaqdansa, ölkədəki onsuz da ağır olan vəziyyəti daha da ağırlaşdırıb".**

Gürcüstan KİV-ləri xəbər verir ki, bunu ölkə prezidenti Georgi Merqvelaşvili fövqəladə bəyanatında vurğulayıb.

"Vətəndaş sülhünü qorumaq üçün sərt hərəkətlərdən, emosional davranışlardan çəkinməyə, məhkəməni isə vəziyyəti çətinləşdirəcək tələsik və sərt qərar qəbul etməməyə çağırıram" - G.Merqvelaşvili bəyanatında bildirib.

Qeyd edək ki, dünən Gürcüstan "Vahid Milli Birlik" Hərəkatının (Gürcüstanın keçmiş prezidenti Mixail Saakşvilinin yaratdığı təşkilat) qərargahları dağıdılıb. Müstəqil "Rustavi 2" telekanalına bağlanması ilə bağlı məhkəmə prosesi gedir. TV-nin bağlanmasına etiraz olaraq aksiyalar keçirilir.

Məhkəmə qarşısına toplaşan sakinlər, o cümlədən də müxalif partiyalar telekanalın bağlanmasının və əmlakına həbs qoyulmasının siyasi motivli olduğunu iddia edir ("Report").

**Başsağlığı**

**Yaqublu ailəsi**
**Qurbanov Saqi Mirzəməmməd oğlunun vəfatından kədərləndiyini bildirir, mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!**


**"Elm" tədris mərkəzi**
**MAGIC LANGUAGES**
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;


# Prezident gömrükdə bəzi yoxlamaların sadələşdirilməsi haqqında fərman imzalayıb



**Prezident İlham Əliyev gömrük sahəsində nəzarətin həyata keçirilməsi ilə əlaqədar bəzi yoxlamaların sadələşdirilməsi haqqında fərman imzalayıb.**

APA-nın məlumatına görə, fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan ümumi gömrük dəyəri 10000 ABŞ dolları ekvivalenti məbləğindən (müşayiət edilən hər bir yetkinlik yaşına çatmamış fiziki şəxsə görə əlavə 2000 ABŞ dolları ekvivalenti məbləğindən) artıq olmayan mallar (aksizli mallar, avtonəqliyyat vasitələri və səfər zamanı fiziki şəxsin zəruri ehtiyaclarının ödənilməsi üçün nəzərdə tutulan əşyalar istisna olmaqla) gömrük ödənişi ödənilmədən gömrük sərhədindən keçirilir.

Dövlət Gömrük Komitəsinə tapşırılıb ki, "İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Qanunun tətbiq edilməsi barədə" prezidentin 2011-ci il 3 mart tarixli fərmanının 3.1-ci və 3.2-ci bəndlərinə uyğun olaraq, gətirilməsi və aparılması qadağan edilən və məhdudlaşdırılan əşyaların siyahısının dövlət sərhədinin buraxılış məntəqələrində hər kəsin yaxşı görə biləcəyi lövhələrdə yerləşdirildiyinə dair məlumatı 1 ay müddətində Azərbaycan prezidentinə təqdim etsin.

Nazirlər Kabineti isə normativ hüquqi aktların bu fərmana uyğunlaşdırılmasını 3 ay müddətində təmin etməli, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlamalı və bunun icrası barədə 5 ay müddətində Azərbaycan prezidentinə məlumat verməlidir.

Öz növbəsində Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Nazirlər Kabinetinə məlumat verməlidir.

# Jurnalistin öldürülməsi ilə bağlı istintaq tamamlanıb

**Jurnalist Rasim Əliyevin döyülərək öldürülməsi ilə bağlı saxlanılan şəxslərin barələrində olan cinayət işi üzrə ibtidai istintaq tamamlanıb.**

Təqsirləndirilən Samir Mustafayevin vəkili Bəxtiyar Hacıyevin APA-ya verdiyi məlumata görə, hazırda vəkillər cinayət işinin materialları ilə tanış olurlar.

Qeyd edək ki, avqustun 8-də Bakı şəhər sakini Əliyev Rasim Məmmədəli oğlu bir qrup naməlum şəxs tərəfindən döyülərək çoxsaylı bədən xəsarətləri ilə Kliniki Tibbi Mərkəzə yerləşdirilib və avqustun 9-da orada ölüb.

Fakt üzrə Bakı Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma, zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanılaraq prokurorluq və polis əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılıb.

İlkin araşdırmalarla müəyyən edilib ki, 1988-ci ildə Cəbrayıl rayonunda anadan olmuş Cavid Hüseynov avqustun 6-da «Qəbələ» futbol klubunun heyətində Kipr Respublikasının «Apollon» futbol klubu ilə Bakı şəhərində keçirilən oyunda iştirakından sonra jurnalistlərin suallarını cavablandırarkən yol verdiyi hərəkətlərə görə şəxsi facebook səhifəsində tənqidi fikirlər yazmış Ann.tv-nin videoreportyoru Rasim Əliyevə zəng edərək ondan təkzib verməyi tələb edib.

Bundan sonra C.Hüseynovun bibisi oğlu 1994-cü ildə Bakı şəhərində anadan olmuş Elşən İsmayılov da R.Əliyevə zəng edərək təkzib verməsini tələb edib və bu zəmində aralarında mübahisə yaranıb. Nəticədə Elşən İsmayılov R.Əliyevdən qisas almaq məqsədilə, özünə yaxın olan Camal Məmmədov, Arif Əliyev, Kənan Mədətov və Samir Mustafayevdən ibarət qrup yaradaraq onunla görüşüb və R.Əliyevi döyərək ağır xəsarət yetiriblər.

İş üzrə C.Hüseynov və digərləri barəsində həbs-qətimkan tədbiri seçilib.



# Nazir Səbayelin yol polisi rəisini də işdən çıxardı

**Daxili işlər naziri Ramil Usubov daha bir kadr dəyişikliyi edib. "Qafqazinfo" xəbər verir ki, nazirin imzaladığı əmrlə Səbayel Rayon Yol Polisi Şöbəsinin rəisi, mayor Zaur Cəfərov tutduğu vəzifədən azad edilib. Zaur Cəfərov sərəncama götürülüb. Onun yerinə isə hələlik təyinat olmayıb.**

Qeyd edək ki, Zaur Cəfərov Daşınmaz Əmlakın Dövlət Reyster Xidmətinin keçmiş sədri Arif Qaraşovun kürəkənidir.

# Azərbaycan sərhədçiləri İŞİD-çini yaxalayıb

**Oktyabrın 15-də Zaqatala rayonunun Uzunqazmalar kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində Azərbaycandan Gürcüstan istiqamətində dövlət sərhədini pozmağa cəhd göstərən Beyləqan rayonu I Şahsevən kənd sakini, 1990-cı il təvəllüdlü Şirinov Babək Pərviz oğlu saxlanılıb.**

Dövlət Sərhəd Xidməti mətbuat mərkəzindən APA-ya verilən məlumata görə, araşdırma zamanı müəyyən edilib ki, əvvəllər Suriya ərazisində İŞİD silahlı birləşmələrinin tərkibində döyüşmüş B. Şirinovun məqsədi dövlət sərhədini pozaraq Gürcüstana, oradan Türkiyəyə və daha sonra Suriyaya keçərək İŞİD silahlı birləşmələrinə qoşulmaq olub.

Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində sərhəd pozucusuna vasitəçilik etmiş Zaqatala rayonunun Əliabad kənd sakini Şamxalov Əfqan Niyazi oğlu da saxlanılıb.

Oktyabrın 18-də Ağstafa rayonunun Sadıxlı kəndi ərazisindəki sərhəd zastavasının xidməti sahəsində Gürcüstandan Azərbaycana qaçaqmal gətirilməsi cəhdinin qarşısı alınıb. Sərhəd naryadı tərəfindən təqib olunan sərhəd pozucusu iki bağlamada Çin istehsalı olan 254 ədəd mobil telefonu hadisə yerində ataraq geri qaçmağa müvəffəq olub.

Oktyabrın 20-də Ağstafa rayonunun ərazisində yerləşən "Dəmirtəpə" sərhəd zastavasının xidməti sahəsində Qazax rayon sakini Məmmədov Elsevər Rasim oğlu Gürcüstandan Azərbaycana 30 baş iribuynuzlu mal-qara gətirərkən saxlanılıb.

Hər üç fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Dünya Bankının vitse-prezidenti Bakıya gəlir

**Oktyabrın 22-də Dünya Bankının (WB) Avropa və Mərkəzi Asiya üzrə vitse-prezidenti Siril Mullerin (Cyril Muller) Azərbaycana rəsmi səfəri başlayıb. "Report"un WB-nin Bakı ofisindən əldə etdiyi məlumata görə, səfər şənbə günü başa çatacaq.**

Regionla tanışlıq çərçivəsində baş tutacaq səfər zamanı S.Mullerin Azərbaycanın rəsmi şəxsləri ilə görüşləri nəzərdə tutulur. Həmçinin o, WB-nin Cənubi Qafqaz regionu üzrə yeni direktor Mersi Tembonu təqdim edəcək. Qeyd edək ki, S.Muller vitse-prezident kimi vəzifəsinə bu ilin sentyabrında başlayıb.



# Putin Leyla Əliyevaya medal verdi

**Rusiya prezidenti Vladimir Putin "Xarici vətəndaşların Rusiya Federasiyasının ali dövlət mükafatları ilə təltif olunması haqqında" fərman imzalayıb.**

Virtualaz.org saytı Rusiya KİV-lərinə istinadən xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, fondun Rusiyadakı nümayəndəliyinin başçısı Leyla Əliyeva "Puşkin" medalına layiq görülüb.

L.Əliyeva bu mükafatı "Rusiya ilə dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsi, rus dilinin xaricdə qorunması və populyarlaşdırılması işinə verdiyi töhfəyə görə" alıb.

# Bu il Azərbaycandan əcnəbilərə üç uşaq övladlığa verilib

**2015-ci ildə Azərbaycanda əcnəbilər tərəfindən 3 övladlığa götürmə faktı qeydə alınıb.**

Bu barədə APA-ya Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin nümayəndəsi Seymur Məmmədov bildirib. Onun sözlərinə görə, uşaqlar Amerika Birləşmiş Ştatları, Türkiyə və Rusiya vətəndaşlarına övladlığa verilib.

S. Məmmədov qeyd edib ki, əcnəbilərə övladlığa verilən uşaqlar 1-3 yaş qrupu arasındadır.

Qeyd edək ki, 2007-2014-cü illərdə 43 uşaq əcnəbi vətəndaşlara övladlığa verilib. Siyahıda daha çox əslən Azərbaycan əsilli Rusiya Federasiyası vətəndaşı olan şəxslər və ABŞ vətəndaşları üstünlük təşkil edir. Siyahıda Fransa, İsveçrə və azərbaycanlılarla ailə quran Türkiyə vətəndaşları da var. Afrika, Avstraliya və Asiya qitələrindəki ölkələrin vətəndaşlarından indiyədək övladlığa götürmə ilə bağlı müraciət daxil olmayıb.


**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 235 (6263) 23 oktyabr 2015

**KXCP sədri Mirmahmud Mirəlioğlunun deputatlığa namizədliyinin qeydə alınmaması ilə bağlı Seçki Komissiyasından şikayətinə Ali Məhkəmə də baxıb. KXCP sədrinin səlahiyyətli nümayəndəsi Elşən Həşimovun musavat.com-a verdiyi xəbərə görə, proses cəmi 8 dəqiqə çəkib və Apelyasiya Məhkəməsinin qərarı qüvvədə saxlanılıb: "Ali Məhkəmədə 8 dəqiqəlik bir komediya oldu. Hakim gəldi və məni, yeni Mirmahmud bəyin səlahiyyətli nümayəndəsini dinləmədi.**



# KXCP sədrinə qarşı daha bir qanunsuzluq-8 dəqiqəlik məhkəmə

## Partiyanın namizədləri seçkidən geri çəkilmək istəyir



MSK-nın nümayəndəsi prosesə gecikmişdi. Lakin gələndən sonra hakim onu dinlədi. O, məhkəməyə yenə eyni əsassız sənədləri təqdim etdi. Hakim müşavirə otağına girib-çıxdı və qərarı səsləndirdi. Bütün proses toplam 8 dəqiqədə yekunlaşdı. Ali Məhkəmə Apelyasiya Məhkəməsinin qərarını qüvvədə saxladı".

**E.Həşimov bundan sonra atılacaq addımlarla bağlı ictimaiyyətin məlumatlandırılacağını dedi:**

"Biz bütün məhkəmə instansiyalarını keçmişik. Qərarı alandan sonra seçki qərargahında bir daha son prosesləri dəyərləndirəcəyik və qəbul edəcəyimiz qərarlarla bağlı ictimaiyyətə açıqlama verəcəyik".

**KXCP funksioneri Oqtay Gülalıyev** isə özünün facebook səhifəsində qeyd edib ki, KXCP-də namizədlər seçkidən imtina etmək istəyirlər. O bildirib ki, partiyada seçkilərdə iştirak məsələsi bir daha müzakirə edilib. Müzakirələrdə partiyanın qeydə alınan və alınmayan namizədlərinin əksəriyyəti iştirak edib. KXCP-nin 12 namizədinin qeydə alındığını xatırladan O.Gülalıyev həmin müşavirəyə qatılan 9 namizəddən 7-sinin seçkiləri boykot etməyə tərəfdar olduqlarını açıqca dilə gətirdiyini bildirib: "Mən o insanlarla bir təşkilatda olmaqdan qürur duydum. Əslində bu mövqe son zamanlar KXCP ilə bağlı cəmiyyətdə müzakirələrə yol açmış bəzi anlaşılmazlıqlara, suallara verilən ən gözəl cavabdır. Hər bir təşkilatın fərqli mübarizə taktikası ola bilər. Önəmlisi həmin təşkilatda cəmləşən insanların getdikləri yola sadiq olmalarıdır. KXCP yoluna, mübarizəsinə, Elçibəy ideyalarına sadiq təşkilatdır. Mən buna bir daha əmin oldum. Hər kəs də əmin olsun".

**KXCP-nın sədri Mirmahmud Mirəlioğlu isə şəxsən özünün namizədliyi qeydə alınmasa da seçkidə iştirakın tərəfdarıdır. Mirmahmud Mirəlioğlu AzadlıqRadiosuna müsahibəsində bu mövqeyini belə izah edib:** "Birincisi, seçki ərəfəsində tez-tez qərarları dəyişmək olmaz. Üstəlik, bəzi qeydiyyata alınmayan namizədlər məhkəməyə müraciət edib. Bəzi üzvlərimizin məhkəmə yolu ilə axıra kimi mübarizə apardıqları bir vaxtda qeydiyyata alınan namizədlərin namizədliklərini geri götürməsi düzgün olmazdı".

**Mirmahmud Mirəlioğlu həmçinin qeyd edib ki, KXCP-nın nizamnaməsində yazılıb ki, onlar yalnız seçkilər yolu ilə hakimiyyətin dəyişməsini istəyir:** "Əgər biz parlament seçkilərində iştirak etməyəcəyiksə, onda nizamnaməmizə də yenidən baxmalıyıq".

**Mirmahmud Mirəlioğlu moderator.az-a açıqlamasında isə bəyan edib ki, Milli Təhlükəsizlik Nazirliyinin kurasiyasında olan xeyli deputat və deputatlığa namizəd var:** "İndi bu şəxslərin aqibəti sual altındadır. Baş verən son olaylar onların durumunu da çıxılmaz edib. Yəqin ki, yaxın gələcəkdə bu şəxslərin aqibəti də bəlli olacaq. Bir sözlə, mərəkə bundan sonradır".

❑ **E.SEYİDAĞA**



# Vicdan məhbusları məhkəmədə iştirakdan imtina etdilər

## İlqar Məmmədov və Tofiq Yaqublu Şəki Apelyasiya Məhkəməsinə getməyəcəklər

**Vəkil Fuad Ağayev "Yeni Müsavat"a həbsdə olan jurnalist Rauf Mirqədirov, REAL hərəkatının sədri İlqar Məmmədov və Müsavat Partiyasının başqan müavini Tofiq Yaqublunun cinayət işi ilə bağlı bir sıra yeni məlumatlar açıqlayıb.**

Belə ki, vəkilin verdiyi açıqlamaya görə, həbsdə olan jurnalist Rauf Mirqədirovun barəsində olan cinayət işi üzrə materiallar artıq məhkəməyə göndərilib. Onun sözlərinə görə, Mirqədirovun növbəti günlərdə keçiriləcək olan məhkəməsində bir sıra bağlı məqamların üstü açılacaq: "Rauf Mirqədirova qarşı verilmiş iddiam tamamilə əsassızdır. Bunu biz öncədən də söyləmişdik. İndi isə iş materialları ilə tanış olduqca bir daha qətiyyətlə söyləyə bilərik. Məndə olan məlumata görə, son günlər Milli Təhlükəsizlik Nazirliyində keçirilən əməliyyatlar nəticəsində saxlanılan şəxslər arasında Rauf Mirqədirov işi ilə bağlı adamlar da var. Bu barədə bir sıra faktlar ortaya çıxarmışıq. Məhkəmə zamanı da çox ciddi faktlar ortaya qoyulacaq".

Rauf Mirqədirovun sağlıq vəziyyətindən də danışan vəkil bildirib: "Rauf Mirqədirovun sağlıq durumu elə də yaxşı deyil".

Fuad Ağayev REAL Hərəkatının həbsdə olan sədri İlqar Məmmədov və Müsavat Partiyasının başqan müavini Tofiq Yaqublu ilə də bağlı yeni məlumatlar açıqlayıb. Vəkil bildirib ki, hər iki şəxs Apelyasiya Məhkəməsində iştirak etmək istəmir. O bildirib ki, İlqar Məmmədovun yerinə apelyasiya prosesində onun vəkilləri iştirak edəcəklər: "İlqar Məmmədov ərizə yazmışdı ki, apelyasiya prosesində iştirak etməyəcək. O, bütün səlahiyyətləri öz vəkillərinə həvalə edib. Apelyasiya məhkəməsində iştirak etməmək onun hüququdur. Biz də məsləhətləşdik ki, İlqar Məmmədova əlavə əziyyət verməyə, onun bir də Şəkiyə göndərilməsinə ehtiyac yoxdur. Eyni zamanda məndə olan məlumata görə, Müsavat Partiyasının başqan müavini Tofiq Yaqublu da eyni fikirdədir. O da apelyasiya məhkəməsində iştirak etməyi düşünmür".

Qeyd edək ki, oktyabrın 13-də Ali Məhkəmədə İlqar Məmmədov və Tofiq Yaqublunun kasasiya şikayətinə baxılıb. Qərara əsasən, kasasiya şikayəti qismən təmin edilib. İ. Məmmədov və T. Yaqublu barəsindəki qərarı ləğv edilib, iş yenidən Şəki Apelyasiya Məhkəməsinə qaytarılıb.

❑ **Əli RAİS**

# General Bakının rəislərini BŞBPİ-yə topladı

## Mirqafar Seyidov cinayətkarlıqla mübarizədəki statistikanı açıqladı



**Oktyabrın 22-də Bakı Şəhər Baş Polis İdarəsində (BŞBPİ) 2015-ci ilin 9 ayının yekunlarına həsr olunmuş əməliyyat müşavirəsi keçirilib. Bakı Şəhər BŞBPİ-nin mətbuat xidmətindən axar.az-a verilən məlumata görə, müşavirəni giriş sözü ilə açan idarənin rəisi, polis general-mayoru Mirqafar Seyidov vurğulayıb ki, ölkədə siyasi sabitliyin qorunmasında, cinayətkarlıqla mübarizə və təhlükəsizliyin təmini sahəsində Daxili İşlər Nazirliyi və BŞBPİ üzərinə qoyulmuş vəzifələri layiqincə yerinə yetirib.**

Müşavirə iştirakçılarına 2015-ci ilin 9 ayı ərzində paytaxt polisi tərəfindən cinayətkarlığa qarşı mübarizə, ictimai asayişin mühafizəsi, vətəndaşların hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunması sahəsində görülmüş işlər, həyata keçirilmiş tədbirlər və qarşıda duran vəzifələr barədə geniş məruzə təqdim edilib. Məruzədə qeyd olunub ki, hesabat dövründə Bakı şəhərində Daxili İşlər Nazirliyi və prokurorluq üzrə 8.706 (8.752) cinayət qeydə alınıb ki, onların da 81,6%-i (7.104-ü) az ağır və böyük ictimai təhlükə törətməyən, 18,4%-i isə (1.602-i) ağır və xüsusilə ağır növlər olub. Ötən ilin eyni dövrü ilə müqayisədə qəsdən adam öldürmələr 9,5%; qəsdən sağlamlığa ağır zərər vurmalar 9,7%; adam oğurluğu faktı isə 2 dəfə azalıb. Cinayətlərin 75,9%-nin (ötən il 70,1%), ağır növlərinin 77,9%-nin (72,4%), qeyri-aşkar şəraitdə baş verənlərin 64,7%-nin (57,4%) açılması təmin olunub. Şəxsiyyət əleyhinə olan 1402 cinayətdən 92,3%-i (91,2%), o cümlədən qəsdən adam öldürmələrin 100%-i (90,7%), adam öldürməyə cəhdlərin 89,5%-i açılıb (100%). 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə ümumi cinayətlərin açılması 5,8%, onların ağır və xüsusilə ağır növlərinin açılması 5,5%, şəxsiyyət əleyhinə olanların açılması 1,1%, o cümlədən qəsdən adam öldürmələrin açılması 9,3%, mülkiyyət əleyhinə cinayətlərin açılması 10,4%, mənzillərdən edilən oğurluqların açılması 10,9%; avtonəqliyyat oğurluqlarının açılması 12,5%; quldurluqların açılması 7,1%; hədə-qorxu ilə tələb etmələrin açılması 6,5%; avtonəqliyyatın qaçırılması 5,1%; xuliqanlıqların açılması 0,5%; dələduzluqların açılması 2,7%; ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin açılması 7,1% yaxşılaşıb. 2015-ci ilin 9 ayı ərzində təqsirləndirilən şəxs qismində axtarışda olan 1106 nəfərdən 65,6%-i (-2,2%, 725-i), ağır və xüsusilə ağır cinayətlərə görə axtarılan 456 nəfərdən isə 51,1%-i tutulub (-2,1%, 233-ü). Bununla yanaşı, 45 soyğunçuluq və quldurluq cinayəti törətmiş 95 nəfərdən ibarət 38 qrup, eləcə də mənzillərdən 84 oğurluq törətmiş 69 nəfərdən ibarət cinayətkar 29 qrup yaxalanıb. Narkotiklərlə bağlı aşkar edilmiş 1074 (1112) fakt üzrə qanunsuz dövriyyədən 227 kq 156 qram (205 kq 568 qr) narkotik vasitə çıxarılıb. Paytaxt ərazisində ötən ilin müvafiq dövrü ilə müqayisədə yol-nəqliyyat hadisələrinin sayı 14,2%, həlak olanların sayı 19,2%, xəsarət alanların sayı isə 3,3% azalıb. Paytaxtda ictimai asayişin mühafizəsi də ciddi nəzarətdə saxlanılıb, bu müddətdə qanunsuz keçirilməsinə cəhd göstərilən bütün aksiyaların qarşısı alınıb. Əməliyyat müşavirəsinə yekun vuran Baş İdarənin rəisi Mirqafar Seyidov 2015-ci ilin 9 ayı ərzində paytaxtın polis orqanlarının cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmin edilməsi sahələrindəki fəaliyyətini ümumən müsbət qiymətləndirib, müxtəlif hüquqpozmaların, o cümlədən insan hüquq və azadlıqlarının pozulması hallarının əvvəlki illə müqayisədə xeyli azaldığını qeyd edib.

**"Qızım Meydan TV-dən imtina etmirsə, mən ondan imtina edirəm". Bunu Meydan TV-nin redaktoru, yazar Günel Mövludun anası Şövkət Şəfiyeva "BBC Azərbaycanca"ya deyib. Şövkət Şəfiyeva bildirib ki, oğlanları qızı Günel Mövludun "Meydan TV ilə əməkdaşlıq etməsinə görə" həbs olunub, buna görə də qızından imtina edir: "Oğlanlarımın ikisi də əli qabarlı fəhlədir, onlar heç vaxt siyasətə qarışmayıblar".**



# "Günel özü 3 ay əvvəl bizdən imtina etmişdi, biz niyə etməyək?"

## Günel Mövludun atası qızından imtina etmələrinin səbəblərindən danışdı

**Şövkət Şəfiyeva prezidentin siyasətini dəstəklədiyini bəyan edib:** "1993-cü ildən Cəbrayıldan çıxandan sonra imkansızlığa görə oğlanlarımı oxutdura bilmədim. Ona görə indi fəhləlik edib ailələrini dolandırırlar. Onların narkotiklə işləri ola bilməz. Bu həbslər siyasidir".

**Xanım Şəfiyeva hələ də oğlanları ilə görüşə bilmədiklərini qeyd edib:** "Vəkillər dedi, bu həftə görüşə bilməyəcəyik".

G.Mövludun atası Vəzir İmanov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, o da qızından imtina edir və həyat yoldaşının fikirlərinə qoşulur:

- 3 gündür ki, Güneldən imtina etmişik.

***- Necə oldu ki, belə bir qərar verdiniz?***

- Neyləyim indi?

***- Bunun bir köməyi ola bilərmi həbsdəki oğullarınızın azadlığa çıxmasına?***

- Olacaq, ya olmayacaq, bilmirəm. Olsa da belədir, olmasa da. Uşaqlarım havayı yerdən bu günə düşəndən sonra mən onu neyləyirəm?

***- Günelin özünə "səndən imtina etmək istəyirik" dedinizmi?***

- O özü 3 ay bundan əvvəl bizdən imtina edib. Mən indi onu neyləyirəm?

***- Qızınızdan imtina etmək öz fikriniz idi, yoxsa kimsə təklif etmişdi?***

- Xeyr, ailəlikcə oturduq, fikirləşdik. Bir adam ki, 3 ay bundan əvvəl bizdən imtina edib, biz niyə imtina etməməliyik?

***- Sizə qızınızdan imtina edəcəyiniz təqdirdə oğlanlarınızın azadlığa çıxacağı ilə bağlı vəd verilibmi?***

- Xeyr.

***- Amma oğullarınız həbs olunan günlərdə Günellə əlaqələriniz vardı, danışırdız...***

- Hə, anası danışırdı...

***- Birdən-birə niyə belə qərar verdiz?***

- Vəziyyət belədir də, qızım. İndi bunu açıqlamağın nə yeri var ki? Biz indi nə edək, hansı yolla gedək ki?

***- İnanırsız ki, bu imtina söhbətindən sonra oğlanlarınız azadlığa çıxacaq?***

- İnansaq da budur, inanmasaq da. Mən demirəm ki, bu imtinadan sonra bu uşaqlar çıxacaq, ya qalacaq. Olsa da budur, olmasa da. 1 il bundan qabaq Günelin yanında olmuşam. Bundan sonra da getməyəcəm.

***- Vəkilləri nə deyir? Gedib-gəlirlər yanlarına?***

- Görüş verilməyib. Bir dəfə keçən həftə danışmışam, ondan sonra xəbərim yoxdur. Məhkəməsinin də vaxtı bilinmir. Hələ ərizə yazıblar, ərizələri də getməyib.

G.Mövlud isə "Yeni Müsavat"a açıqlamasında bu mövzuda danışmaq istəmədiyini bildirdi.

Xatırladaq ki, Günel Mövludun qardaşları Raci və Vəkil İmanovlar oktyabrın 13-də polis orqanlarına daxil olmuş əməliyyat məlumatı əsasında keçirilən müvafiq tədbirlər nəticəsində saxlanılıb. Daxili İşlər Nazirliyinin məlumatına görə, baxış zamanı onlardan narkotik vasitə olan marixuana götürülüb.

Onlar 3 ay müddətinə azadlıqdan məhrum ediliblər.

Günel Mövlud qardaşlarının həbsini Meydan TV-dəki fəaliyyəti ilə əlaqələndirib, amma o, bu fəaliyyətini dayandırmayacağını da bildirib.

Günel Mövludun atası daha öncə qızından imtina etməyəcəyini desə də, artıq bu məsələdə Şövkət xanıma qoşulduğunu deyib.

Son aylarda Meydan TV ilə əməkdaşlıq edən bir neçə jurnalist Baş Prokurorluğun Ağır Cinayətlərə dair İstintaq İdarəsinə və DİN Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə çağırılaraq dindiriliblər.

Avqustun əvvəlində Meydan TV-nin rəhbəri Emin Millinin qohumları prezident İlham Əliyevə müraciət edərək, ondan "imtina etdiklərini" bildiriblər. Emin Milli bu halı qohumlarına təzyiq edilməsi ilə əlaqələndirib.

❑ **Sevinc TELMANQIZI**



# Narazı sahibkarlar həbs olunan şəxslərdən şikayətə başladı

**Milli Təhlükəsizlik Nazirliyinin (MTN) vəzifəli şəxsləri tərəfindən qanunsuz olaraq böyük məbləğdə vəsait ödəməyə məcbur edilmiş sahibkarlar artıq Baş Prokurorluq yanında istintaq-əməliyyat qrupuna müraciət ediblər.**

Bu barədə "Trend"ə etibarlı mənbədən məlumat daxil olub.

MTN-in ayrı-ayrı vəzifəli şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə və yol verilmiş digər qanun pozuntuları faktları üzrə Baş Prokurorluqda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq istintaq-əməliyyat qrupu yaradılıb.

Həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri ilə nazirliyin bir qrup əməkdaşı tərəfindən xidməti vəzifələrinin icrası ilə əlaqədar qulluq səlahiyyətlərindən sui-istifadə etmə və əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyin tələblərini pozmaqla sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilələr edilməsi, ayrı-ayrı şəxslərin hüquq və qanunla qorunan mənafelərinin pozulmasında əsaslı şübhələr müəyyən edilib.

MTN-in 7 vəzifəli şəxsi Cinayət Məcəlləsinin 308.2, 309.1 və 302.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində istintaqa cəlb olunub, həmin maddələrdə nəzərdə tutulan ittiham elan edilməklə məhkəmənin müvafiq qərarları ilə barələrində həbs-qətimkan tədbiri seçilib.

Xatırladaq ki, həbs olunan MTN-in vəzifəli əməkdaşları tərəfindən təzyiqlərə məruz qalan bəzi sahibkarların açıqlama və videogörüntüləri artıq yayımlanıb.

Təzyiqə məruz qalan sahibkarlardan biri - Maqsud Mahmudov ondan MTN-in Antiterror Mərkəzində 250 min manat pul tələb edildiyini deyib. Sahibkar 600 min manat dəyəri olan obyektini 120 min manata sataraq canını qurtardığını deyib.

Sahibkar deyib ki, nazirlikdə həmin məbləği ödəməyəcəyi təqdirdə onun barəsində cinayət işi başlanılacağı bildirilib.

# Sahibkarlar Prezident Administrasiyası önündə aksiya keçirdilər

## Oqtay Əliyev: "İcra başçısı Ramiz Yedigarov bizi həbslərlə hədələyir..."

**Dünən Gədəbəy rayonundan olan bir qrup sahibkar Prezident Administrasiyası qarşısında etiraz aksiyası keçirib. Onlar Gədəbəyin icra başçısı Ramiz Yedigarovun rayonda yaratdığı xaosa son qoyulmasını istəyiblər.**

Xatırladaq ki, Ramiz Yedigarov iş adamı Rasim Hərriyevi həbs etdirib. Bundan əlavə, Oqtay Əliyevi şikayətçi olduğu üçün 15 sutka həbs etdirib. Sahibkarların dediyinə görə, icra başçısı etirazını bildirənləri həbs etdirəcəyi, rayonda iclas keçirərək sakinləri hər hansı problemlə bağlı yuxarı instansiyalara etirazını edəcəyi təqdirdə həbs olunacağı ilə hədələyib. Sırada Oqtay Əliyevin olduğunu söyləyib.

**Oqtay Əliyev** bizimlə söhbətdə tikilməkdə olan ona məxsus istirahət obyektinin rayon icra hakimiyyəti başçısının qərarı ilə heç bir əsas olmadan söküldüyünü bildirdi: "Qalakənd meşə zonasında istirahət mərkəzi tikdirməyə başladım. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sərəncamında olduğu üçün qanuni sənədləşmə aparıldı və tikinti üçün icazə aldım. Həmin sərəncama uyğun surətdə obyekti tikdirməyə başladım. Həmin ərəfədə Gədəbəy Rayon İcra Hakimiyyətinin müavinləri tikintini dayandırdılar. Bu zaman Qüdrət Paşayevlə görüşdüm və razılıq əldə etdikdən sonra işimə başladım. Lakin bir müddət sonra 2014-cü il iyulun 14-də xəbərim olmadan obyektimi yerlə-yeksan etdilər. Səbəb isə onların tələb etdiyi məbləği verməməyim oldu. İcra hakimiyyətindən Rüstəm Nağıyev mənə dedi ki, əgər dediyimiz məbləği verməsən, uçuracağıq. Mən isə bildirdim ki, siz qanunsuz sökündü aparsanız, dövlətin qanunları ilə haqqımı tələb edəcəyəm, bu işi yerdə qoymayacağam. İyulun 23-də icra nümayəndələri gəlib obyekti sökdülər. Bununla bağlı məhkəmə də oldu və mənim xeyrimə hökm çıxarıldı. Lakin hələ də icra başçısı Ramiz Yedigarov məhkəmə tərəfindən kəsilən təzminatı ödəmir. İcra başçısı Ramiz Yedigarov rayonda iclaslar keçirir və mənim həbs olunacağımı deyir. Mən Rusiyada öz zəhmətimlə qazandığım pullarla doğma vətənimdə iş qururam, bunlar isə mənə imkan yaratmaqdansa qarşımı kəsirlər".

**Oqtay Əliyev bütün bu hadisələrlə bağlı müxtəlif dövlət qurumlarına çoxsaylı müraciətlər etdiyini də dedi:** "Şikayətlərimlə bağlı Gədəbəy Rayon Prokurorluğu cinayət işinə başlayıb və rədd edib. Prokurorluğun cinayət işində yazılıb ki, həqiqətən də Oqtay Əliyevə məxsus obyekt icra nümayəndələri tərəfindən sökülüb. Ekologiya və Təbii Sərvətlər Nazirliyi də, söküntünün icra nümayəndələri tərəfindən aparıldığına dair sənəd verib. Gəncə İnzibati İqtisad Məhkəməsi 5 dəfə sənəd verərək bildirib ki, söküntü Gədəbəy İcra Hakimiyyəti əməkdaşları tərəfindən aparılıb. Bütün bunlara baxmayaraq, icra başçısı Ramiz Yedigarov deyir ki, sizi həbs etdirəcəm, gedin nə bilirsiniz onu da edin. İndi isə Prezident Aparatına gəlmişik ki, kimsə bizi qəbul eləsin, şikayətimizə baxsın".





**Başqa bir sahibkar da ona məxsus mağazanın xəbərdarlıq edilmədən söküldüyünü dedi:** "Ramiz Yedigarov obyektimi sökdürdükdən sonra onun barəsində çoxsaylı şikayətlər etdim. Lakin məni həbs etdirdi. 15 sutka həbsdə qaldım. Bu prosesdən sonra Prezident Aparatında qəbul şöbəsində Tağı Tağıyevlə görüşdüm və başıma gələnləri ona danışdım. O isə mənə bildirdi ki, şikayətinizə baxılacaq. İcra hakimiyyətində Qüdrət və Zülfüqar adlı icra nümayəndələri mənə hədə-qorxu gəlir. Ramiz Yedigarov tərəfindən hər an həbs olunacağımı hiss edirəm".

**Sahibkarla yanaşı, digər problemləri olan bir neçə Gədəbəy rayon sakini də öz şikayətlərini bildirdilər. Onlardan Rəşad Səfərov fərdi yaşayış evlərinin tikintisinə də icra nümayəndələri tərəfindən əl qoyulduğunu bildirdi:** "Ailəm fərdi yaşayış üçün icra hakimiyyətindən torpağa dair sərəncam alıb və inşaat layihəsi təsdiq olunub. İşə başlayarkən rayon icra nümayəndələri işi dayandırıb. Heç bir əsas göstərmədən tikintini dayandırıblar. Dəfələrlə müraciət etmişəm, ümumi ifadələrlə yola veriblər. Bizim burada toplaşmağımızın səbəbi Gədəbəy İcra Hakimiyyətinin etdiyi qanunsuzluğu ölkə başçısına çatdırmaqdır".

❑ **Məğrur SALMANOV**
**Fotolar müəllifindir**



# Hakimiyyət cəbhələrdən birini bağlayır

**Eldar Mahmudovun işdən çıxarılması və MTN-də baş verənlər nəqliyyat naziri Ziya Məmmədovla bağlı müəmmanı qismən ikinci plana keçirib. Maraqlıdır ki, məhz E.Mahmudovun işdən azad edilməsindən 1 gün sonra nazir gözlənilmədən işə çıxdı. Halbuki rəsmi olaraq onun oktyabrın 22-də məzuniyyətdən qayıdacağı deyilirdi.**

İqtidar bütün "ağır daşları" yerindən oynadıb özünə qarşı yeni-yeni müqavimət mərkəzləri yaratmaq, seçki ərəfəsi hücumları üzərinə çəkmək istəmir - Ziya Məmmədovun qismən rahatlamasının səbəbini də burada axtarmaq lazımdır...

İsveçrədə müalicə olunduğu deyilən nazirlə bərabər onun çoxdandır ortalarda görünməyən, barəsində ziddiyyətli məlumatlar dolaşan oğlu Anar Məmmədov da göründü. Nazirə yaxın saytların birində onun Qolf Federasiyasında gənclərlə çəkilmiş fotosu da yayıldı. E.Mahmudovun işdən azad edilməsi ilə Məmmədovların sirli dönüşü arasında hansısa mübhəm əlaqə olub-olmadığını indilikdə söyləmək çətindir. Amma bu qayıdışın nazirə bağlı saytların E.Mahmudovun xüsusilə biznes imperiyası haqda ilginc məlumatlar dərc etməklə müşayiət olunması mövzuya diqqəti artırır.

Z.Məmmədovla sabiq təhlükəsizlik nazirinin münasibətləri haqda mediada səhih məlumat yoxdur, amma bəzi mənbələr bu münasibətlərin heç də pis olmadığını iddia edir. Hətta nazirin E.Mahmudovun barəsində danışılan klanına daxil olduğu da söylənilir. Xatırladaq ki, E.Mahmudovun belə bir klan yaratması barədə hakimiyyətdaxili qruplaşmalar haqda bilgisi olduğu şübhə doğurmayan sabiq səfir Arif Məmmədov məlumat verib. O, klanın Prezident Administrasiyası ilə hesablaşmadığını deyib. Z.Məmmədov tərəfdarları da illərdir iddia edir ki, onlara Prezident Administrasiyasında "ögey" münasibət var. Elə bu kimi səbəblərdən də nəqliyyat nazirinin antiadministrasiya düşərgəsində yer ala biləcəyi versiyası ağlabatan görünə bilər.

E.Mahmudovun çöküşü ilə Məmmədovların "boy göstərməsi" hətta belə təəssürat yaratmışdı ki, Z.Məmmədov hakimiyyətin əfvini qazanıb. Halbuki məzuniyyətdə olduğu müddətdə "Azərbaycan Dəmir Yolları" QSC Nəqliyyat Nazirliyinin tabeçiliyindən çıxarılıb, nazirliyin ən əhəmiyyətli səlahiyyətləri DİN-ə verilib. "Azəryolservis" nazirin nüfuz dairəsindən çıxarılıb və hökumətdə müstəqil quruma çevrilməsi müzakirə olunur.

Bundan əvvəl isə Məmmədovlar şəhər nəqliyyatından vurulub çıxarılıblar, taksilərə lisenziya verilməsi də "ASAN xidmət"ə həvalə edilib. Onun qohumlarının əksəriyyəti nəqliyyat sektorunda tutduğu vəzifələrdən uzaqlaşdırılıb, qardaşı Elton Məmmədov parlament seçkilərində iştirakdan kənarda qalıb. Milli Məclisin son iclasında da Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzinin Nəqliyyat Nazirliyindən alınıb DİN-ə verilməsi təklif olunub. Bu təşəbbüslə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin çıxış etməsi hökumətin bu məsələdə də yaxın vaxtlarda qərar verəcəyini göstərir. Məlumatlara görə, Prezident Administrasiyasında Nəqliyyat Nazirliyinin yeni əsasnaməsi hazırlanır. Layihədə nazirliyin fəaliyyətinin yalnız effektiv nəqliyyat siyasətinin işlənib hazırlanması ilə məhdudlaşdırılması nəzərdə tutulur. Bu faktlar da göstərir ki, hakimiyyətin Məmmədovlara qarşı münasibətində hər hansı dəyişiklik yoxdur.

Bunu prezident İlham Əliyevin iki gün əvvəl Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının yaradılması haqqında fərmanı da sübut edir. İqtisadiyyat və sənaye naziri Şahin Mustafayevin rəhbərliyi ilə yaradılmış Koordinasiya Şurasının tərkibinə nəqliyyat sektoruna aid bütün qurumların birinci şəxsləri - Dövlət Dəniz Administrasiyasının rəisi, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri daxil edilsə də, qurumda Z.Məmmədova yer verilməyib. Onun əvəzinə şurada nəqliyyat nazirinin müavini Musa Pənahov təmsil olunub. Yeri gəlmişkən, M.Pənahovun yaxın vaxtlarda nəqliyyat naziri təyin ediləcəyi deyilir. M.Pənahov 1976-cı ildən dəmir yolları sahəsində çalışır, 2004-cü ildən isə nazir müavinidir. Musa Pənahovun oğlu Moldovanın eks-prezidenti, kommunist Vladimir Voroninin nəvəsi ilə evlənib. Qudası Oleq Voronin Moldovanın ən zəngin adamlarından biridir. M.Pənahov son aylar elə qeyri-rəsmi nazir statusunda işləyir və son bir neçə dövlət tədbirində Nəqliyyat Nazirliyi adından o iştirak edir. Onun namizədliyini "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov da müdafiə edir. Hakimiyyətlə intriqalardan uzaq durmağa çalışan M.Pənahov bundan sonrakı dönəmdə nazirliyə rəhbərlik etmək iqtidarındadır. Üstəlik, arxalı qohumları sayəsində də hakimiyyətin üst düzeyi ilə münasibətləri yaxşıdır.

Bu gün Neftçalada qəbul keçirəcək Z.Məmmədovla bağlı hakimiyyətin son qərarının ləngiməsinin bir neçə mühüm səbəbləri var. Son dövrələrə qədər hakimiyyətdə ən odioz fiqurlardan olan Z.Məmmədovun səlahiyyətlərinin əhəmiyyətli hissəsi alınıb, iqtisadi imperiyasına əl qoyulub. Amma adının hökumətin sırasından çıxarılması prosesi bir qədər ləngiyə bilər. Artıq o qüdrətli Z.Məmmədov yalnız adı qalıb, mövqelərini itirib, ətrafı zəifləlib, bir sözlə, əvvəlki gücdə deyil. Unutmayaq ki, söhbət kifayət qədər təşkilatlanmış, yetərincə inzibati və maliyyə resurslarına sahib olan böyük bir qrupun sıradan çıxarılmasından gedir və bunun üçün təbii ki, zamana da ehtiyac var. Bu qruplar isə bir deyil, bir neçədir.

Z.Məmmədovdan əvvəl ölkədə daha bir oliqarx-məmur "Azərenerji" rəhbəri Etibar Pirverdiyevin zəifləldilməsi baş vermişdi. Z.Məmmədovun tam səlahiyyətsizləşdirilməsindən sonra isə daha bir qüdrətli nazir hakimiyyətdən birdəfəlik uzaqlaşdırıldı.

Prezidentin son müşavirələrdə xəbərdarlıqlarından da aydın görünürdü ki, hakimiyyət oliqarx-məmurların "əl-ayağını" yığmaqda qərarlıdır. Çünki oliqarx-məmurlar getdikcə hakimiyyətə problemlər yaradır, bəzi hallarda ən yüksək səviyyədə belə verilmiş qərarları ya sabotaj edirlər, ya da tabe olmurlar. Ən pisi isə odur ki, oliqarxik sistem böhran dövründə daha çox varlanmaq hərisliyindən əl çəkmirlər. Bu isə xalqda hakimiyyətə qarşı narazılığı artırır. İndi isə onların cəzalandırılması başlayır.

Amma həm də gəlinən nəticə budur ki, iqtidar bütün "ağır daşları" yerindən oynadıb özünə qarşı yeni-yeni cəbhələr yaratmaq, seçki ərəfəsi hücumları üzərinə çəkmək də istəmir. Z.Məmmədovun qismən rahatlamasının səbəbini də burada axtarmaq lazımdır. Hakimiyyət cəbhələrdən birini müvəqqəti bağlayır, amma bu, prosesin dayanması anlamına gəlmədidir.

❑ **"Yeni Müsavat"**

---

# Ölkədə nə baş verir?



**Azər RƏŞİDOĞLU**

## Qərb və yaxud Rusiya siyasi dairələri ilə separat danışıqlar aparılıbmı?

**MTN ətrafında baş verənlər digər nazirliklərdə də zəlzələ effekti yaşana biləcəyini ehtimal etməyə əsas verir. Belə ki, ölkədə heç bir nazir və məmur yaxın dövr üçün öz postlarını qoruyub saxlaya biləcəyinə əmin deyil. Bu baxımdan, seçki öncəsi hakimiyyət daxilində "kompromatlar savaşı" gün-gündən dərinləşir. Bu isə ona gətirib çıxarıb ki, hər bir məmurun taleyi istənilən an həll edilə bilər. Dövlət başçısı anlayır ki, əhalinin mühüm kəsimi məmurlardan narazıdır. Sadə vətəndaşlar kadr dəyişikliyi və islahatların aparılmasını gözləyirlər. Bir tərəfdən də xarici təzyiqlər prezidenti irimiqyaslı addımlar atmağa sövq edir.**

Son hadisələr də sübuta yetirdi ki, ölkədə kadr islahatları zəruridir. Mövcud komanda ilə seçkiyə getmək, uğur qazanılacağı təqdirdə belə ciddi problemlər deməkdir. Odur ki, iqtidar hansısa addımları atmağa, həddən ziyadə şişmiş məmurlara "qırmızı vərəqə" göstərməyə məhkumdur.

Lakin siyasi hakimiyyət ondan ehtiyat edir ki, yaranmış vəziyyətdə hakimiyyətdaxili qruplaşmaları zərərsizləşdirmək də təhlükəli ola bilər. Bu baxımdan, özbaşınalıqları ilə hamını təngə gətirmiş məmurların cəzalandırılması, lakin oliqarxların maraqlarının nisbətən saxlanılması çıxış yolu kimi dəyərləndirilə bilər. Burada məsələ heç də kiminsə "qırmız vərəqə" almasında da deyil. Söhbət "artıq yüklər"dən azad olmaqdan gedir.

Əks təqdirdə, hakim elita özü bütövlükdə iflasa uğraya bilər. Nəzərə alsaq ki, seçkilərin vaxtı yaxınlaşdıqca daxili savaş daha da qızışır, qabaqlayıcı tədbirlərin görülməsi qaçılmaz görünür. Bu baxımdan, siyasi hakimiyyətin islahatlara başlaması, struktur dəyişikliyi həyata keçirilməsi ən optimal variant kimi dəyərləndirilə bilərdi. Lakin korrupsiyalaşmış məmurlar islahatlara əngəldir. Digər tərəfdən, islahatları həyata keçirə bilməkdən ötrü ölkə daxilində gərginliyin azaldılması vacib elementlərdəndir.

Siyasi məhbuslar ordusunun yaradıldığı, müxalifətin bütün resurslardan məhrum edildiyi bir zamanda belə islahatlara getməyə iqtidar risk eləmir. Odur ki, islahatlara kompleks şəkildə yanaşılması, bütövlükdə bütün sahələr üzrə islahatların aparılmasının zamanı çoxdan çatıb. Lakin məmurların cəzalandırılması yalnız etimad limitinin bitməsi ilə bağlı deyil. Görünür, iqtidarda hansısa məmurların Qərb və yaxud Rusiya siyasi dairələri ilə separat danışıqlara getməsi barədə məlumatlar olub. Son həbslər də elə bu rakursdan təhlil edilə bilər. Belə ki, ən müxtəlif məlumatlara görə, ayrı-ayrı məmurlar Qərb siyasi dairələri ilə (eyni zamanda Rusiya ilə) Azərbaycanın gələcək siyasi taleyi ilə bağlı danışıqlar aparılıb. Ehtimal edə bilərik ki, məhz belə danışıqların aparılması barədə İlham Əliyevə məlumat ötürülüb. İstisna deyil ki, gündəmdə dövlət çevrilişi cəhdi də olub. Bir sözlə, dövlət başçısı qarşısında belə bir dilemma yaradılıb - ya komanda dəyişir, ya prezident özü postundan getməli olur. Qarşıdan isə dördüncü prezidentlik gəlir. Korrupsiyaya uğramış və xəyanət etmiş məmurları qara siyahıya salmaqla İlham Əliyev dördüncü prezidentliyinə "yaşıl işıq" yandırılması istiqamətində addımlar atdı.

Qarşıdan parlament seçkiləri gəlir. İstənilən halda İ.Əliyev iqtisadi və demokratik islahatlar aparmalıdır. Ehtimal etmək olar ki, parlament seçkilərindən dərhal sonra mövcud məmurların böyük bir hissəsi öz postları ilə vidalaşmalı olacaqlar. İctimai rəydə iflasa uğrayan, korrupsiya simvolu kimi tanınan məmurların işdən azad olunmasında İ.Əliyev özü də maraqlıdır. Qeyd edək ki, "MTN qalmaqalı" ilə ölkə rəhbəri siyasi dividentlər qazana bildi.

Daha bir maraqlı məqam var. Azərbaycan cəmiyyəti kadr siyasəti zamanı prioritet sayılan regionçuluq amilindən təngə gəlib. Bu sahədə mühüm irəliləyişlər olmayacaqsa, hakim elitadan narazıların sayı durmadan artacaq. Odur ki, irəli çəkiləcək kadrların gənc və müxtəlif bölgələrin təmsilçilərindən ibarət ola biləcəyi ehtimalı xeyli dərəcədə yüksəkdir. Bu isə hakim klanda parçalanma ehtimalını xeyli dərəcədə artırır. Bir sözlə, qarşıdan gələn mərhələnin iqtidar üçün böyük problemlər yaşadacağı ehtimalı yüksəkdir. Azərbaycanı olduqca maraqlı dövr gözləyir...

# Eldar Mahmudovun "imperatorluğu" haqda yeni bilgilər

**MTN mövzusu ölkə gündəminin manşetindən düşmür. Bu mövzu Azərbaycan ictimai-siyasi fikrini özünə təslim edə bilib. Eldar Mahmudovun vəzifəsindən azad edilməsi, nazirliyin 7 yüksək vəzifəli zabitinin həbsi mediadan tutmuş çayxanalara qədər geniş müzakirə olunur.**




# MTN-ə aylıq xərac verən nazirlərin adları - şok siyahı

Milli Təhlükəsizlik Nazirliyinin sabiq idarə rəisləri təkcə iş adamlarına çökməyibmiş; aylıq hesaba otuzdurulan xeyli dövlət məmuru da olub; həbsdəki MTN zabitlərinin ifadəsi əsasında yeni həbslər başlaya bilər; nazirliyin daha bir idarə rəisinin işdən çıxarıldığı, aeroportun rəisinin istintaqa cəlb olunduğu deyilir

Mətbuatda hər gün "MTN işi" ilə bağlı müxtəlif məlumatlar yazılır. Hakimiyyətin ən güclü, geniş təsir imkanlarına malik nazirinin qəfil vəzifədən alınması ən müxtəlif səviyyələrdə təhlil olunur. Bəzi iddialara görə, bu cür səs-küylü işdən çıxarılmaların və qrup şəklində həbslərin arxasında siyasi məqamlar dayanır. E.Mahmudovun və onun MTN-dəki komandasının qəzəbə gəlməsində əsas amil kimi siyasi hakimiyyətə nəzarəti gücləndirmək istəkləri göstərilir.

Burda məntiq tapmaq olar: iqtisadi baxımdan həddən artıq gücləndikdən sonra iştaha böyüyür və siyasi hakimiyyət uğrunda savaş başlayır. İndiyədək bunun örnəyi çox olub.

Məsələn, Rəsul Quliyev nümunəsi. O, Milli Məclisin sədri olmaqla bərabər, ən varlı məmurlardan sayılırdı. O vaxtkı qanunlara görə, prezidentdən sonra ölkənin ikinci şəxsi idi. Amma gözü 1 nömrəli kresloda idi. Bu iddiası sonda onu hakimiyyətdən və Azərbaycandan didərgin saldı.

Əli İnsanov özünü Heydər Əliyevin siyasi varisi hesab edirdi. Kifayət qədər pulu, siyasi proseslərə təsir imkanları, hakimiyyətdə nüfuzu var idi, amma bu statusu onu heç cür razı salmırdı. Prezident olmaq eşqi bir an olsun sabiq səhiyyə nazirini rahat buraxmırdı. Axırda nəinki istəyinə çata bilmədi, üstəlik, nazir postunu, var-dövlətini və ən əsası da azadlığını itirdi. Ə.İnsanov 10 ildir ki, zindandadır.

Keçmiş iqtisadi inkişaf naziri Fərhad Əliyev də siyasi iddiasının qurbanı oldu. O da nədənsə özünü Heydər Əliyevin siyasi varisi kimi görürdü. Prezidentliyin onun haqqı olduğu düşüncəsində idi. Bunu zatən bilməyən yoxdur. Hakimiyyət istəyi onu yanlış məcralara yönəltdi və çox şeyini qeyb etdi. Amerikalılarla görüşlərdə ona "sizi yaxın gələcəkdə Azərbaycanın prezidenti görürük" sözlərindən sabiq nazir necə məsti-xumar olmuşdusa, bir də gözünü istintaq otağında açdı. Artıq gec idi... Özünü gənc və perspektivli siyasətçi hesab edən Fərhad Əliyev gəncliyini və perspektivini türmədə qoyub çıxdı...

Yeni qıraqdan baxan üçün bu adamların 1-ci posta iddialarını başadüşülən deyil. Prosesləri orta səviyyədə təhlil edə bilən insanlar sual edirlər: nazir olasan, pulun, var-dövlətin başından aşsın, əlində olduqca böyük səlahiyyətlər cəmləşsin, bütün bunların fonunda karyeranı riskə atıb prezident olmaq eşqinə düşməyə nə ehtiyac var? Amma bu sualın müəllifləri bir şeyi bilmirlər ki, pul və səlahiyyət çoxaldıqca, iştaha, tamah və hakimiyyət hərisliyi də artır. Avtoritar rejimlər bu istəyə düşən komanda üzvünü ağır cəzalandırır. Yuxarıda bir neçə örnək vermişik.

***

Biz birmənalı iddia edə bilmərik ki, Eldar Mahmudov prezident olmaq istəyib. Amma bu fikrin onun düşüncəsində özünə yer etmədiyini də istisna etmirik. Oktyabrın 17-dən bəri MTN-lə bağlı yayılan rəsmi və qeyri-rəsmi xəbərlər deməyə əsas verir ki, Eldar Mahmudov Azərbaycanda çox ciddi nəzarət mexanizmi qurubmuş. O, az qala Azərbaycanın səmasında uçan quşların sayını, növünü öyrənməyə, onların uçuş xəttini müəyyənləşdirməyə iddia göstərib. Nağıllardakı ifadə ilə desək, MTN-in üstündən quş uçsa qanad salarmış, qatır keçsə dırnaq.

### Xərac toplayan rəislərin adları

Redaksiyamıza Eldar Mahmudov və komandası barədə son dərəcə sensasion sayılacaq məlumatlar daxil olub. Həmin məlumatları yarımbaşlıqlarla təsnifatlaşdırıb oxucuların diqqətinə çatdırırıq.

Məsələn, əlimizə çatan bilgilərə görə, sabiq milli təhlükəsizlik naziri bir çox həmkarlarının fəaliyyətinə təsir göstərirmiş. Deyilənə görə, MTN-in sabiq rəhbərliyi ayrı-ayrı nazirlərdən, komitə və ASC rəhbərlərindən aylıq xərac toplayırmış. Bu işi əsasən bir neçə idarə rəisi, onların müavinləri görüb. Prosesdə aparıcı fiqur kimi Akif Çovdarovun adı çəkilir. Siyahıda başqalarının da adı var. Onlardan bir neçəsinin adı bizə məlumdur: Elşad Mahmudov, Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Füzuli Əliyev, Antiterror İdarəsinin rəis müavini İlqar Əliyev, Monitorinq Mərkəzinin rəhbəri Teymur Quliyev, Fərhad Atayev, Natəvan Mürvətov və s.

### Nazirləri qohumları ilə şantaj ediblər...

Mənbəmiz bildirir ki, Akif Çovdarovun kurasiyasındakı dövlət qurumları Nəqliyyat, Təhsil, Səhiyyə nazirlikləri, həmçinin neft sektorundakı qurumlar olub.

Mənbəmiz bildirir ki, əsas "haqq" qoyulan yüksək çinli məmurlardan biri nəqliyyat naziri Ziya Məmmədov olub. Deyilənə görə, hər ayın sonunda Z.Məmmədov Akif Çovdarova 1 milyon manat xərac verirmiş. Hansı nazir, məmur MTN rəhbərliyinin bu tələbindən imtina etsəymiş, yaxın qohumlarının başına bir iş gəlirmiş. Qaynağımız bildirir ki, əksər nazirlərin, komitə sədrlərinin fəaliyyəti şəffaf, qohumlarının ailələrindəki mühit o qədər də ürək açan olmadığından onlar bu xərac tələbindən imtina edə bilmirmiş. Nəticədə MTN-in sabiq rəhbərliyi dövlətin gücündən şəxsi maraqları üçün yararlanıb iş adamlarını, məmurları ciddi basqı, təhdid altında saxlayırmış.

Bizə çatan məlumatlarda o da iddia olunur ki, Ziya Məmmədov MTN tərəfindən təhdid, şantaj olunduğu haqda ölkə rəhbərliyinə bir neçə dəfə şikayət edib. Lakin bu şikayətlərə hər dəfə "gözlə və bir qədər də döz" cavabı verilirmiş. Görünür, siyasi rəhbərlik daha ciddi faktların toplanmasına mane olmaq istəməyib...

### Pul üstündə MTN-in koridorunda yumruq davası

Məlumatı redaksiyamıza ötürən mənbə maraqlı bir olay haqda da danışıb. Deyilənə görə, MTN-in idarə rəisləri və onların müavinləri məmur heyətindən və iş adamlarından pul almağın üstündə vaxtaşırı bir-biriləri ilə dalaşırmış. Məsələn, A.Çovdarovun xərac aldığı iş adamından Füzuli Əliyev də pul qoparırmış. Mənbəmiz deyir ki, bunun üstündə A.Çovdarovla F.Əliyev bir dəfə nazirliyin koridorunda yumruqlaşıblar.

### Müavin rəisini "baqaj"a qoyub?

Bu arada, dünən yazı çapa hazırlanarkən, məlumat aldıq ki, MTN-in Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin rəisi Sübahir Qurbanov işdən azad edilib. Onun müavini Füzuli Əliyevin *(hazırda həbsdədi-red.)* istintaqa verdiyi ifadəyə görə işdən azad olunduğu deyilir. O da bildirilir ki, yaxın günlərdə Sübahir Qurbanov həbs edilə bilər.

### Görüş yerini dəyişmək olmaz - "Narşərab" restoranı

E.Mahmudovun hakimiyyətdə ən yaxın adamı, dostu prezidentin iqtisadi məsələlər üzrə köməkçisi Əli Əsədov olub. Sabiq nazirin Ə.Əsədovla hər axşam Bakıdakı "Narşərab" restoranında görüşdükləri, birlikdə yemək yedikləri bildirilir. E.Mahmudovun nazir postuna təyinat almasında Əli Əsədovun da rolunun olduğu haqda bilgilər var.

### Bank sektoru necə iflic edildi?

Mənbəmiz bildirir ki, MTN rəhbərliyi ölkə iqtisadiyyatını iflic edib. Zatən son günlər ayrı-ayrı iş adamlarının mətbuatda MTN zabitlərindən şikayət etdikləri haqda materiallar dərc olunur. İqtisadiyyatın əsas lokomotivi olan bank sektoru MTN rəhbərliyinin əlindən çox çəkib. 2012-ci ilin martında Azərbaycanın ən qabaqcıl banklarından olan "Texnikabank"a qarşı MTN əməliyyat keçirdi. Həmin əməliyyatdan sonra bu bank E.Mahmudovun qudası Cahangir Hacıyevin nəzarətinə keçdi. İlk beşlikdə olan "Texnikabank" tez bir zamanda yerlə yeksan olundu. Artıq bank müflis olub, rəhbəri işdən çıxarılıb. MTN-in "kəmənd atdığı" banklar sırasında "Bank of Baku", "Standartbank", "Bank of Azerbaijan" da var. Beynəlxalq Bank vasitəsilə mənimsənilən milyardlar haqda isə indiyədək çox danışılıb.

### "Aeroport Pərviz" istintaqda dindirilir

Bu arada, MTN-in Heydər Əliyev adına Beynəlxalq Hava Limanının şöbə rəisi Pərvizin (soyadını dəqiqləşdirə bilmədik-red.) istintaqa cəlb olunduğu haqda məlumat yayılıb. Deyilənə görə, onu hava limanı üzərindən xaricə daşınan qanunsuz pullara görə dindirirlər. Mənbə bildirir ki, Beynəlxalq Bankdan və digər qurumlardan çıxarılan milyardlarla pul Pərviz vasitəsilə Avropaya, Çinə və Rusiyaya göndərilirmiş. Onun istintaqa verdiyi ifadədən sonra yeni həbs dalğasının olacağı gözlənilir...

### Kərəmi ağlamaq tutubmu?

Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənovun da adı "MTN işi"ndə hallanır. Mətbuat komitə sədri ilə MTN rəhbərliyinin iş birliyi haqda bu günədək çox yazıb. Bizim özəl mənbələrdən əldə etdiyimiz məlumatda isə bildirilir ki, hansı iş adamı, nazir və başqa səlahiyyət sahibləri yeni mülk, obyekt alanda Kərəm Həsənov ilk məlumatı siyasi rəhbərliyə yox, Eldar Mahmudova verirmiş. Bu məlumat mübadiləsindən sonra mülk sahiblərinin başına nələrin gəldiyi haqda dəqiq bilgimiz yoxdur. Amma nəsə əldə etsək oxucularla bölüşməyə çalışacağıq.

### Xalq prezidenti ona görə alqışlayır ki...

Sonda bildirək ki, prezident İlham Əliyevin 17 oktyabr sərəncamından sonra Azərbaycanda qəribə bir canlanma yaranıb. İş adamları, vəzifəli şəxslər sevinc içindədirlər. Onlar indi-indi etiraf edirlər ki, MTN-dən çox ciddi təzyiq görüblər. Əsasən də iş sektoru 11 ildən çoxdur bu nazirliyin basqısı altında inləyib. Heç şübhəsiz, son addımı ilə ölkə prezidenti bütün kateqoriyalardan olan vətəndaşların təqdirini qazanıb. Hər kəs bu addımların davamını gözləyir.

Sahibkarların bu sevinci uzun sürəcəkmi? Ölkə rəhbərliyinin bu cür sərt və lazımi addımları davamlı olacaqmı? Bunu zaman göstərəcək...

❑ **Aydın ASLAN**

YENİ MÜSAVAT
N 235 (6263) 23 oktyabr 2015

# "MTN-də əslində nə baş verdiyi bilinməyəcək"

## Sülhəddin Əkbər: "Hilal Əsədovun da hələ müavin olması bir halda mümkündür ki, MTN-də iki birinci müavin postu olsun"

## Sabiq MTN-çi Eldar Həsənovun nazir olacağı ilə bağlı yayılan xəbərlərə münasibət bildirdi



**Son günlər Milli Təhlükəsizlik Nazirliyində yaşanan məlum hadisələr cəmiyyətin və mətbuatın əsas müzakirə mövzusudur. Nazir postunun hələ də boş qalması, MTN rəhbərliyinə daxil olan bəzi şəxslərin həbs edilməsi, aidiyyəti orqanların baş verənlərlə bağlı geniş rəsmi açıqlama verməməsi məsələni aktual edən əsas amillərdir.**

Əksər ekspertlər hesab edirlər ki, yeni təyin olunacaq MTN rəhbəri ilk növbədə, qurumun bütün incəliklərinə bələd və peşəkar kəşfiyyatçı olmalıdır. Nazir postunun boş qalması hər keçən gün iddiaçıların sayının artmasına səbəb olur. Azərbaycanın Serbiya, Monteneqroda və Bosniya və Herseqovinadakı səfiri Eldar Həsənovun da MTN rəhbəri olacağı barədə xəbərlər yayılıb.

Onu da qeyd edək ki, milli təhlükəsizlik nazirinin birinci müavini, general-leytenant Hilal Əsədovun həbs olunması ilə bağlı yayılan xəbərlərə qurumun 21 oktyabrda verdiyi açıqlama insanların beynilərində təzad yaradıb. Belə ki, MTN-in açıqlamasında H.Əsədovun hazırda iş başında olduğu qeyd olunur. Halbuki prezidentin sərəncamı ilə həmin posta Penitensiar Xidmətin rəisi Mədət Quliyev təyin olunub.

**MTN-də baş verənlərə milli təhlükəsizlik nazirinin sabiq birinci müavini Sülhəddin Əkbərdən ümumi dəyərləndirmə aldıq.**

**Sabiq MTN-çi qurumda son günlərdə baş verənlərdən sonra gəldiyi qənaəti belə ifadə etdi:** "Ümumiyyətlə, MTN rəhbərliyinə son təyinat olduğu zaman - 2004-cü ildə cəmiyyətdə, qurum daxilində və orada çalışan keçmiş əməkdaşlar arasında narahatçılıq yaranmışdı. Bir qayda olaraq, polisin Milli Təhlükəsizlik Nazirliyinə işə götürülməsinə müsbət baxılmırdı. Birincisi, bu quruma işə götürülən şəxsin yüksək intellektual səviyyəsi və savadı olmalıdır. İkincisi, orada çalışanların fərdi iş keyfiyyətinin olması da vacibdir. Sovet dövründə polisdə çalışanlara etibar yox idi. Onlar Milli Təhlükəsizlik Nazirliyinə işə götürülmürdülər. Bu baxımdan MTN-ə polisdən bir şəxsin rəhbər təyin olunması ciddi narahatçılıq yaratdı. Keçən 11 il ərzində bu narahatlığın nə qədər əsaslı olduğu göründü. Təbii ki, MTN-də keçmişdə və hazırda çalışanlar bundan dərin təəssüf hissi keçirirlər. Azərbaycan hakimiyyəti aparılan istintaq barədə cəmiyyətə əsaslı açıqlama versə, acınacaqlı proseslərin olduğunu cəmiyyət görər. Amma belə bir açıqlama veriləcəyinə inanmıram. Bu barədə düzgün məlumat da verilməyəcək. Nazirin işdən azad olunması, eləcə də aparılan həbslər barədə sona qədər cəmiyyət həqiqəti bilməyəcək".

**S.Əkbər nazir olacaq şəxsin hansı keyfiyyətlərə sahib olmasına da toxundu:** "MTN-də nəyə görə yüksək intellektual səviyyə tələb olunur? Bu sualın cavabını bilmək lazımdır. Milli təhlükəsizlik milli maraqların möhkəm təminat altına alınması və geniş təhlükəsizlik maraqlarının etibarlı qorunması, təhlükəsizliyin təmin edilməsidir. Milli təhlükəsizlik təmin edilmədən nə milli maraqların davamlı inkişaf etdirilməsi və möhkəmləndirilməsi, nə də dövlət qarşısında duran əsas siyasi vəzifələrin həlli və başlıca siyasi məqsədə nail olmaq mümkün deyil. Milli maraqlar fərdin, cəmiyyətin və dövlətin uzunmüddətli, on illərlə ölçülən təməl maraqlarıdır.

## "Nə hökumət, nə də MTN mətbuatla düzgün işləmir"

Azərbaycanın milli maraqları vətənin müdafiəsi, demokratik inkişaf, hərtərəfli və davamlı iqtisadi inkişaf, əlverişli beynəlxalq əhatənin yaradılması, milli birliyin təmin edilməsi, xaricdə yaşayan soydaşlarımızın hüquqlarının müdafiəsi, xaricdəki investisiyaların qorunmasıdır. Dövlətin milli siyasətinin başlıca məqsədi təhlükəsizliyin etibarlı təmin edilməsi, maraqların kəsintisiz davamlı inkişaf etdirilməsi, dövlət qarşısında duran əsas siyasi vəzifələrin həllinə və başlıca siyasi məqsədə nail olmaqdır. MTN-in başlıca funksiyalarından birinin kəşfiyyat olduğunu da nəzərə alsaq, bu qurumun dövlətin, cəmiyyətin və vətəndaşların həyatında nə qədər böyük rol oynadığı aydın olar. Bu səbəblərdən belə bir quruma rəhbər təyinatı da, ona rəhbərlik də çox böyük məsuliyyət tələb edir. Bunları bilmədən MTN-ə rəhbərlik etmək mümkün deyil. Rəhbər şəxsin zəka səviyyəsi yüksək olmalıdır. Təhsil istiqamətlərinə gəlincə, bütün sahələrdə ola bilər. Vətənpərvərlik, intellektual səviyyə, analitik düşünmə qabiliyyəti yüksək olan şəxs MTN rəhbəri ola bilər. Həmin şəxsin ilk təhsili başqa sahə də ola bilər. Sonradan xüsusi təhsil ala bilər. Milli hakimiyyət dövründə Azərbaycan Xüsusi Xidmət Məktəbinin əsası qoyuldu. İndi qürur hissi ilə deyə bilərəm ki, bu məktəbin əsası təşəbbüsümlə qoyulub. Məktəb indi böyüyüb və artıq Milli Təhlükəsizlik Nazirliyinin Akademiyası olub. Orada təhsilin səviyyəsinin nə dərəcədə olduğunu deyə bilmərəm. Göründüyü kimi, MTN hazırda həssas məqam yaşayır. Buraya rəhbər təyin olunması da məsuliyyətdir".

**Sülhəddin Əkbər həbs edilən MTN-çilərə qarşı irəli sürülən cinayət maddələrinə də mövqeyini açıqladı:** "İrəli sürülən maddələr bütün sahələrə şamil oluna bilər. Əsas ittihamlardan biri dinləmələrlə bağlıdır. Bu baxımdan maddələri istənilən şəxsə vermək olar. Burada iqtisadi, hərbi, təhlükəsizlik sahələrindən söhbət getməsinin mənası yoxdur. Ümumi xarakterli maddələrdir. Gələcəkdə istintaq dərinləşdirilib, müxtəlif istiqamətlərə yönəldilə bilər. Burada vəzifəli şəxslərin qulluq səlahiyyətlərindən istifadəsi nəzərdə tutulur. İqtisadi cinayətlərdən söhbət gedirsə, hazırda Azərbaycanda elə struktur yoxdur ki, orada rüşvət və korrupsiya olmasın. Hesab edirəm ki, MTN-də baş verənlər bu amillərlə bağlı deyil. Aylar öncədən mətbuata bu barədə demişdim. Azərbaycandakı xüsusi xidmət orqanlarında çalışanlar məsələdən xəbərdar idilər. MTN-də dəyişikliklər olacağını bilirdilər. Burada əsas olan seçkiöncəsi MDB rəhbərlərinin görüşündən dərhal sonra məlum prosesin baş verməsidir. Düşünürəm ki, burada əsas rol oynayan odur ki, dövlət başçısına həmin sammitdə kəskin informasiya verilib. Bu da prezidenti qəzəbləndirib, nəticədə bu addımı atıb. Bu informasiyaların nədən ibarət olması barədə təbii ki, bəzi mülahizələrim var. Amma çox ciddi məsələ olduğundan mətbuata açacaq qədər əlimdə real məlumat yoxdur. Belə analoji hadisə 2005-ci ildə də, məhz indiki kimi 17 oktyabrda baş verdi. İki nazir Rusiya xüsusi xidmət orqanlarının verdiyi informasiya ilə həbs olunmuşdu. Dövlət çevrilişinə cəhd ittihamını irəli sürmək istəmişdilər. Lakin beynəlxalq skandal ola biləcəyini düşünüb, istintaqın istiqamətini dəyişmişdilər. Köhnə təcrübədən istifadə edərək, indi elə əvvəldən tamam başqa istiqamətdə istintaq aparacaqlar".

**Sabiq MTN-çi Eldar Həsənovun nazir olacağı ilə bağlı yayılan xəbərlərə də münasibət bildirdi:** "Azərbaycan cəmiyyətinin haqqı var ki, belə məsələləri müzakirə etsin. Amma indi konkret hansısa şəxsin adını çəkmək düzgün olmazdı. Dövlət başçısının səlahiyyətində olan məsələdir. Rəhbər ola biləcək şəxsə xas olan keyfiyyətləri yuxarıda sadaladım. Şəxsi iş keyfiyyətləri, vətənə bağlılıq, bilik səviyyəsi mütləq nəzərə alınmalıdır".

**S.Əkbər MTN-in Hilal Əsədovun iş başında olması ilə bağlı açıqlamasına maraqlı cavab verdi:** "Nəzəri cəhətdən bu bir halda mümkündür ki, yeni struktur dəyişikliyi olsun. Yəni iki birinci müavin postu olsun. Amma təcrübədə belə hala rast gəlməmişəm".

**MTN rəhbərinin sabiq birinci müavini sovet dövründə bu qurum üçün əməkdaşlar yetişdirən məktəblərdən söz açdı:** "Sovet və müstəqillik dövrünün xüsusi xidmət orqanları arasında ciddi fərqlər var. Sovet dövründə Dövlət Təhlükəsizlik Komitəsi adlanırdı. Milli Təhlükəsizlik Nazirliyində isə fərdin, cəmiyyətin və dövlətin qorunmasından söhbət gedir. Çünki dövləti quran fərdlər və cəmiyyətdir. Sovet dövründə də hansı sahəni bitirməyin mənası yox idi. Amma mütləq təhsil önəmli idi. Mən orada çalışanda müxtəlif ali məktəbləri bitirən şəxslər var idi ki, sovet dövründən işə götürülmüşdülər".

**Müsahibimiz hakimiyyətin kadr qıtlığı yaşamadığını düşünür:** "Eldar Mahmudovun qəflətən vəzifəsindən azad olunması, yerinə hələ də təyinatın olmaması onu göstərir ki, bu dövrdə nazirin postundan uzaqlaşdırılması nəzərdə tutulmayıb. Mahmudovun azad olunması seçkidən sonraya planlaşdırılırdı. Çünki onun yerinə kadr hazır deyildi. Dövlət başçısına verilən informasiyanın onu ciddi şəkildə düşünməyə vadar etdiyi görünür. İndiki vəziyyətdə prezident iki məsələni nəzərə almalıdır. Şəxsi sədaqət məsələsi və Rusiya amilini nəzərə almalıdır. Özünə yaxın şəxs belə çıxırsa, demək, daha dərindən düşünmək lazımdır. Təhlükəsizliyimiz böyük ölçüdə Rusiyaya buraxılıb. Qonşu dövlətin təsiri artıb".

**Keçmiş MTN-çi baş verənlərlə bağlı mətbuatın davranışlarından da danışdı:** "Mətbuat daha çox həssas olmalıdır. Dövlət, hərbi və başqa sirlərdən söhbət gedirsə, diqqətli olmaq vacibdir. Başqa məsələlərdən söhbət gedirsə, mətbuatın vəzifəsidir ki, geniş araşdırsın, cəmiyyətə obyektiv informasiya çatdırsın. Nə hökumət, nə də MTN mətbuatla düzgün işləmir. Məhz buna görə də şayiələr cəmiyyətdə baş alıb gedir. Günahkar mətbuat deyil. MTN-in mətbuat xidməti var. Bu qurum düzgün şəkildə məlumatları mətbuata çatdırmalıdır. MTN etmirsə, istintaq orqanı etsin. Necə olur ki, cəmiyyətin diqqətində olan məsələ barədə məlumat verilmir? Bəllidir ki, 7 şəxs həbs edilib. Onların kimliyi haqqında rəsmi məlumat verilmir. Bu, birbaşa qanunvericiliyin pozulması deməkdir. Kimlərinsə tutulması dövlət sirridir? Mütləq məlumat verilməlidir".

❑ **Cavanşir ABBASLI**

# "Deməli, dövlətin qulağı da, gözü də xarab imiş..."

## Əli Nağıyev: "Hələ Heydər Əliyevin zamanından başlayaraq, bu məsələ ilə əlaqəli çox şeyləri bilirəm"



Əli Nağıyev

**General-polkovnik Eldar Mahmudovun milli təhlükəsizlik naziri vəzifəsindən azad edilməsi Azərbaycan cəmiyyətində böyük rezonans doğurub. Media bir neçə gündür bu mövzunu müzakirə etməkdədir.**

Eldar Mahmudovun işdən çıxarılmasından sonra Baş Prokurorluğun yaydığı açıqlamada bildirildi ki, Milli Təhlükəsizlik Nazirliyinin (MTN) 7 yüksək rütbəli zabiti vəzifə səlahiyyətlərindən sui-istifadə etdiklərinə görə həbs olunub.

Modern.az saytı MTN-də baş verənlərə keçmiş əmək və əhalinin sosial müdafiəsi naziri, Azərbaycanın Belarusdakı sabiq səfiri Əli Nağıyevdən münasibət öyrənib. Ə.Nağıyev olayla bağli fikirlərini bildirib:

"Çox təəssüflər olsun ki, bu bizim millətə xas olan xüsusiyyətdir. Yıxılana balta vuran çox olur. Buna mən tarixdən də çoxlu misallar gətirə bilərəm. Nizamidən, Nəsimidən tutmuş, Hüseyn Cavidə qədər. Dünən, bir ay bundan qabaq az qalırdı desinlər ki, yıxılan evin dirəyi odur, bu gün isə başlayıblar baltalamağa. Yəni yıxılana balta vurmaq bu millətin xüsusiyyətidir. Ancaq Allah məni bu missiya ilə yaratmayıb. Allah məni ayrı missiya ilə yaradıb. O cür işlərlə məşğul ola bilmərəm. Kim nə deyirsə, öz işidir. İkinci bir tərəfdən isə söhbətə başlayıb məsələni çözməyə çalışsam, çox şeyləri gərək deyəm".

**Eks-nazir bildirib ki, məsələni dərindən açıb ortaya qoysa, o zaman bu məsələnin bu qədər eybəcər hala gəlib çıxmasında günahkar olanların hamısının eybi açılacaq:**

"Onda da çox adamların kürkünə bit düşəcək. Çünki hələ Heydər Əliyevin zamanından başlayaraq, bu məsələ ilə əlaqəli çox şeyləri bilirəm. Ona görə məsələnin üzərindən qısa keçirəm. Milli Təhlükəsizlik Nazirliyi hansısa başqa nazirlik deyil. Bu nazirlik dövlətin həm qulağıdı, həm də gözü. Əgər 7 nəfər general və polkovnik olan ən yüksək rütbəli zabitlər həbs olunursa, deməli, dövlətin qulağı da, gözü də xarab imiş. Bu çox pis şeydir. Sadəcə, bunu deyə bilərəm ki, Allah bundan betərindən qorusun".



# Günelin anasının seçimi

Zamin HACI
zaminhaci@gmail.com

"Təmiz vicdan ən yaxşı yastıqdır"
*(Henrik İbsen)*

**Azərbaycanda çox iyrənc və dəhşətli hadisələr baş verməkdədir, bilmirəm siz bunu hiss edirsinizmi. Mən hiss edirəm, üstəlik, hər gün vəziyyətin daha da ağırlaşdığını görüb sarsılıram. Doğrudanmı bu ölkənin özünü qoruma mexanizmləri tam sıradan çıxarılmışdır? Doğrudanmı hamı qorxudulub, sındırılıb, məhv edilib? Doğrudanmı onun yazıçıları ancaq "Mindi gəldi, mindi getdi" diframbları quraşdıran, adını anarkən belə ürək bulanan qoca kaftarlardan, sənətkarları yal üstündə boğuşan xalq artisti manıslardan ibarətdir? Niyə narahat olmursunuz, ay millət? Mütləq şər qapınızdan içəri girməlidir? Axı onun ayaq səsləri daim ətrafınızda dolaşır. Pəncərənizin altında ulayır. Damınızda gəzişir. Dara düşən qardaşlarımıza dəstək olmadıqca, özünüz də dara düşürsünüz, bunu anlamaq çoxmu çətindir?**

Leyla Yunusu həbsxanada öldürsələr, vicdanımız qarşısında nə cavab verəcəyik? İlqar Məmmədovun döyülməsinə nə qədər göz yummaq olar? Axı bu adamlar "terminator" deyil, ətdən, sümükdən, qandan ibarətdir. *(Bu yerdə nə cavab verəcəyik sualımın mənasızlığını dərk edirəm. Faina Kunqurova türmədə öldürüləndə vicdanımıza nə cavab verdik ki?)*

Çox hörmət bəslədiyim, ölkənin gələcəyi saydığım bir gənc var. Rejimin türməsini də görüb. Təzəlikcə türmə rəisi çekistlərə başçı göndəriləndə yazdı ki, çox yaxşı təyinatdır. Sən demə, özü türmədə olanda hansısa təzyiqlə üzləşibmiş, müraciət edib, təzyiqlər aradan qalxıb. Bəs həmin rəisin vaxtında türmələrdə işgəncə görən, öldürülən onlarla, bəlkə yüzlərlə insanın taleyi necə olsun? Bu ölkənin ən keyfiyyətli insanı saydıqlarımız da "mənə dəyməyən ilan min yaşasın" məntiqi ilə düşünürsə, başımıza haranın daşını salaq? Merkantilizm hansı yolla bizim qanımıza bu qədər işləmişdir? Bəlkə inam sistemimizin banisi tacirdir, ona görə?

Görkəmli Amerika yazıçısı Uilyam Stayronun çox təsirli bir romanı var: "Sofinin seçimi". Kinosu da çəkilib, bəlkə oxuyanlar filminə baxmış olar. Əsərdə faşist ölüm düşərgəsindən sağ çıxmış Sofi adlı qadının taleyindən danışılır. Bütün roman boyunca Sofinin hansısa dəhşətli bir sirr gəzdirdiyi oxuculara aşılanır, amma bu sirr yalnız sonda açılır. Sən demə, Sofinin almanlara əsir düşəndə iki uşağı varmış - bir oğlan və bir qız. Faşistlər Polşadan bu ailəni ölüm düşərgəsinə aparanda, qatar son dayanacağa çatanda bir alman zabiti Sofinin qarşısında dəhşətli bir şərt qoyur, deyir ki, əgər istəsən uşaqların birini səninlə sağ buraxa bilərəm. Gənc ana bu tükürpədici şərti düşünərkən zabit hirslənir, deyir ikisini də qaz kamerasına yollayıram, tez elə, seç. Sofi oğlunu seçir. Qızını öldürürlər.

Bəyəm bu həftə yazar Günel Mövludun anasının, atasının qarşısına çıxan "seçim" Stayronun bədbəxt qəhrəmanının seçimindən çox fərqlənir? Xəbəriniz varmı, yoxmu, bilmirəm, amma xəbər verə bilərəm. Günel Mövlud mühacirət etmiş jurnalistdir, yapistlərin sevmədiyi "Meydan TV" internet mediası projesi ilə əməkdaşlıq edir. Həmin quruma təzyiqlərdən biri olaraq Mövludun 2 qardaşının narkotik maddə ilə şərlənib həbs edildiyi deyilir. Məhz o iki oğullarını xilas etmək üçün Günel Mövludun valideynləri bu günlərdə prezidenti dəstəklədikləri haqda müraciət yazıblar, Günel Mövluddan isə bir övlad olaraq imtina elədiklərini bildiriblər. Mənim qəti şübhəm yoxdur: əgər Azərbaycanda vəziyyət Stayronun əsərindəki dövr qədər kəskin olsaydı bu valideynlər Günel xanımın qətlə yetirilməsini, ancaq oğullarının sağ buraxılmasını da istəyərdilər. Üstəlik, hələ nəzərə alın Sofi Polşada yaşayırdı, Mövludun anası "Sofi" isə oğlan uşaqlarına qızlardan daha çox hörmət qoyulan Azərbaycanın vətəndaşıdır. Mən hətta Osvensimə yaxınlaşan o qatardan anası tərəfindən təpiklə vurulub atılan Günel Mövludu təsəvvür də elədim.

Bundan qabaq Emin Millinin və başqa "rejim düşmənlərinin" qohumları, valideynləri də uşaqlarından imtina ərizələri yazmışdılar. Sözüm odur ki, bunlar tək-tük faktlar deyil, Azərbaycanda bir tendensiya, bir axın halını alır. Siz buna "Əşşi, ana uşağından imtina etməz, bunu elə-belə yazırlar, məqsəd düşməni çaşdırmaqdır" deyə bilərsiniz. Əlbəttə, belə uydurma təşkinlik vicdanın başı altına yastıq olmağa yaxşı yarayır.

Sadəcə, belə vicdanın ağzına yastıq bassan daha yaxşıdır.

**Gürcüstanla Rusiya arasında mavi yanacağın nəqli ilə bağlı aparılan müzakirələr intensivləşdikcə Azərbaycanın narahatlığı artır. Son zamanlar Bakı ilə Tiflis arasında dövlət və hökumət səviyyəsində müzakirələrin aparılması da bu narahatlığın təsdiqidir. Qeyd edək ki, Gürcüstanın Rusiya və İrandan mavi yanacaq alması ilə bağlı xəbərlər bir müddət əvvəl yayılıb. Bu barədə Gürcüstanın xarici işlər nazirinin müavini David Dondua və energetika naziri Kaxa Kaladze açıqlama verib.**

# Gürcülər niyə daha Azərbaycan qazı ilə qızınmaq istəmir?

## Vüqar Bayramov: "Avropaya inteqrasiya edən Tiflisdə artıq qəbul edirlər ki, Rusiya faktorunun nəzərə alınması olduqca vacibdir"




Hesab olunur ki, Azərbaycan qazından imtina etməsi və daha ucuz qaz almaq üçün İran və Rusiya ilə danışıqlara başlaması, Azərbaycanın Gürcüstan bazarında zəifləməsi deməkdir. Gürcüstanın böyük qaz tədarükçüsü Azərbaycandır. SOCAR Gürcüstandakı neft satışının 72%, dizel satışının isə 61%-nə nəzarət edir. Məlumata görə, 2014-cü ildə Gürcüstan "Şahdəniz-1" yatağından min kubmetri 55 dollardan olmaqla, 250 milyon kubmetr, "Şahdəniz-2" yatağından isə min kubmetri 64 dollardan olmaqla, 500 milyon kubmetr qaz alıb. Gürcüstanın baş naziri İrakli Qaribaşvili Bakıya qəfil və əvvəlcədən planlaşdırılmayan səfər etdi. Baş nazir prezident İlham Əliyevlə iki ölkə arasındakı münasibətləri, o cümlədən energetika sahəsindəki əməkdaşlığı müzakirə edib. Ötən gün isə Gürcüstanın baş nazirinin müavini, xarici işlər naziri Giorgi Kvirikaşvili Azərbaycana səfər etdi. Azərbaycan prezidentinin 6 noyabrda Tiflisə edəcəyi səfər zamanı da əsas müzakirə mövzusunun Azərbaycan qazı ilə bağlı olacağı ehtimal edilir. Azərbaycanın ən çətin dönəmlərdə qonşu ölkəyə yardım etməsi, onun əhalisini donmaqdan xilas etməsi faktdır. Lakin qəribəsi odur ki, gürcü rəsmilər yalnız indiki dönəmdə Azərbaycanın qaz ehtiyatının yetərli olmaması ilə bağlı iddialar səsləndirməyə başlayıblar. Düzdür, Gürcüstanın baş naziri İrakli Qaribaşvili bir müddət əvvəl Azərbaycan qazından imtina ilə bağlı yayılan xəbərləri təkzib edib. Azərbaycan mavi yanacaq ehtiyacını 2040-cı ilədək tamamilə satdığını açıqlayıb ki, qonşularımız da alternativ axtarmağa başlayıb. Hesab olunur ki, bu vəziyyət Gürcüstanla bərabər, Azərbaycanı da Rusiyanın "Qazprom" şirkəti ilə əməkdaşlığa sövq edir.

**Panikaya düşmək üçün əsasın olmadığını vurğulayan iqtisadçı ekspert Vüqar Bayramov "Yeni Müsavat"a bildirdi ki, Gürcüstan üçün Azərbaycandan qaz asılılığının azaldılması nə əvvəl gündəmdə olub, nə də yaxın gələcəkdə müzakirə olunması gözlənilir:** "Çünki qonşu ölkə üçün bizdən qaz asılılığı nisbi xarakter daşıyır. Əslində 2008-ci ildə Rusiya Gürcüstana qaz nəqlini dayandıran zaman Azərbaycan bu ölkəyə ciddi enerji dəstəyi nümayiş etdirdi. Buna görə də Gürcüstan hökumətin son addımları həm daxili auditoriyaya hesablanmış, həm də xarici siyasətin ümumi konturlarında edilən dəyişikliklərlə bağlı qərardır. Belə ki, Rusiyanın yaxın qonşularında möhkəmlənməsi və bəzi məsələlərdə Qərbin seyrici mövqe nümayiş etdirməsi fonunda Gürcüstan da balaslaşdırılmış siyasət həyata keçirməyə cəhd edir. Avropaya inteqrasiya edən Tiflisdə artıq qəbul edirlər ki, Rusiya faktorunun nəzərə alınması olduqca vacibdir. Bu baxımdan, enerji siyasəti Gürcüstanla Rusiya arasındakı münasibətləri də istiləşdirəcək. Soyuq qış gözlənilməsinə baxmayaraq, Gürcüstan-Rusiya münasibətləri bu sezon qızmar olacaq. Eyni zamanda daxildə Rusiya meyilli əhalinin dəstəyini almaq üçün Gürcüstan hakimiyyəti əski müttəfiqi ilə yaxşı münasibətlərdə maraqlıdır. Bu, növbəti seçkilərdə hakim partiya üçün əlavə səslər demək olacaq".

**V.Bayramov Tiflis-Moskva anlaşmasının Azərbaycan üçün ciddi fəsadlarını gözləmir:** "Azərbaycan il ərzində Gürcüstana orta hesabla 1 milyard kub metrə yaxın qaz nəql edir. İxracat güzəştli şərtlərlə həyata keçirilir. O baxımdan qaz əməkdaşlığının hətta gələcəkdə zəifləməsi belə ölkəmizin ümumi daxil olmalarına ciddi təsir göstərməyəcək".

**Cavid TURAN**



# Abdulatipov İlham Əliyevin qəbulunda

**Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 22-də Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri Ramazan Abdulatipovu qəbul edib. Axar.az xəbər verir ki, dövlət başçısı Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri Ramazan Abdulatipovun ölkəmizə səfərinin ənənəvi qardaşlıq əlaqələrinin müzakirəsi üçün yaxşı imkan yaratdığını vurğulayıb. Ölkəmizlə Dağıstan Respublikası arasında əlaqələrin region üçün, bütövlükdə Azərbaycan-Rusiya münasibətlərinin inkişafı baxımından çox əhəmiyyətli olduğunu qeyd edən prezident bildirib ki, dövlətlərarası ikitərəfli münasibətlər möhkəmləndikcə, Azərbaycan-Dağıstan ənənəvi əlaqələri daha da güclənir.**

Dövlət başçıları arasında mütəmadi keçirilən yüksək səviyyəli görüşlərin önəmini qeyd edən prezident İlham Əliyev bu yaxınlarda Vladimir Putinlə Qazaxıstanda görüşdüyünü məmnunluqla xatırlayıb və uğurla inkişaf edən Azərbaycan-Rusiya münasibətlərini regionda sabitliyin təminatı kimi dəyərləndirib. Əməkdaşlıq potensialının genişləndirilməsi məsələsinə toxunan dövlətimizin başçısı Rusiya Federasiyasının regionları, xüsusilə Dağıstan Respublikası ilə əlaqələrin iqtisadi, investisiya qoyuluşu, humanitar və digər sahələrdə daha da inkişaf etdirilməsinin önəmini vurğulayıb.

Azərbaycanla Dağıstan arasında əməkdaşlığın mühüm əhəmiyyət daşıdığını vurğulayan Ramazan Abdulatipov bu əlaqələrin inkişafında Rusiya prezidenti Vladimir Putinlə Azərbaycan prezidenti İlham Əliyev arasında mövcud olan səmimi münasibətlərin əhəmiyyətini qeyd edib.

# Rusiyanın hərbi attaşesi Bakını tərk edir

**Oktyabrın 22-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə fəaliyyət müddəti başa çatan Rusiya Federasiyasının Silahlı Qüvvələrinin hərbi attaşesi polkovnik Vladimir Çernenko ilə görüşüb. Müdafiə Nazirliyinin rəsmi saytı xəbər verir ki, görüşdə ölkələrimiz arasında hərbi, hərbi texniki, hərbi təhsil sahələrində əməkdaşlığın yüksək səviyyəsindən məmnunluq ifadə olunub, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin region üçün vacibliyi, ikitərəfli əlaqələrin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb.**

Bundan əlavə, görüşdə Rusiya istehsalı olan müasir, yüksək dəqiqlikli döyüş texnikası, silah və digər hərbi təyinatlı vasitələrin ordumuzun silahlanmasına daxil edilməsi, bu sahədə fəaliyyətlərin hər iki dövlətin qarşılıqlı anlaşma və razılığı əsasında daha da genişləndirilməsi və davamlılığı məsələləri müzakirə olunub. Görüşdə iki ölkənin silahlı qüvvələrinin birgə hərbi təlimlərinin keçirilməsi, qarşılıqlı səfərlərin, işçi görüşlərinin təşkili, ekspertlər səviyyəsində təcrübə mübadiləsi, Rusiyanın hərbi məktəblərində kursant və mütəxəssislərin hazırlanması məsələlərinə də diqqət yetirilib. Müdafiə naziri Azərbaycanda fəaliyyət müddətində ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəmədiyinə görə hərbi attaşeyə təşəkkürünü bildirib və işlərində uğurlar arzulayıb. Səmimi qəbula görə minnətdarlığını bildirən hərbi attaşe ölkəmizdən xoş təəssüratlarla ayrıldığını, Azərbaycan dövlətinin, xalqının və Silahlı Qüvvələrinin daim səmimi dostu olaraq qalacağını vurğulayıb.

YENİ MÜSAVAT
N 235 (6263) 23 oktyabr 2015

**Türkiyədə gərgin vəziyyətə baxmayaraq, çox aktiv seçki kampaniyası keçirilir. Hər gün baş verən terror aktları, hətta Ankarada 100-dən yuxarı vətəndaşın həlak olması ilə nəticələnən dəhşətli terror hadisəsi də Türkiyədə seçki prosesinin dinamikliyini azalda bilmədi. Ölkə 7 iyunda keçirilən seçkilərdən öncə olduğu kimi parlament seçkilərinə köklənib. 1 noyabr parlament seçkilərinin nəticələrinin necə olacağı, seçkilərdən sonra Türkiyəni nələrin gözlədiyi sual olaraq qalır.**

# 1 noyabrdan sonrakı Türkiyə: AKP iqtidar olmasa...

## **Elxan Şahinoğlu:** "4 partiya parlamentə düşsə və koalisiyaya gedilməsə, üçüncü dəfə təkrar seçkiyə gedilməsi mümkün deyil, bu, xalqı dolamaq mənasına gələrdi"





Bu mövzuda danışdığımız "Atlas" **Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** bildirdi ki, bütün terror hadisələrinə, axan qanlara rəğmən seçki kampaniyasının həmişəki şəkildə getməsi Türkiyənin böyüklüyünü göstərir. Türkiyə özünə qapansaydı, İŞİD-lə, PKK ilə mübarizəni əlində əsas tutaraq seçkiləri təxirə salsaydı, Türkiyənin zəifliyi, acizliyi təsəvvürləri yaranardı. Türkiyə isə belə bir təsəvvürlər yaranmaması üçün seçkini keçirməkdə qətiyyətlidir: "Hətta mümkündür ki, seçki günü də müəyyən təxribatlar həyata keçirilsin. Əgər Türkiyə hökuməti, ordusu, polisi əvvəllər PKK ilə mübarizə aparırdısa, indi İŞİD də peyda olub və Türkiyə iki cəbhədə savaşmağa məcburdur. Belə vəziyyətdə terror hadisələrini tamamilə önləmək çətin olacaq. Çünki böyük ehtimalla İŞİD və PKK seçkini pozmağa çalışacaq. Amma nə olur-olsun seçki keçiriləcək. Seçkinin nəticələrinin necə olacağı və 2 noyabrda Türkiyəni nələrin gözlədiyinə gəlincə, mənim proqnozum belədir ki, 7 iyun seçkisinin nəticələrinin təkrarlanması mümkündür. Əgər Ankarada dəhşətli terror aktı baş verməsəydi, bəlkə də AKP-nin şansları yüksək idi və təkbaşına hökumət qurmağa yetəcək səs qazanacaqdı. Amma həmin terror aksiyası AKP-nin zərərinə, HDP-nin isə xeyrinə işlədi. O mənada xeyrinə işlədi ki, həmin mitinqə toplaşıb savaşın dayandırılmasını tələb edənlər əsasən HDP-çilər, solçular və onların tərəfdarları idi. O partlayış isə HDP-nin məğdur obrazını yaratdı. Türkiyə cəmiyyəti isə məğdurlara dəstək verməyi xoşlayır. Ona görə də mümkündür ki, HDP 1 noyabr seçkilərində yenə də 13 faiz səs toplasın. AKP çox çalışırdı ki, bu partiya 100 faizlik barajı keçə bilməsin. Çünki bu halda AKP təkbaşına hökumət qura biləcək qədər səs qazanacaqdı".

**Ekspertin sözlərinə görə, 1 noyabr seçkilərində AKP yenə birinci yeri tutacaq, lakin böyük ehtimalla yenə də təkbaşına hökumət qura bilməyəcək. İkinci yeri CHP, üçüncü yeri MHP, dördüncü yeri isə HDP qazanacaq. Belə olan halda baş nazir Əhməd Davudoğlu yenə də məcbur qalıb koalisiya danışıqlarına başlayacaq:** "Bu, ya MHP olacaq, ya da CHP. Əslində AKP-MHP koalisiyası realdır. Çünki ikisi də sağ mərkəzçi, AKP-də də milliyyətçi qanad var, ideologiyalar yaxın. Bu baxımdan daha AKP-MHP ittifaqı daha uyğun olardı. Amma MHP liderinin şəxsi xarakterindən irəli gələrək bu koalisiya 7 iyun seçimlərindən sonra alınmadı. 1 noyabr seçimlərindən sonra da yəqin ki, MHP lideri Dövlət Baxçalı "yox" deyəcək. Belə halda isə AKP-CHP koalisiyası ortaya çıxa bilər. Amma bu koalisiyanın ömrünün necə olacağı, necə fəaliyyət göstərəcəyi də çox çətin suallar yardır. AKP sağ, CHP sol partiyadır, bu 13 ildə bir-birilərinə qarşı deməmedikləri söz qalmadı. İndi bunların koalisiya qurub eyni hədəfə getməsi elə də asan deyil. Hədəflər də fərqlənir. Məsələn, AKP Bəşər Əsədin hakimiyyətdən getməsini tələb edir. CHP isə bəyan edir ki, Suriya işinə Türkiyə qarışmamalıdır. Bax, bu cür ciddi məsələlərdə fikir ayrılıqları var. Odur ki, 1 noyabrda hər şeyin həll olunacağını söyləmək çətindir. 1 noyabrdan sonra Türkiyə üçün çətin olacaq".

**E.Şahinoğlu vurğuladı ki, seçkinin nəticələri 7 iyundakı kimi olsa, hökumətin formalaşması yenə də aylar çəkəcək. 4 partiya parlamentə düşsə və koalisiyaya gedilməsə üçüncü dəfə təkrar seçkiyə gedilməsi mümkün deyil:** "Bu, xalqı dolamaq mənasına gələrdi. Belə halda xalq, seçici koalisiyaya getməyən və nəticədə dövlətin maraqlarını təhlükə altına salan partiyalardan və liderlərdən üz çevirə bilər. Bu zaman ən ağır durumla MHP və CHP üzləşə bilər. Çünki AKP yenə də bu partiyalara koalisiya təklif edəcək. Təklif qəbul olunmadığı halda AKP xalqa "Mən koalisiyaya razıyam, bu partiyalar razılaşmır və ölkəni yenə də hökumətsizliyə sürükləyirlər" deyəcək. Həqiqətən də Türkiyədə 7 iyundan sonra koalisiya qurulsaydı və ölkə təkrar seçkiyə gedəsi olmasaydı, Türkiyə bu qədər gərginliyin içinə girməzdi. 1 noyabr seçkilərindən sonra da hökumət qurulmasa, bu, Türkiyənin durumunu daha da ağırlaşdıracaq. CHP və MHP məsuliyyətdən qaçmamalıdırlar. Dövlətin maraqları diktə edir ki, qəbuledilməz şərtlər irəli sürməsinlər. Elə şərtlər irəli sürməlidirlər ki, bu şərtlər koalisiya hökuməti qurulmasının qarşısını almasın. Bu dəfə də Dövlət Baxçalı AKP-yə "yox" desə, MHP-dən qopmalar ola bilər. Çünki MHP-nin üzərində bir dövlət, millət məsuliyyəti də var. MHP dövlətin maraqları naminə məsuliyyətini yerinə yetirməlidir".

❑ **Etibar SEYİDAĞA**

# Putinin kəllə-çarxa çıxan reytinqinin sirri

## Yaxud Rusiyada liderin populyarlaşması üçün ən əvvəl nə lazımdır?..

**Son rəy sorğusu rusiyalıların təxminən 90%-nin Vladimir Putinin prezident postunda fəaliyyətini bəyəndiyini üzə çıxarıb. Bu, iyun ayından sonra qeydə alınan növbəti rekord göstəricidir. Axırıncı rəy sorğusunu da ənənəvi olaraq Ümumrusiya İctimai Rəyin Öyrənilməsi Mərkəzi keçirib.**

Rusiyanın sərt avtoritar rejimli ölkə olduğu və burada obyektiv rəy sorğularının keçirilməsinin çətinliyi nəzərə alınarsa, nəticələri müəyyən mənada şübhə altına almaq olar. Ancaq yalnız müəyyən mənada. Ona görə ki, Putinin öz ölkəsində populyarlığı həqiqətən yüksəkdir və bu, adi gözlə də görünür. Nəyə əsasən bunu deyirik?

Əlbəttə ki, beynəlxalq sanksiyalar üzündən Rusiyada aydan-aya ağırlaşan sosial-iqtisadi duruma əsasən yox - ruslar artıq ikinci ildir buna alışıb. Di gəl, bu müddətdə hələ heç bir kütləvi ciddi etiraz gözə dəyməyib. Çünki ortodoksal rus mujikinə həmişə olduğu kimi "vodka"nı və "zakuska"nı yasaqlamamaq yetər ki, yerdə qalanlar ikinci plana keçsin.



Söhbət də ondan gedir ki, rusiyalıların yoxsulluğundan qaynaqlanan və ya qaynaqlana biləcək problemləri tarixən olduğu kimi, indiki Rusiya rəhbərliyi də "vodka" siyasəti ilə yanaşı, çox uğurlu şəkildə xarici siyasətdəki zahiri uğurlarla, klassik işğalçılıq siyasəti ilə unutdura, lap dəqiqi, rusların maddi ehtiyaclarını "mənəvi qidalarla" doldura bilir. Putinin yüksək reytinqinin sirri əslində elə bu bacarıqdadır.

Təsadüfi deyil ki, ekspertlər Putinin təzə rekordunu Rusiyanın Suriya əməliyyatlarındakı "uğurları" ilə bağlayıb. Burada əlbəttə ki, həqiqət var. Hərçənd, Moskvanın Suriyaya hərbi müdaxiləsi Bəşər Əsəd rejiminin dayaqlarını elə də möhkəmlətməyib və bu gözlənilmir də.

Lakin genetik imperiya virusu ilə doğulmuş rus obıvatelin Putinə rəğbəti üçün bu da az deyil. Rus obıvatel üçün önəmlisi odur ki, onun rəhbəri (çar, prezident - adın heç bir fərqi yoxdur) imperiyadan kənarda-kı Rusiya maraqları naminə daim nəsə eləsin, daxildən çox xaricdə əlləşsin, uğur-zad qazansın, yeri gələndə ərazi işğal eləsin və yekun etibarilə rus acından ölsə belə, Rusiya dünyada qlobal güc kimi qəbul olunsun, onunla hesablaşılsın - hansı işi ki, KQB polkovniki Putin SSRİ dağılandan sonra öz kövrək çiyinləri üzərinə götürüb.

Kreml başçısının populyarlığın əsas sirri bax, bundadır - tarixi missiyanı davam etdirməsində. "Rusiya niyə demokratik ölkə ola bilmir" və ya "Rusiya cəmiyyəti nədən demokratik dəyərlərə laqeyddir" kimi sualların cavabı da zatən, burada gizlənib - rus ictimai şüurunun son 200-300 ildə zərrəcə dəyişməməsi, bu şüurda hələ də velikorus virusunun möhkəm oturuşmasında.

Rusiya telekanallarını mütəmadi izləyənlər bu qənaətə asanlıqla gələ bilər. İş ondadır ki, bu ölkənin hətta ən demokrat düşüncəli ictimai-siyasi xadimlərinin fikirlərində də Putinin "Yaxın xaric"də apardığı ilhaqçılıq siyasətinə xəfif bir rəğbət hiss olunur.

Ən önəmlisi, kommunistindən, demokratından asılı olmayaraq heç bir rus Rusiyanı Krıma, Abxaziya və Cənubi Osetiyaya, Donbasa görə işğalçı adlandırmır, bunu ağla da gətirmir. Sanki heç bir dövlət yox, məhz Rusiya gözü düşdüyü istənilən yad ərazini zəbt eləmək, qonşu xalqları və gənc dövlətləri öz maraqları naminə hədələmək, şantaj eləmək hüququna malikdir.

Rusiyada buna əks mövqedə olanlar varsa da, onlar barmaqla sayılacaq qədər azdır və bu insanlar ya mədəni sürgündə, qürbətdədirlər, ya da Boris Nemtsov kimi qəbirdə, torpağın altında...

Sanki ənənə davam edir, ənənəyə qayıdılıb. Orta nəsil xatırlayar, SSRİ dönəmində acından ölən sovet insanı ayda cəmi 100-150 rublun ümidinə qalsa da, Moskva ABŞ-la sürətli silahlanma, yeni atom silahları yaratmaq yarışına girmişdi, kosmos ölkəsi olmaq uğrunda mübarizə aparırdı. Necə ki, eyni siyasəti indi əhalisi acından ölən, orta aylıq gəliri 100 dollardan artıq olmayan olan Şimali Koreya rəhbərliyi aparır.

Amma Rusiya əlbəttə ki, Şimali Koreya, rus isə koreyalı deyil. Hər necə olmasa, koreyalılar öz tarixi torpaqlarında yaşayır və Kim Çen İn da nüvə silahına malik olmasına rəğmən, heç bir başqa xalqın ərazisini zəbt eləməyib. Səbəbi deyildi artıq. Dünyaya ən böyük təhlükə də Putindən deyil, hələ də şüurlarda qalan və vaksini tapılmamış yoluxucu velikorus virusundan gəlir.

❑ **Zahid SƏFƏROĞLU**

YENİ MÜSAVAT
N 235 (6263) 23 oktyabr 2015



# AMEA-nın ləğvi təklifi etiraz doğurdu

## Etibar Əliyev: “Bu elm mərkəzi bizə dahi şəxsiyyətlərdən miras qalıb”


Etibar Əliyev

**Sabiq deputat, uzun müddət parlamentdə Elm və təhsil komitəsinə rəhbərlik etmiş professor Şahlar Əsgərov modern.az-a açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasının ləğv edilməsini təklif edib. O deyib ki, qurum sovet rejiminin məntiqinə uyğun yaradıldığı üçün fəaliyyət göstərməsinə ehtiyac yoxdur.**

Sabiq deputat dünyanın bir çox yerlərində Elmlər Akademiyasını müasir elmi mərkəzlər, laboratoriyalar əvəz etdiyini bildirib: “Avropanın bir çox yerlərində Elmlər Akademiyası yoxdur. Olanlar da forma etibarilə bizimkilərə oxşardı. Amma məzmunca fərqlidir. Formaca bizim akademiya onlara oxşardı, amma məzmun yoxdu. Bunun da bir neçə səbəbi var. Xaricdə olan elmi qurumların hamısında ən xırda detallara da diqqət yetirilir. Elmlər Akademiyası sovet rejiminin məntiqinə uyğun bir qurumdur. SSRİ yer kürəsində ikinci böyük güc mərkəzi idi. Dağılandan sonra belə bir akademiyaya ehtiyac qalmır. Belə akademiyalar və onların institutları təhsil müəssisələri arasında yavaş-yavaş əriməlidirlər”.

Sabiq deputatın Elmlər Akademiyasının ləğvi ilə bağlı bu fikirləri etirazla qarşılanıb. Belə ki, əksəriyyət bu qurumun ləğvindən çox islahatlara ehtiyacı olduğunu düşünür.

**Təhsil eksperti, “XXI əsr” Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev bu qurumun Azərbaycana dahi şəxsiyyətlərdən miras qaldığını və buna görə də ləğvinin tərəfdarı olmadığını dedi:** “1945-ci ildə yaradılan Azərbaycan Elmlər Akademiyasını təsis edən 15 görkəmli şəxsiyyətdən Heydər Hüseynov, Üzeyir Hacıbəyli, Səməd Vurğun, Mirzə İbrahimov, Yusif Məmmədəliyev, Mirəli Qaşqay, Mirəsədulla Mirqasımov, Mustafa Topçubaşov və başqalarının adını çəkmək olar. Bu elmi təsisatın yaranmasında adları çəkilən Azərbaycanın böyük alimləri qüvvələrini sərf ediblər. Məqsəd Azərbaycanda elmin bütün sahələrinin inkişafı olub. Ən azından adlarını çəkdiyim bu dahi şəxsiyyətlərə görə AMEA saxlanılmalıdır. Bu elm mərkəzi onlardan bizə miras qalıb. AMEA-nın ləğvi indiki elmi durumda məqbul sayıla bilməz. Çox vaxt eşidirik ki, ölkəmizin əsas elmi potensialı ali məktəblərdə cəmlənib, çünki elmi dərəcəli mütəxəssislərin sayı universitetlərdə AMEA-da olduğundan çoxdur. Amma elmi potensial elmi kadrların sayı ilə ölçülmür. Mən bir faktı deyim, ötən ilin nəticələrinə görə, təkcə fizika-riyaziyyat və texniki elmlər bölməsinin impakt-faktorlu jurnallarda çap olunan məqalələrinin sayı bütün Azərbaycan universitetlərinin hamısının birlikdə çap etdirdikləri məqalələrin sayından çoxdur. Hazırkı şəraitdə universitetlər elmin inkişafının məsuliyyətini öz üzərlərinə götürə bilməzlər. Çünki onların həm də maddi - texniki bazası, kadr potensialı və infrastrukturu buna imkan vermir. Universitetlər elmdə rəqabət mühiti formalaşdıra bilmədilər”.

**E.Əliyev akademiyada islahatların vacib olduğunu və bu istiqamətdə də müəyyən işlər aparıldığını bildirdi:** “Akademiyada islahatlar zəruridir. Ancaq insafən onu da demək lazımdır ki, AMEA-nın indiki prezidenti Akif Əlizadə bu istiqamətdə əlindən gələni əsirgəmir. Məncə, pozitiv nəticələr də var”.

**AMEA Rəyasət Heyəti Aparatının ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Baba Əliyev bu haqda heç bir fikir bildirmək istəmədiyini dedi:** “Ümumiyyətlə, bu haqda danışmağı düşünmürəm”.

**AMEA-nın Folklor İnstitutunun keçmiş elmi işçisi Fəxrəddin Baxşəliyev isə bu qurumun ciddi islahatlara ehtiyacı olduğunu bildirdi:** “Azərbaycan Elmlər Akademiyasının tamamilə bağlanmasına, ləğv edilməsinə ehtiyac yoxdur. Ancaq o qurumun çox ciddi islahatlara ehtiyacı var. Dünyanın bəzi ölkələrində, xüsusən də Avropa ölkələrində Elmlər Akademiyası deyilən bir qurum simvolik bir qurumdur. Azərbaycanda bu, artıq elmi-tədqiqat institutlarının toplaşdığı bir mərkəz olaraq güclü ənənəyə sahibdir. Ancaq bu qurumun həqiqətən də islahatlara ehtiyacı var və bunu rəhbərliyin özü də etiraf edir”.

❑ Günel MANAFLI

## Yazıçılar üçün yaşayış binasının tikintisi gecikir




**Artıq neçə ildir ki, Azərbaycan Yazıçılar Birliyi üzvlərinin mənzil şəraitini yaxşılaşdırmaq üçün ayrılan torpaq sahəsində tikinti işlərinin başlanması gecikir. Qeyd edək ki, ölkə başçısının göstərişi ilə 2009-cu ildə Bakı Şəhər İcra Hakimiyyəti Xətai rayonunda, general Şıxlinski küçəsində Baş Prokurorluq, Mərkəzi Seçki Komissiyası və Yazıçılar Birliyinə üç girişli yaşayış binasının tikilməsi üçün yer ayrılıb. Artıq o vaxtdan bir neçə il keçsə də, Neapol dairəsi adlanan ərazidəki torpaq sahəsində tikinti işləri hələ də başlamayıb.**

Modern.az saytı bu barədə AYB sədrinin müşaviri, mənzil məsələləri komissiyasının sədri Rauf Aslanova müraciət edib. Müşavirin sözlərinə görə, onun rəhbərlik etdiyi komissiyanın işi yalnız hazır mənzilləri üzvlər arasında bölüşdürməkdir: “Torpaq məsələsi istiqamətində bütün işlər isə AYB-də ayrı şəxsə tapşırılıb. Bu məsələ ilə bağlı suala cavab almaq üçün məhz ona müraciət etmək lazımdır. Amma onu deyə bilərəm ki, hazırda orada heç bir tikinti getmir”.

Bir müddət öncə ayrı-ayrı media qurumlarında yazılan məlumata görə, torpaqla bağlı sənədləşmə işləri AYB sədrinin müavini Nazim İbrahimova tapşırılıb.

# Əbülfəs Qarayev şöbə müdirlərini mənimsəməyə görə işdən qovub

## Mədəniyyət və Turizm Nazirliyinin şöbələrində şok korrupsiya faktları üzə çıxıb


Əbülfəs Qarayev

**Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bir müddət əvvəl nazirliyin bir neçə rayon şöbələrinin müdirlərini vəzifədən kənarlaşdırıb, bəzilərinə isə töhmət verib.**

Nazirliyin şöbə müdirlərinin vəzifədən uzaqlaşdırılması işdə ciddi nöqsanlara yol vermələri, kadrların yerləşdirilməsində qanunsuzluq törətmələri ilə izah olunur. Şöbə müdirlərinin işdən çıxarılmasına səbəb olan nöqsanlar isə çox ilgincdir. Belə ki, şöbə müdirlərinin dövlət büdcəsindən ayrılan vəsaitlərin necə silinməsini əks etdirən sənədlər üzə çıxıb.

Musavat.com-un əldə etdiyi sənədlərdə aydın görünür ki, nazirliyin rayon şöbələrində büdcədən ayrılan vəsaitlər qanunsuz olaraq necə xərclənir, aparılan saxta sənədləşmələr sayəsində dövlətdən ayrılan vəsaitlər rayon şöbələrinin rəhbərlərinin cibinə gedir.





Mədəniyyət və turizm naziri Əbülfəz Qarayevin əmri ilə işdən çıxarılanlardan biri də Yevlax Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri İlqar Əhmədovdur.

İlqar Əhmədov Hesablama Palatasının apardığı audit yoxlamaları zamanı ortaya çıxan nöqsanlara görə vəzifədən uzaqlaşdırılıb. Hesablama Palatasının dövlət büdcəsinin yerli xərclərindən Yevlax Şəhər Mədəniyyət və Turizm Şöbəsinə ayrılan vəsaitlərin və büdcədənkənar daxilolmaların proqnozlaşdırılması və icrasının auditinin aparılması nəticəsində aşkar etdiyi nöqsanlar çox ilgincdir.

Audit zamanı məlum olub ki, Yevlax Şəhər Mədəniyyət və Turizm Şöbəsi tərəfindən büdcə illərində xərc maddələri üzrə proqnoz layihələri tərtib olunarkən büdcə qanunvericiliyinin tələbləri gözlənilməyərək şöbənin maliyyə təsərrüfat fəaliyyətinin nəticəsi düzgün qiymətləndirilməyib, büdcədənkənar daxilolmaların icrası istiqamətində müvafiq işlər aparılmamış və nəticədə külli miqdarda vəsaitin təyinatı dəyişdirilərək xərc edilib. Şöbədə dövlətdən ayrılan vəsaitlər müxtəlif istiqamətlər üzrə büdcədən silinirmiş.

Məsələn, işçilərin ezamiyyə günlərinin sayı düzgün hesablanmayaraq büdcədən külli miqdarda vəsait mənimsənilib. Mərkəzləşdirilmiş kitabxana sisteminin kompleksləşdirilmə və kitabişləmə şöbəsində, tarix-diyarşünaslıq muzeyində, musiqi məktəbində, mədəniyyət evlərində, klublarda, saraylarda ştatdan kənar işçilər saxlanılaraq 9 min manata yaxın əlavə əmək haqqı ödənilib.

Mühasibat uçotunun “Əməyin ödənişi üzrə işçi heyətinə borclar” paraqrafı üzrə yaranmış 40347 manat məbləğində kreditor borc həmin hesabda uçota götürülməyib, işçilərin əmək haqları gecikdirilib. 7 nəfər işçinin əmək haqqından 3 min manata yaxın gəlir vergisi az tutulub.

Müdirə yaxın olan bəzi işçilərin adına kirayə haqqı olaraq 960 manat pul ayrılıb, bəzi işçilərin əmək haqlarından onların razılığı olmadan müxtəlif fondlara tutulmalar aparılıb. Bir neçə işçinin əmək haqqı 41717 manat azaldılaraq digər işçilərin plastik kartlarına köçürülərək mənimsənilib.

Malların satın alınması zamanı 60971 manat vəsait satınalma proseduru olmadan xərc edilib. Bunlar azmış kimi, nazirlik tərəfindən şöbəyə əvəzsiz olaraq verilmiş 13889 manat dəyərində inventar və avadanlıqlar mühasibatlıqda uçota alınmayıb.

Digər ilginc bir məqam isə Yevlax Elektrik Şəbəkəsi tərəfindən 2013-cü ilin dekabr ayında tərtib edilmiş aktda şöbənin nəzdində fəaliyyət göstərən sarayda elektrik sayğacı işlək vəziyyətdə olduğu halda sərfiyyat sayğacsız göstərilərək əvvəlki ayların müvafiq göstəricilərindən 3 min manata yaxın artıq büdcə vəsaiti ödənilərək həmin məbləğ sarayın qarşısında olan parkın işıqlandırılmasına yönləndirilib.

Məhz Hesablama Palatası tərəfindən aparılan audit zamanı ortaya çıxan nöqsanlar şöbə müdirinin vəzifədən uzaqlaşdırılmasına səbəb olub. Bu fakt bir daha onu göstərir ki, dövlət büdcəsindən ayrılan vəsaitlərin böyük hissəsi məhz məmurların cibini doldurur.

Əldə etdiyimiz məlumata görə, Cəlilabad Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri İsa Allahverdiyevin də işdən çıxarılmasına səbəb yuxarıda qeyd etdiyimiz nöqsanlara yol verməsidir. Həmçinin Ağdam Rayon Mədəniyyət və Turizm Şöbəsində də aparılan yoxlamalarda bu cür nöqsanlar üzə çıxıb.

❑ İlkin MURADOV

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



**Oktyabrın 27-də Azərbaycan və Ermənistan prezidentlərinin sonuncu, Fransa paytaxtında keçirilmiş görüşünün ildönümü tamam olacaq. Həmin görüşdə erməni prezident növbəti görüşün 2015-ci ilin sentyabrında, BMT-nin Baş Assambleyasının Nyu-Yorkdakı toplantısında keçiriləcəyi anonsunu versə də, sonrakı aylarda erməni tərəfinin aqressiv siyasəti cəbhə xəttində təxribat-diversiya hərəkətlərinin intensiv hal alması səbəbindən yüksək səviyyəli görüşlər seriyasında uzun pauza yarandı.**




# Dalana dirənən Qarabağ müzakirələri-bundan sonra nə olacaq?

## Rəsmi Bakı İrəvanı ittiham etdi: “Ermənistanın danışıqlar prosesindən qaçması bir daha onu göstərir ki, İrəvan hər bir vəcdlə münaqişənin həllinə mane olmağa çalışır”

Ötən həftə Qazaxıstanda MDB dövlətinin prezidentlərinin iştirakı ilə keçirilən toplantı çərçivəsində belə, Rusiya prezidentinin Əliyevlə Sərkisyanı bir araya gətirmək təşəbbüsünü göstərməməsi suallar doğurdu. Adətən Rusiya tərəfləri bir araya gətirmək təşəbbüsü göstərməkdə maraqlı olduğu halda, bu dəfə Kreml həvəsli görünmədi ki, bunun səbəbi maraqlıdır. Bu arada isə ATƏT həmsədrlərinin bölgəyə növbəti səfəri planlaşdırılır. Dünyada ciddi proseslərin getdiyi şəraitdə, xüsusilə də Suriya ətrafında yaşanan gərginliklər, müharibə riskləri Qarabağ münaqişəsini nisbətən arxa plana keçirib. Odur ki, diplomatların regiona növbəti dəfə hansı təkliflərlə gələcəyi də düşündürücüdür.

**Politoloq Arzu Nağıyev** “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, keçən ilin oktyabr ayında baş tutan Paris görüşündən sonra Azərbaycan və Ermənistan prezidentlərinin görüşməməsinin səbəbləri çoxdur. Ekspert ilk olaraq həmin görüşdən sonra ermənilərin təmas xəttində dəfələrlə atəşkəsi pozmasını və məlum helikopter hadisəsinin baş verməsini xatırladı: “Bundan sonra Bakıda Avropa Oyunları baş tutdu, bu ərəfədə də ermənilər atəşkəsi pozmaqda davam etdilər. Sonra ABŞ münaqişənin həllində təşəbbüsü əlinə almağa çalışdı və Rusiya məhz buna görə görüşün baş tutmaması üçün müəyyən addımlar atdı. Bu da intensiv atəşkəs pozulmaları, hər iki tərəfdən itkilərlə müşayiət olundu. BMT-nin 70-ci sessiyasında iki dövlətin xarici işlər nazirləri görüşdülər. ATƏT-in ABŞ təmsilçisi Ceyms Uorlik dəfələrlə prezidentlərin görüşlərinin vacibliyinə diqqət yetirsə də bu görüş baş tutmadı. Digər tərəfdən, dəfələrlə atəşkəsi pozan, Dağlıq Qarabağı Ermənistan torpağı adlandıran İrəvan hakimiyyəti ilə görüşün baş tutmaması məntiqi bir qərardır. Qazaxıstan səfəri vaxtı da prezidentlərin görüşməməsinin əsas səbəbi bu oldu”.

**ATƏT-in Minsk Qrupu həmsədrlərinin bölgəyə növbəti səfərindən gözləntilərə gəldikdə, A.Nağıyev qeyd etdi ki, yuxarıda sadalanan bir şəraitdə həmsədrlərdən fövqəl bir qərar gözləmək yanılış olardı:** “Azərbaycan tərəfi Madrid prinsipləri çərçivəsində istənilən danışığa getməyə hazırdır, çünki burada əsas maddə ərazi bütövlüyüdür. Ermənistan hakimiyyəti isə iqtidarda qalmaq üçün sülh adı altında öz havadarları vasitəsilə status-kvonu saxlamağa çalışır. Təəssüf ki, ATƏT də sülh danışıqlarını təkrarlamaqla əməli bir qərar qəbul edə bilmir, bu isə ermənilərin xeyrinə olur. Məhz buna görə səfərdən Azərbaycan üçün elə bir müsbət gözləntim yoxdur”. **Payız-qış mövsümündə atəş xəttindəki vəziyyətlə bağlı proqnozlarını bölüşən ekspert hesab edir ki, bu mövsümdə intensiv atışmalara bir az ara veriləcək, proseslər yaz, yay aylarındakı kimi cərəyan etməyəcək:** “Bu, həm hava şəraiti, həm də maskalanmaq üçün təbii şəraitin uyğunsuzluğu ilə bağlıdır. Bundan başqa, ilin sonuna yaxın Avropa və dünyada siyasi proseslərlə bağlı müəyyən passivlik yaranır və əsasən hesabat dövrü başlayır. Eyni zamanda artıq Azərbaycanın hərbi üstünlüyünü hiss edən düşmən tərəf atəşkəsi intensiv şəkildə pozmaqdan çəkinir. Azərbaycan Müdafiə Nazirliyinin bəyanatları da bu şəraitə təsir edən amillərdən ən başlıcasıdır”.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə dövlət başçısının bir fikrini xatırladı:** “Azərbaycan prezidenti İlham Əliyev bir neçə il əvvəl söyləmişdi ki, imitasiya naminə erməni həmkarı ilə görüşməyəcək. Buna baxmayaraq, Azərbaycanın dövlət başçısı bu açıqlamadan sonra bir neçə dəfə Ermənistan prezidenti Serj Sərkisyanla görüşüb, fikir mübadiləsi aparıb. Əslində İlham Əliyev bu görüşlərdə maraqlı olmayıb. Çünki Ermənistanın mövqeyində heç bir dəyişiklik yoxdur. Sadəcə, görüşlərlə bağlı xahiş Moskva və Parisdən gəldiyinə görə İlham Əliyev əvvəlcə Rusiya prezidenti Vladimir Putinə, sonra isə Fransa prezidenti Fransua Ollanda "yox" deməyib". **Ancaq E.Şahinoğlu qeyd etdi ki, elə bu görüşlər də İlham Əliyevin söylədiyi kimi, imitasiya xarakteri daşıyıb:** “Moskva və Paris görüşlərinin əsas məqsədi o olub ki, cəbhə bölgəsində atəşkəsə riayət olunsun, Cənubi Qafqazda müharibə ehtimalı azalsın. Çünki nə Moskva, nə də Paris görüşündən sonra Dağlıq Qarabağ münaqişəsinin həllində heç bir irəliləyiş olmayıb. Prezidentlərin növbəti görüş ehtimalı BMT-nin bu ilin sentyabrında Nyu-York sessiyasında yüksək idi. Ancaq İlham Əliyev BMT sessiyasına getmədi, öz yerinə xarici işlər naziri Elmar Məmmədyarovu göndərdi. Bunun iki məqsədi var idi: İlham Əliyevin BMT sessiyasına getməməkdə birinci məqsədi o idi ki, beynəlxalq birlikdən narazı qaldığını ortaya qoysun. BMT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 4 qətnaməsi var və bu qətnamələr kağız üzərində qalıb. Bir ara rəsmi Bakı Dağlıq Qarabağ münaqişəsinin ATƏT-dən alınıb BMT-yə verilməsini istəyirdi. Ancaq BMT rəhbərliyi rəsmi Bakının bu istəyinə müsbət yanaşmadı. İlham Əliyevin BMT sessiyasına getməməkdə ikinci məqsədi o idi ki, Nyu-Yorkda Serj Sərkisyanla görüşməsin. Çünki İlham Əliyev həmin vaxt Nyu-Yorkda olsaydı, həmsədr dövlətlərin prezidentləri Azərbaycan və Ermənistan prezidentlərini görüşdürmək istəyəcəkdi. İlham Əliyev onların görüş təklifinə "yox" deməmək üçün BMT sessiyasında iştirak etmədi. Əslində Azərbaycan və Ermənistan prezidentləri Nyu-Yorkda görüşsəydilər belə, bu, yenə nəticə verməyəcəkdi. Məsələn, prezidentlərin yerinə Nyu-Yorkda xarici işlər nazirləri görüşdülər. Görüş nəticəsiz qaldı. Hətta görüşdən sonra xarici işlər naziri Elmar Məmmədyarov sərt açıqlama verdi. Sadəcə, BMT sessiyasından sonra cəbhə bölgəsində ağır artilleriyadan istifadə edilmədi, atəşkəsin pozulması yenidən snayperlərin atışması səviyyəsinə endi. Ancaq cəbhə bölgəsində vəziyyətin yenidən gərginləşməsi ehtimalı qalır".



**Arzu Nağıyev:** “Ermənistan hakimiyyəti iqtidarda qalmaq üçün sülh adı altında öz havadarları vasitəsilə status-kvonu saxlamağa çalışır”



**Elxan Şahinoğlu:** “Cəbhə bölgəsində vəziyyətin yenidən gərginləşməsi ehtimalı qalır”

**Politoloq Azərbaycan və Ermənistan prezidentlərinin Qazaxıstanda da görüşməməsini səbəbsiz saymır:** “Müstəqil Dövlətlər Birliyinin dövlət başçıları oktyabrın 16-da Qazaxıstanda toplandılar. Rusiya prezidenti Vladimir Putin Azərbaycan və Ermənistan prezidentləri ilə üçlü görüş həyata keçirə bilərdi. Ancaq bu dəfə də prezidentlərin görüşünə ehtiyac duyulmadı. Çünki danışıqlarda irəliləyiş yoxdur və prezidentlərin görüşü növbəti dəfə nəticəsiz qalacaqdı. Bu arada, ATƏT-in Minsk Qrupunun həmsədrləri Azərbaycan və Ermənistana səfərə hazırlaşırlar. Həmsədrlər ilin sonuna qədər prezidentlərin görüşünü təşkil etmək istəyirlər. Ancaq danışıqlarda həll prosesini irəli apara biləcək element olmayana qədər prezidentlərin ilin sonuna qədər də görüşü baş tutmaya bilər. Azərbaycan və Ermənistan prezidentlərinin görüş təşəbbüsü Vaşinqtondan gələrsə, prezidentlərin görüşməsi ehtimalı arta bilər. Çünki son zamanlar prezidentlərin görüşü yalnız iki həmsədr dövlət olan Rusiya və Fransada keçirilir. Üçüncü həmsədr dövlət - ABŞ passivdir. Rəsmi Bakı Vaşinqtonun danışıqlarda intensivləşməsini istəyir. Çünki bu halda Rusiyanın Azərbaycana qarşı təsirləri azala bilər. Rusiya Dağlıq Qarabağ münaqişəsini yalnız o halda həll etmək istəyir ki, bütün proses onun nəzarəti altında olsun. Bu təklifə Azərbaycan razılaşa bilməz və bu məsələdə rəsmi Bakının Vaşinqtonun dəstəyinə ehtiyacı var”.

**XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev isə “Yeni Müsavat”a bildirdi ki, Fransa prezidenti Olland ötən il prezidentlərin Paris görüşündən sonra ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə əlaqələndirilmiş formada “Böyük sülh sazişi” üzərində işə başlamaq təklifi ilə çıxış etmişdi:** “Bu, bir mexanizm, danışıqlar prosesinin konkret sənəd üzərində aparılması üçün ciddi çağırış idi. Danışıqlar prosesində yenə də fərqli fikirlər ola bilərdi. Amma predmetli müzakirə üçün bu, ciddi çağırış və təklif idi. Azərbaycan tərəfindən də dərhal məsələyə münasibət bildirildi və Azərbaycanın qəti hazırlığı ifadə olundu ki, rəsmi Bakı böyük sülh sazişi üzərində konkret müstəvidə işə başlamağa hazırdır. Amma biz danışıqlar prosesinin belə bir konkret müstəvidə cərəyan etdiyini görən Ermənistanın prosesə xələl gətirmək üçün müxtəlif təxribatçı addımlarını gördük. Hətta məlum helikopter insidenti də böyük sülh sazişi üzərində işə başlamağa maneçilik törədilməsinin tərkib hissəsiydi. Ona görə də danışıqlar prosesində belə bir konkret məsələnin gündəmdə olduğu halda, Ermənistanın danışıqlar prosesindən qaçması və danışıqlar prosesinə xələl gətirməsi bir daha onu göstərir ki, İrəvan hər bir vəchlə münaqişənin həllinə mane olmağa çalışır”. **Prezidentlər səviyyəsində növbəti görüşə gəldikdə, H.Hacıyev bunları bildirdi:** “Azərbaycanın qəti mövqeyi bundan ibarət olub ki, danışıqlar formal, imitasiya xarakteri daşımamalı və konkret müstəvidə məsələlər varsa, Azərbaycan həmişə danışıqlara hazırdır. Hələ ki növbəti görüşlə əlaqədar konkret bir məlumat və ya fikir yoxdur”.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY



# Ovxarlı balta əldən düşəndə...

Samir SARI

**Ən intizamsız sürücü də piyada olanda böyründən siqnal verib keçən DYP maşınından çəkinmir, bilir ki, o maşındakılar ona heç zad eləyə bilməzlər.**

Əlində tüfəng göl qamışlığında gizlənərkən, yaxud əlibaltalı halda meşədə gəzərkən yaxalanmayıbsa, heç kəs Ekologiya Nazirliyinin müfəttişlərindən qorxmur, çünki meşədə gəzməyə, göl qırağında təbiəti seyr etməyə görə adama cəza düşmür.

Gömrükdən konteynerlə mal keçirmirsənsə, müvafiq komitənin generalı sənin üçün çilingər qonşundan artıq oğlan deyil.

Ticarət, xidmət, iaşə obyektin yoxdursa, vergi müfəttişlərinə xüsusi hörmət, qılıq göstərməyə ehtiyac yoxdur, uzağı bir salam verib keçərsən.

Səhiyyə və Təhsil nazirliklərinin yüksək vəzifələri yalnız həkimlər və müəllimlər üçün avtoritet ola bilər.

Ancaq elə bir nazirlik var ki, ondan hamı qorxur - həkim də, müəllim də, sürücü də, məmur da, işsiz də, tələbə də. Bir sözlə, hər kəs.

Çünki o nazirlik hamının işinə baxa bilər. Nə olsun ki, sən hansısa ölkənin casusu deyilsən, hansısa dövlət sirrini yaymırsan, millətə və dövlətə qarşı gizli fəaliyyətlə məşğul olmursan. Dəxli yoxdur. O hamımıza nəzarət edə bilər, edir və qanuna görə etməlidir.

İntəhası, gərək o nazirlik də öz işini bir əndazədə görsün. Yoxsa adamı kabinetə çağırıb "istəsək, səndən İŞİD-çi düzəldərik" deyirsə, bunun adı şərləmədir.

Ona qalsa, bulvarda durub qırçın dalğalara baxdığımız yerdə ekologiya müfəttişi gəlib bizi brakonyerlikdə ittiham edə bilər. Yaxud o biri nazirliklərin əməkdaşları da adamı şərləməyə nəsə tapa bilərlər.

Odur, Ukraynada qadın dostu ilə beynəlxalq vəziyyəti müzakirə edərkən (yaxud Taras Şevçenkonun yaradıcılığından danışarkən) naməlum şəkilləri çəkilmiş sahibkarın 250 min manatını əlindən çığırda-çığırda alıblar. O da deyir, "hamımız kişi olmuşuq də".

Əlbəttə, onu şantaj edən şöbə müdiri də yeri gələndə kişi olur, amma onu-bunu şərləmək səlahiyyəti onun əlindədir.

Məsəl var, deyərlər, bir axsaq dana bir naxırın adını batırır. İndi lətifəsi heç kəsə dəyməsin, MTN-də çete qurmuş bir qrup yüksək rütbəli zabit də o boyda strukturun adını batırıb. Halbuki orada yüzlərlə sırf maaşla işləyən dövlət məmuru var.

Yıxılana balta vurmaq kimi çıxmasın, sabiq nazir Eldar Mahmudovun və onun çetesinin iştəkləri barədə üzə çıxan materialları oxuduqca, danışılan söhbətləri dinlədikcə, adam kasıb olduğuna şükür edir. Bir az pullu olsaydıq, aparıb basarmışlar "podval"a.

10 il qabaq da deyirdik, nə yaxşı, kasıb olmuşuq, yoxsa Hacı Məmmədov ya özümüzü, ya da təqaüdçü atamızı girov götürərdi.

Dünən satirik şair Mirzə Sakit çetenin üzə çıxan əməllərindən biri barədə sosial şəbəkədə yazıb.

Şair nəql edir ki, həmin poqonlu çete Ermənistanda yaşayan sadə bir erməni tapırmış, o erməniyə 2-3 min dollar pul verir, tapşırırmışlar ki, al bu telefon nömrəsini, bir-iki dəfə bu nömrəyə zəng elə. Erməninin də nə vecinədir, konturunu azərbaycanlı çekistlər verir, götürüb zəng edirmiş.

Həmin telefon nömrəsi isə azərbaycanlı bir iş adamına məxsus olur və zəngin hardan gəlməsindən xəbərsiz olan biznesmen zəngə cavab verir, istər-istəməz ermənilə həmsöhbət *("Filankəsdir?, "Yox, o deyil", "Bağışlayın, səhv düşmüşəm", "Allah bağışlasın" və s.)* olurmuş.

Sonra dövriyyəyə MTN-dəki çete üzvləri girirmiş, həmin iş adamını çağırıb deyirlərmiş ki, Ermənistanla rəsmi müharibə dövründə olduğumuz bir vaxtda bu nə gizli danışıqlardır, bax, bu da sübutlar, filan ayın filan günü Ermənistanda yaşayan erməni Akopyanla danışmısan, sənin onunla nə əlaqən var, deyəsən, casusluq edirsən..

O yazıq iş adamı da and içib özünü öldürürmüş ki, mən o adamı tanımıram, o, mənim nömrəmə zəng edib, səhv düşmüşdü.

"Amma biz heç vaxt səhv etmirik" deyə boz üz göstərən təhlükəsizlik zabitinin sözündən sonra artıq yaxası ələ keçmiş adam günahsız olsa belə canını bir yolla qurtarmalıdır. Çünki "bu məsələ rəhbərliyin şəxsi nəzarətindədir, ağır işdir". Di, pulsayan maşını gətirin, qoşun, vığğıt eləyə-eləyə saysın.

Bəziləri də deyir, yıxılanı baltalamayın-filan... Ta demirlər ki, balta öz əllərindən düşüb ayaqlarını çapıb...

# Vəkil "kredit işi" ilə bağlı yeni faktlar açıqladı

## Kamandar Nəsibov: "Adil Hüseynov baş verənlər barədə heç nə danışmaq istəmədi"

**Milli Təhlükəsizlik Nazirliyində həyata keçirilən xüsusi əməliyyat, prezident sərəncamı ilə nazir Eldar Mahmudovun işdən çıxarılması hazırda istintaq olunan bir çox işlərin daha obyektiv araşdırılmasına yol açıb. Belə işlərdən biri də "Beynəlxalq Bank işi"dir. Aylardır ki, istintaq davam edir, onlarla tanınmış sahibkar, iş adamı həbs olunub, istintaqa cəlb edilib.**



Kamandar Nəsibov

*Tutulanlar arasında bankın şöbə müdirləri, sıravi işçiləri də var. Amma bank rəhbərliyi bu gün də azadlıqdadır. MTN-də baş verən son hadisələrə qədər C.Hacıyevin həbsdən kənarda qalmasında qudası Eldar Mahmudovun rol oynadığı deyilirdi. Artıq E.Mahmudov nazir deyil. MTN-də məlum əməliyyat baş tutan günlərdə "Beynəlxalq bank işi" üzrə həbs olunan bankın Dubaydakı nümayəndəsi, "qara polkovnik" Fətulla Hüseynovun oğlu Adil Hüseynov DİN Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinə aparılıb və orada 1 həftə saxlanılıb. A.Hüseynovun vəkili Kamandar Nəsibov "Yeni Müsavat"a müsahibəsində müvəkkilinin Bakı İstintaq Təcridxanasından baş prokurorun I müavini Rüstəm Usubovun əmri ilə köçürüldüyünü deyib.*

- Mən müdafiə etdiyim şəxslə görüşdüm, amma Adil Hüseynov köçürülmədən əvvəl və sonra baş verənlər barədə heç nə danışmaq istəmədi. Böyük ehtimalla onu hədələyiblər. Ona görə də yaxınlarının həyatına görə qorxur, nədənsə ehtiyat edir. Mən demirəm ki, gedib Adil Hüseynovun ailəsini güllələyəcəklər. Söhbət təzyiqlərdən gedir. Bu iş üzrə tutulanlara təzyiq edir, deyirlər ki, pul ver! İş üzrə həbs olunanların, həmçinin Adil Hüseynovun evindən daşınmaz əmlaka dair çıxarışları götürüblər. Çıxarışını götürdükləri əmlak Adil Hüseynovun həyat yoldaşına atasından qalan əmlakdır. Həmin əmlaklara aid olan mənzilləri kirayə verəndə müqavilə bağlamağa çıxarışlar lazım olur. Buna görə də mənzilləri kirayə verə bilmirlər. Çıxarışları vermirlər. Adil Hüseynov saxlanıldıqdan sonra mənzilində axtarış aparılıb. Amma axtarışı baxış kimi rəsmiləşdiriblər.

***- Adil Hüseynovun son köçürülməsi ilə bağlı sizə hər hansı bir məlumat verilib?***

- Mənə məlumat verməyiblər. Aparıb 1 həftə saxlayıblar. Heç bir istintaq hərəkəti aparılmayıb.

***- Adil Hüseynov Bakı İstintaq Təcridxanasından hansı adla çıxarılıb?***

- Guya istintaq hərəkəti aparılmaq üçün. Əgər şəxsi zəruri istintaq hərəkətlərinin həyata keçirilməsi üçün ora aparıblarsa, təqsirləndirilənin yanında vəkili olmalıdır. Adil Hüseynovu aparıb 1 həftə saxlayıblar, amma heç bir istintaq hərəkəti keçirməyiblər. Onun aparılması haqda xəbər tutandan sonra şikayətlər yazmışam və onu geri qaytarıblar.

***- Adil Hüseynovdan Beynəlxalq Bank rəhbərliyinə, konkret olaraq, Cahangir***



Cahangir Hacıyev

## Beynəlxalq Bankın sabiq prezidenti həbsin bir addımlığında...

***Hacıyevə qarşı ifadə istənilibmi?***

- İlk gündən ona deyilib ki, Cahangirlə bağlı məsələni açıqla, başqa bir şey lazım deyil. Adil Hüseynova birbaşa göstərişi verən o yox, müavini Emil Mustafayev olub. Adil Hüseynovda həmin göstərişlərin Emil Mustafayevə Cahangir Hacıyevin verməsi haqda məlumat yoxdur. Adil Hüseynov mənə deyib ki, bütün köçürmələr Emil Mustafayevin göstərişi ilə olub. O, konkret elektron poçt vasitəsilə Adil Hüseynova yazıb ki, filan məbləğ filan hesaba, digər məbləğ digərinə köçürülsün.

***- Deməli, Adil Hüseynova verilən suallarla ona göstərişlərin Cahangir Hüseynovdan gəlib-gəlmədiyinə aydınlıq gətirilməsi istənilib?***

- Bəli, amma Adil Hüseynov birbaşa göstərişləri Emil Hüseynovdan aldığını deyib. Çünki rəhbərliyi o edib. Bu gün Beynəlxalq Bank işi üzrə həbsdə olanların əksəriyyəti icraçılardır, 1 qara qəpiyin yiyəsi olmayıblar. Amma onlara göstəriş verən, həmin pulları hansısa məqsədlərlə xərcləyən şəxslər villalarında, bağ evlərində arxayın oturublar. Onlar niyə evlərində oturublar? Bu adamların kimliyini hamı bilir.

***- "Beynəlxalq Bank işi" bu şəkildə nə vaxta kimi davam edə bilər?***

- Hələlik iş üzrə istintaqın müddəti 2 dekabra kimi uzadılıb. Bundan sonra da uzada bilərlər. Söhbət ondan gedir ki, bu günə qədər hər hansı bir istintaq hərəkəti aparılmır. İttihamda yazırlar ki, guya bunlar bir qrup şəxslə əlbir olaraq filan-filan hərəkətləri ediblər. Həmin qrup dedikləri şəxslər isə müəyyən olunmayıb. Bilinmir ki, Adil Hüseynov bu hərəkətləri kiminlə edib, qrupa daxil olanlar kimlərdir? Yazırlar ki, istintaqa məlum olmayan qrup! Adil Hüseynovun ifadələrində var ki, o, birbaşa Emil Mustafayevin göstərişlərini həyata keçirib. Adil Hüseynov onun göstərişlərini yerinə yetirməyə bilməzdi. Çünki Emil Mustafayev onun rəhbəri olub. Əlbir olmaq nə deməkdir? Məgər rəhbər işçiyə göstəriş verirsə, onunla əlbir olur?

***- Həmin göstərişlərin qanuni və ya qanunsuz olmasını Adil Hüseynov müəyyən edə bilərdi?***

- Adil Hüseynov sıravi işçidir və bank rəhbərliyinə daxil olan şəxsin göstərişlərini yerinə yetirib. O göstərişlər nə dərəcədə qanuni və ya qanunsuz olub, bunu ayırd edə bilməzdi. Ona deyiblər filan qədər pul filan hesaba köçməlidir. O da köçürüb. O həmin məsələlərin nəzarətçisi olub. 300 milyondan çox məbləğ Xəqani Başirova verilib. O da oturub Fransada kef edir.

***- Adil Hüseynovdan tələb olunan məbləğ nə qədərdir?***

- 318 milyon.

***- Həmin pulun 300 milyonundan artığı Xəqani Başirovdadırsa, yerdə qalan pullar haradadır?***

- 12 milyonu kredit şəklində verilib, yarıdan çoxu da qaytarılıb. Eyni epizod üzrə başqa bir şəxsə də ittiham verilib. Ondan 218 milyon tələb olunur. Bilmək olmur ki, konkret məbləğ nə qədərdir.

***- Kamandar müəllim, sizdən Adil Hüseynovun vəkili kimi deyil, bir hüquqşünas kimi soruşmaq istəyirəm ki, bankdan kredit alan şəxslər, bankda çalışmış şöbə müdirləri, sıravi işçilər həbs olunduğu təqdirdə, bank rəhbərliyinin, Cahangir Hacıyevin azadlıqda gəzməsi normaldır?***

- İcazə verin mən də sual verim, MTN-in işçiləri həbs olunub, rəhbəri həbs olunmayıb, bu normaldır? Cahangir Hacıyevlə bağlı deyə bilmərəm ki, niyə həbs olunmur. Çünki sənədlərdə onun imzasının olub-olmadığını bilmirəm. Amma Emil Mustafayevin isə sənədlərdə imzasını görmüşəm. Deyə bilərəm ki, Emil Mustafayev tamamilə qanunsuz olaraq azadlıqdadır. O, həbs olunmalıdır.

***- Necə hesab edirsiz, bu məsələlərin çözülməsi üçün istintaqın səlahiyyəti kifayət qədərdir?***

- Bu, iqtisadi cinayətlərdir. Bu işi həmin idarə araşdırmalıdır. Burada dələduzluq yoxdur. Burada kreditin təyinatı üzrə xərclənməməsi ilə bağlı araşdırma aparılmalıdır. Kredit veriləndə bank kreditin təminatı kimi girov götürməyibsə, bu, bankın öz günahıdır. Yəni bu, vətəndaşın günahı deyil. Bank həmin məbləğləri verirsə, məsuliyyət də bankındır. Bugünkü gündə bankın məsuliyyətini kənara qoyublar. Böyük məbləğdə təminatsız verilən kreditlərə görə bank özü məsuliyyət daşımalıdır. Krediti alanlar təyinatı üzrə istifadə etmirsə, bunun məsuliyyəti başqadır. Vaxtında qaytara bilmirsə, bu, mülki münasibətdir və məsələ mülki qaydada həll olunmalıdır. Cinayət xarakterli məsələ yoxdursa, iş mülki qaydada həll edilməlidir. Hay-küylə, adamları "podval"a basmaqla iş düzəlmir.

***- Müdafiə tərəfi Adil Hüseynovun son köçürülməsi ilə bağlı hər hansı bir addım atacaq?***

- Sorğular verməşik, cavab verilmir. Sorğuları əlavə edib məhkəməyə müraciət edəcəyik. Adil Hüseynovun ora aparılmasının səbəbi deyilməlidir.

E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 235 (6263) 23 oktyabr 2015

**Oktyabrın 24-ü Məhərrəmliyin onuncu günü, Aşura günüdür. Bir çox müsəlman dövlətlərində olduğu kimi, Azərbaycanda da bu gün qeyd olunur. Hicri-qəməri təqvimlə 1373 il bundan əvvəl - Məhərrəm ayının 10-da Həzrət Mühəmməd Peyğəmbərin (s) əziz nəvəsi, Həzrət Əli (ə) ilə Fatimeyi-Zəhranın oğlu Imam Hüseyn (ə) azsaylı qohumları və silahdaşları ilə birlikdə Kərbəla səhrasında şəhid olmuşdur. Onlar Yezid ibn Müaviyənin ordusu tərəfindən qətlə yetirilib.**

# Sabah Aşuradır- siyasətçilərdən kim qan verəcək?

O vaxtdan indiyədək həmin gün, Məhərrəm ayının 10-u Aşura mərasimi qeyd olunur və 40 gün yas saxlanılır. Həmin hadisədən 1400 ilə yaxın vaxt keçməsinə baxmayaraq, dünyanın bir çox şiə-müsəlman ölkəsində olduğu kimi, Azərbaycanda da qətlə yetirilən peyğəmbər övladları və digər müsəlmanlar yad edilir. Minlərlə insan bu faciəli, lakin şərəfli günü anmaq üçün məscidlərə gedib, Allah naminə nəzir verir və ehsan paylayır. Həmçinin bu gündə xeyriyyə məqsədilə qanvermə aksiyası da keçirilir. Respublika üzrə qanvermə aksiyalarının keçiriləcəyi məscid və ziyarətgahlar isə bunlardır: Yasamal rayonu «Təzəpir» məscidi; Yasamal rayonu «Hacı Soltanəli» məscidi; Səbayel rayonu «Bibiheybət» məscidi; Səbayel rayonu İçərişəhər «Cümə» məscidi; Suraxanı rayonu «Qaraçuxur» məscidi; Xəzər rayonu "Mir Mövsüm ağa" məscidi; Nizami rayonu Keşlə qəsəbə məscidi; Sumqayıt şəhər "Cümə" məscidi; Gəncə şəhər "İmamzadə" məscidi; Mingəçevir şəhər "Heydər" məscidi; Şəki şəhəri "Cümə" məscidi; Lənkəran şəhəri «Böyükbazar» məscidi; Bərdə şəhəri "Cümə" məscidi; Nəsimi rayonu «Əjdərbəy» məscidi. Qeyd edək ki, Lənkəran şəhəri «Böyükbazar» məscidində qanvermə aksiyası Aşura günündən bir gün əvvəl, yəni 23 oktyabr tarixində Tasua günündən başlayacaq. Bəs bu qanvermə aksiyasında deputatlığa namizəd olan siyasətçilərimiz iştirak edəcəklərmi? Ümumiyyətlə, qanvermə aksiyası haqqındakı düşüncələri necədir? **"AĞ blok"un təsisçilərindən biri, deputatlığa namizəd Tural Abbaslı çəkisinin qanvermə aksiyasında iştirak etməyə imkan vermədiyini dedi:** "Düşünürəm ki, qanvermə aksiyası yalnız hansısa xüsusi günlərdə olmamalıdır. Bu, il ərzində olmalıdır Çünki qana təcili ehtiyacı olan insanlar var. Mənim ətrafımdakı böyük əksəriyyət bu prosesdə iştirak edir. Hətta mütəmadi qan verən dostlarımız var. Bəzi qan xəstəliyi olan insanlar var ki, dostlarımız 3-4 aydan bir mütəmadi olaraq qan verirlər. Qanvermənin tibbi şərtləri var. Nə vaxtsa infeksion xəstəlik keçirmiş, çəkisi az olan insanların qan verməsi qadağandır. Ona görə də məndə də bir zamanlar bəzi xəstəliklər olduğuna görə məndən qan götürmürlər. Həm də çəkim qan verməyə imkan vermir. Yoxsa böyük məmnuniyyətlə qan verərdim. Hansısa insanlara yardım etmək insanlıq borcumuzdur". **Ümid Partiyasının sədri, deputatlığa namizəd İqbal Ağazadə bu aksiyada iştirak etməyə çalışacağını dedi:** "Azərbaycanda istər talassemiya, istərsə də qan azlığında, istərsə də xüsusi əməliyyatlarda qanla bağlı əziyyət çəkən çox sayda vətəndaşlarımız var. Çalışacağıq ki, biz də bu aksiyada iştirak edək". **Deputat Fazil Mustafa bildirdi ki, qanvermə cahil insanların öz bədənlərinə xəsarət yetirməməsi üçün təşkil olunmuş bir aksiyadır:** "Aşura günü ilə bağlı qanvermə aksiyası əslində müsəlman üçün nəzərdə tutulan bir forma deyil. Qafqaz Müsəlmanları İdarəsi haqlı olaraq bəzi dini bilməyən, nadan insanların öz başlarını yarmaması üçün mədəni, sivil bir forma təklif edir. Bu formanı da mən təlqin edirəm. Çünki cahillərə izah etmək olmur ki, İslam dini qan tökmək, baş yarmaq dini deyil. Bu adət haradan gəlibsə, bu, Azərbaycan xalqının ümumi dəyərlərinə uyğun deyil. Bu, mürtəce ənənə olsa da, təəssüf ki, Azərbaycanda yaşamaqdadır. Bu baxımdan da məsələnin mahiyyəti ilə bağlı çox dərinə varmaq istəmirəm. Amma bütövlükdə qanvermə aksiyası daha çox o insanları nəzərdə tutur ki, bu insanlar dinin mahiyyətini anlamırlar və gedib özlərinə, uşaqlarına xəsarət yetirirlər. Bədənlərindən qan çıxarırlar ki, bu da yol verilən hal deyil. Ona görə də bizdə o məsələdə daha sərt bir mövqe tərcih etmənin qarşısını almaq üçün tədbirlə yanaşırıq. Qanvermə aksiyası normal bir prosedurdu və mən bu aksiyanı dəstəkləyirəm. Konkret olaraq özümüz adi vaxtlarda qan veririk. Dinlə, hansısa bir mərasimlə bunu əlaqələndirməyi yanlış hesab edirəm. Hər bir müsəlmanın borcudur ki, başqa insanlara kömək məqsədi ilə qan versin. Cəmiyyət daha çox sağlam dini bilgilərə sahib olandan sonra artıq bu aksiyaya da ehtiyac qalmayacaq. Ağlı başında olan adama deyərlərmi ki, sən başını yarma, gəl qan ver. Ona görə də mən şeyxin bu addımını dəstəkləyirəm. Bilirəm ki, ən azından özünə, bədəninə xəsarət yetirən o insan obrazını dəyişməyə çalışırlar. **Bu da müsbət bir haldır". Deputat Zahid Oruc Aşura günlərində bilavasitə qanvermə aksiyasında iştirak etmədiyini dedi:** "Aşura günü ilə bağlı Qafqaz Müsəlmanları İdarəsindən zamanında verilən qərar bu hadisənin ölkəmizdə düzgün istiqamətdə qeyd olunmasına, cəmiyyətdə kədər hissi ilə bərabər eyni zamanda birlik, bərabərlik, yardım əlinin uzadılması, humanizm duyğularının gücləndirilməsinə xidmət etməsi çox düzgün addımdır və böyük rəğbətlə qarşılanır. Aşura gününə bağlı qanvermə aksiyasında bilavasitə iştirak etməmişəm. Çevrəmdən olan insanlar iştirak ediblər. Mənə elə gəlir ki, bu, şəxsi bir seçimdir. Burada bir dövləti yanaşma, yaxud da İslam təşkilatı adına bir qurumun məcburi qərarı və inzibati mövqe yoxdur. Ona görə də özüm şəxsən qan verməmişəm. Qan verməməyimin də xüsusi bir özəl səbəbi yoxdur. Bu bir mənəvi seçimdir. Zərurət olduğu təqdirdə bunu edəcəyik. Ən başlıcası bunu mənən düzgün qəbul etməkdir. Mən hesab edirəm ki, sadəcə olaraq, Azərbaycanda donor qan probleminin olması deyil, qan bankının yaranmasına xidmət etmək amilindən yox, daha çox bu hadisənin bəlli səviyyədə ayrı-ayrı yerlərdə qeyd olunmasının alternativi kimi meydana çıxmağına görə bizim tərəfimizdən alqışlanır".



**Tural Abbaslı:** "Çəkim qan verməyə imkan vermir"



**Fazil Musatafa:** "Qanvermə cahil insanların öz bədənlərinə xəsarət yetirməməsi üçün təşkil olunmuş bir aksiyadır"



**Zahid Oruc:** "Aşura gününə bağlı qanvermə aksiyasında bilavasitə iştirak etməmişəm"

❑ **Günel MANAFLI**

# Vətən haqqı...



**Hüseynbala SƏLİMOV**

**Bəli, dünya olduqca qəribədi. İnsan niyə bu qədər müharibəni sevməlidir? Rusiyanın Suriyada gündə 60-70 döyüş uçuşları keçirdiyini az qala fəxrlə deyən təhlilçilərin tövründən belə hiss olunur ki, bu adamlar müharibəni təkcə sevmirlər, ondan hətta estetik zövq alırlar. Müharibəni sevmək olarmı? Mənə elə gəlir ki, dünyadakı bütün müharibələrdən yalnız biri var ki, ona bəraət qazandırmaq, onu qəbul və təqdir etmək mümkündür. Bu da vətən müharibəsidir. İnsan vətənini qorumağı bacarmalıdır, bircə şərtlə ki, o, gərək digər insanların da vətən haqqını tanımış olsun...**

Bəli, bu gün Rusiya Suriyada döyüşür. Üstəlik, o, bəlkə yeganə dövlətdir ki, bir an belə dayanmır, ağla gələn, gəlməyən geosiyasi ssenarilər cızır...

Bu ssenarilərdən biri də Yaxın Şərqdə kürd dövlətinin yarana bilməsidir. İndi Suriya kürdləri Rusiyaya böyük ümidlə baxır və güman edirlər ki, ruslar onların elan etdikləri muxtariyyatı tanıyacaq...

Bizə həmişə elə gəlib ki, Rusiyanı kürd hərəkatları ilə böyük tarixi əlaqələr və iş birliyi bağlayır. Mən PKK-nın tarixini bütün təfsilatı ilə bilmirəm, amma bu təşkilatın bir vaxt solçu-marksist təşkilatı olmasının fərqindəyəm. Üstəlik, İraq kürdlərinin liderləri də vaxtilə Moskvada təhsil almış insanlar idi...

Sözsüz ki, mən bununla nəyəsə kölgə salmaq niyyətindən uzağam. Bir azacıq əvvəldə yazmışdım ki, hamının vətən haqqı var. Amma bu, o demək deyil ki, sən harada üç nəfər oldunsa, gərək mütləq böyük iddialara düşəsən. Təəssüf ki, bəzən belə də olur...

Ən qəribəsi isə bilirsinizmi nədir? Bu qovğada hətta ABŞ-la Rusiya arasında belə anlaşma tapmaq mümkündür. Mənə elə gəlir ki, bu müharibədə müttəfiqi olmayan bir dövlət varsa, o da Türkiyədir. Rusiya öz mediasında kürd problemini aktuallaşdırmaqla məşğuldur, ABŞ hələ Səddam Hüseyn vaxtından kürd icmasına böyük vədlər verir...

Olsun. Türkiyədən kənarda kürd dövlətinin yaranmasının bizim üçün nə istisi, nə də soyuğu var. Qoy, yaransın. Amma Türkiyədə bundan çox ehtiyat edirlər və düşünürlər ki, harada yaranmasından asılı olmayaraq kürd dövləti Türkiyədəki kürd separatizmini stimullaşdıracaq və yaranacaq yeni dövlət heç şübhəsiz ki, Türkiyəni təhdid edəcək.

Qardaşımız Türkiyənin narahatlığını anlayırıq. Elə bizim nigarançılığımız da məhz Türkiyə ilə bağlıdır. Amma biz Türkiyədə kürd probleminin indiki siyasi məntiqlə həllini görmürük. Bizə elə gəlir ki, Türkiyə kürd problemini öz ərazisindən başqa ölkənin ərazisinə transfer etməyi, köçürməyi bacarmalıdır...

Burada mənim yadıma 1992-93-cü ildən bir epizod düşür. Bir türkiyəli dostum israrla məni inandırmağa çalışırdı ki, Türkiyədə kürd yoxdur, orada dağ türkləri var. Mənim indi də onunla mübahisə etmək fikrim yoxdur. Olsun. Qoy, lap elə dağ türkləri olsun. O vaxt da demişdim ki, siz onların mövcudluğunu inkar edə, onlara kürd deyil, dağ türkləri deyə bilərsiniz, amma bu, problemi həll etmir-bu insanlar özlərini fərqli bir millət hesab edir, lap açığı, onlar özlərini qətiyyən türk hesab etmirlər...

Həm də kürdlər dünyada o qədər çoxdurlar ki, onları inkar etmək ən yaxşı bir halda gülüş doğura bilər - onlar var və bir neçə dövlətin ərazisində nəsə etməyə cəhd edirlər...

Bizim üçün əsas olan nədir? Türkiyə bu problemdən qurtulsun! Türkiyədən xəbərlərə baxmaq olmur, az qala hər gün terror, hər gün ölüm... Nə vaxta qədər belə davam edəcək? Ən çox düşündürən məqamlardan biri də budur ki, kürdlərin demoqrafik problemi yoxdur, onlar sürətlə artırlar...

Deyə bilmərəm indi onlar Türkiyədə nə qədərdir, amma onu bilirəm ki, heç az da deyillər...

Ona görə də düşünürsən ki, bu problem ərəb dövlətlərinin ərazisinə keçsəydi heç olmasa, Türkiyənin canı qurtarardı... Bir az əvvəldə dedim ki, Türkiyənin Suriya qovğasında heç bir müttəfiqi yoxdur. Suriya və Rusiya belə hesab edir ki, Türkiyə İŞİD-ə dəstək verir. Elə ABŞ da yaranmış vəziyyətdən məmnunluq duymur- amerikalılar da düşünür ki, Türkiyə həm də PKK-nı hədəf seçməklə onların regiondakı maraqlarına bir növ zərbə vururlar...

Qərəz, vəziyyət belədir. Bir daha deyirik ki, hamının vətən haqqına saygı ilə yanaşırıq. Türkiyə də vaxtilə bu saygını nümayiş etdirib - Osmanlı tərkibində olan neçə millətin istiqlal haqqını tanıyıb. Amma türklərin öz haqları, onların da vətən haqqı var. Bu haqqı heç kim onların əlindən almayıb, ala da bilməz və hamı, o cümlədən də Rusiya qəbul etməlidir ki, Türkiyə onu özünə vətən və dövlət hesab edənlərindir...

YENİ MÜSAVAT
N 235(6263) 23 oktyabr 2015




**Cümə söhbətləri**

**Bismillahir-Rahmanir-Rahim! Məhərrəmlik dönəminin ən xas məqamlarından biri - Kərbəla vaqiəsinin başvermə səbəblərini araşdırmaqdır. Öncəki bəhslərimizdə qeyd etdik ki, İmam Hüseynin (ə) qiyamında əsas qayələrdən biri - düşünmək azadlığını müdafiə etmək idi. Və bu azadlığı öz həyatı hesabına qoruyan İmamın (ə) adı ilə bağlı olan İlahi hərəkatı təhlil etmək bu baxımdan xüsusi əhəmiyyət kəsb edir.**

# Kərbəlada qəbul edilib, bütün zamanlara ötürülən izzət estafeti



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## İki gün və üç sual

**Aşura hərəkatını təhlil edəndə, əsas 3 suala cavab vermək lazım olur:**

**Aşura niyə baş verdi?**

**Aşura necə baş verdi?**

**Aşuranın nə kimi nəticələri oldu?**

Bu 3 sual ətrafında çoxlu araşdırmalar, çoxlu tədqiqatlar aparılıb. Amma bu araşdırmanın tam dolğun olması üçün bir nurani çalara diqqət etmək lazımdır. İslam tarixində 2 gün var ki, birində şadlanmaq ibadətdəndir, digərində qəmlənmək. Diqqət edək: İslam tarixində bir gün bir cöllükdə bir hadisələr olur ki, nəticədə Rəbbimiz Qurani-Kərimdə bizə dinin kamilləşdiyi gün, nemətlərin tamamlandığı gün, İslamın din olaraq bəyənilən gün kimi bu hadisəni çatdırır. Bu, Qədir-Xum günüdür.

İslam tarixində digər bir gün də var ki, burada başqa çöldə, başqa hadisələr baş verir. O gün və o çöllü-biyabanlıq İslam tarixinə başqa bir adla düşəcək. Öncə sözügedən o birinci gün və o birinci çöllük başqa bir səciyyə daşıyır. Allah tərəfindən dinin bəyənildiyi bir gün kimi tarixə düşür. Digər gün isə tam fərqli bir gündür. Burada artıq İslamın axırına çıxmaq istəyənlərin, İslamın əsaslarını məhv etmək istəyənlərin qarşısına çıxılan bir gündür.

## Üç çalar, üç müstəvi

İslam mütəfəkkirləri bildirir ki, Aşuranı anlamaq üçün 3 çalara, 3 istiqamətə diqqət yetirmək lazımdır. Bunun bir çaları - əql, əqlaniyyətdir. Yəni suallar cəhəti, suallar çalarıdır. Niyə baş verdi Aşura, necə baş verdı, nə kimi nəticələri oldu? İnsanın bu məsələlərlə bağlı araşdırmaları olmalıdır.

Aşuranın digər çaları - qəhrəmanlıq, izzət çalarıdır. Üçüncü çaları - sevgı, məhəbbət, daxildən gələn hərarətin doğurduğu bir çalardır. Və Aşura günü biz baş vermiş hadisəni anlamaq istəyiriksə, hər cəhətə ki, toxunmalıyıq, gərək özümüzə bunlarla bağli suallar verək. Və bu sırada ən əsas suallardan biri budur ki, bu 2 gün arasında nə kimi əlaqə var. Qədir-Xum çölündə baş verən hadisələrlə Aşura günündə, Kərbəla çölündə baş verənlər arasında nə kimi əlaqə var? Nə kimi əlaqə var ki, hadisələrin birində Rəbbimiz dininin kamilləşməsi, nemətlərin tamamlanması barədə bəşəriyyətə bildiriş edir, bu birisində söhbət bundan gedir ki, İmam Hüseyn (ə) öz hərəkatının ana qəyəsinin çatdırışında İslamın mahiyyətinin, faktiki mövcudiyyətinin aradan getmə təhlükəsini açıqlayır?

İslamın mövcudiyyətinin aradan getması nə deməkdir? Yəni namaz qılan, oruc tutan olmayacaqdı? Xeyr, zahirdə oruc tutanlar da olacaqdı, namaz qılanlar da. Hətta Əba Əbdillahın (ə) qatilləri arasında da zahirdə namaz qılanlar var idi. İmamının (ə) qatili olan namaz qılan... Bundan böyük absurd təsəvvür etmək belə çətindir! Hətta döyüş ərəfəsində İmam Hüseynin (ə) arxasında cəmlə namaz qılanlar da oldu bu yezid tör-töküntülərindən. Bundan artıq münafiqlik ola bilərmi?!

## Nəyin estafeti ötürülürdü?

Qayıdaq təqribən 1500 il öncəyə. Qədir-Xum adlı məkanda İmam Hüseynin (ə) nurani babası - Rəsuli-Əkrəm (s), nurani atası Həzrət Əlinin (ə) imamətini elan edir. Və bu hadisəni Rəbbimiz dinin kamil həddə yetişməsi, nemətlərin tamamlanması, İslamın bir din olaraq bəyənilməsi kimi tanıdır. Məgər Qədir-Xumdan öncə namaz qılan, oruc tutan yox idi? Bəs necə olur ki, din kamilləşmiş duruma gəlir? Nə oldu ki, Qədir-Xumda deyilir: kamilləşdi, tamamlandı, bəyənildi, Aşura günü isə dinin arada getməsi barədə danışılır?

Nə oldu ki, bir halda kamilləşmədən danışılır, digər halda isə İslamın aradan getmək təbili vurulur? Nə idi birinci halda bəyənilməyə səbəb olan, digər halda isə dinin aradan getməsinə səbəb olan? Bu suallara cavabla Aşuranın niyə baş verməsi cavablanır.

Belə məlum olur ki, zahiri namazın və zahiri orucun müəyyənedici əhəmiyyəti yoxdur. Namaz və orucun özü nə dinin kamilləşməsi, nə dinin nemətlərinin tamamlanmasıdır, nə də İslamın din olaraq Uca Allah tərəfindən bəyənilməsdir. Bunların zahiri mövcudiyyəti, zahiri qalmaqlığı İslamın əsaslarının qalmaqlığı demək deyil. İslamin əsası - izzətdir, mənəviyyat və ləyaqətdir. Və Qədir-Xum çölündə əslində Əmirəlmömininin (ə) imaməti elan olunmaqla İslamın özülünün, əsasının izzət, şəxsiyyət, ləyaqət, mərdlik, mənəviyyat olması elan olunurdu və Həzrət Peyğəmbərdən (s) sonra izzəti, ləyaqəti, mənəviyyatı qorumaq estafeti Əmirəlmöminin İmam Əliyə (ə) təhvil verilirdi.

Əba Əbdillahın (ə) isə Aşura öncəsi vəziyyəti o cür idi ki, lənətlik Yezid müsəlman toplumunda izzət adına, ləyaqət adına heç bir şeyin qalması ilə razı deyildi. Və önəmli məqam budur ki, bunu nəzəri olaraq yox, praktiki olaraq həyata keçirirdi. İzzət, mənəviyyat estafetinin ötürülməsi ilə din kamilləşdi, nemət tamamlandı, İslam din olaraq bəşəriyyət üçün bəyənildi. Yezid (lən) isə bu estafetin ötürülməsini bilmərrə aradan aparmaqda qərarlı idi. Və Əba Əbdillah (ə) İslamın real aradan getmək təhlükəsini görür. Müsəlman toplumunda İslamın ana prinsiplərindən olan izzətin, ləyaqətin itirilməsi təhlükəsini görür. Bu təhlükə qarşısında Əba Əbdillah (ə) öz mübarək vücudunu qurban verir və bununla da İslamı qaçılmaz məhvdən sığortalayır. Həyatını qurban verir ki, hər zaman müsəlman toplumları bu məktəbə baxıb, bundan ibrət götürsünlər və toplumda izzət, şəxsiyyət, ləyaqət, mənəviyyat kimi dəyərləri yaşatsınlar.

## Əql və eşqin qovuşduğu məkan

Aşura niyə baş verdi? Aşuranın baş verməsinin əsas səbəbi və əsas hədəfi, əsas qayəsi - ümmətin içində izzətin, ləyaqət və şəxsiyyətin itməsinə imkan verməməkdir. Və Əba Əbdillahın - İmam Hüseynin (ə) "Zillət bizdən uzaqdır" şüarı o məna daşıyır ki, izzətə xələl gətirə biləcək hər bir şey, şəxsiyyət və ləyaqəti aşağılaya biləcək hər bir şey - qəbuledilməzdir. Və bütün azadxah və şəxsiyyətli insanlar üçün, hər bir zaman və hər bir məkan üçün bu, qalıcı və sönməz bir dərsdir.

Aşura necə baş verdi? Aşura - başdan-başa vücudi səhnələrin bir toplumudur. Aşura - bir vücudi kompozisiyadır. Aşura - bir pak bulaqdır ki, orada bütün əsli sular üzə çıxır. Bir bulaqdır ki, əsrlər boyu insanlar gələrlər bu bulaqdan mənəvi qida alarlar. Aşura - bir pak və nurani Günəşdir ki, onun saçmasıyla varlıq aləminin bütün rəngləri üzə çıxar. Aşura - əqlin özüdür. Aşura - eşqin özüdür. Aşura - əqllə eşqin bir-birinə qovuşmasıdır. Aşura - insan imkanlarının tam realizəsidir. Aşura bir səhnədir ki, burada əql zirvədədr, eşq və məhəbbət də zirvədədir. Aşura - İNSAN adına nə varsa, onun təzahürüdür. Dillər acizdir, qəlblər taqətsizdir vəsf etsin Aşura günü baş verənləri. Qəlblərin iqtidarı çatmır o müsibətin nəqlinə... Nəyi deyəsən?

Gedək Aşura səhnəsinə. Hansı səhnədən danışaq?! Hər addımı, hər baxışı, hər nöqtəsi, hər sözü vücudi bir səhnədir Aşuranın.

## Əli Əkbər (ə) səhnəsi

Aşura səhnəsində adamı heyran edən məqamlardan biri də İmam Hüseynin (ə) böyük oğlu Həzrət Əli Əkbərin (ə) səhnəsidir. Əli Əkbər ağanın ata tərəfini tanıtdırmağa ehtiyac yoxdur. İmam Hüseynin (ə) oğlu. Həzrət Əlinin (ə) və xanım Zəhranın (s.ə) nəvəsi. Rəsuli-Əkrəm (s) övladı.

Amma Əli Əkbər ağanın ana tərəfi barədə təbərrük üçün bir məlumat verək. Əli Əkbərin anasının babası Ürvə ibn Məsud adlı bir dərin mömin insan idi. İslam yolunda şəhid olan bu insan barəsində Rəsuli-Əkrəmin (s) son dərəcə maraqlı deyimi var. Həzrət Rəsulullah (s) buyurub: "Mən (Merac zamanı) İsa ibn Məryəmi müşahidə etdim və Ürvə ibn Məsud ona hamıdan çox oxşayırdı".

Bu nə ayıldıcı məqam, bu nə çalardır ki, Əli Əkbər ağanın atasının babası Həzrət Peyğəmbərdir (s), anasının babası isə bəşər övladı içindən İsa peyğəmbərə (ə) ən çox oxşayan insan idi?!

Bir məqam da qeyd edilməlidir ki, Əli Əkbər ağanın özü Rəsuli-Əkrəmə (s) ən çox oxşayan insan idi. O qədər oxşayırdı ki, bir kəs Rəsuli-Əkrəmi (ə) xatırlamaq istəyəndə, gedib Əli Əkbər ağaya nəzər salardı...

Aşura günü... Bir an yetişir ki, artıq İmam Hüseyn (ə) Əli Əkbər ağaya meydana getməyə izn verir. İzn verəndən sonra, Əba Əbdillah (ə) balasına bir nəzər salır - Peyğəmbəri-Əkrəmə (s) hamıdan çox oxşayan balasına. Baxışını aşağı salır, kövrəlir İmam (ə). Sonra barmağını göyə tutur və mübarək saqqalını əli ilə tutur və beləcə Rəbbi ilə raz-niyaz edir. Əba Əbdillah (ə) deyir: **"İlahi! Şahid ol ki, bu qövm ilə döyüşə bir cavan yollandı ki, insanlar arasında xilqət, xasiyyət, danışıq baxımından Rəsulullaha (s) ən çox oxşardır. Hər vaxt ki, Sənin Rəsulunu (s) görmək şövqü bizi bürüyürdü, onun üzünə nəzər salırdıq..."**

İndi belə bir şəxs meydana gedir. Meydanda hadisələr o yerə çatdı ki, yezid tör-töküntüləri hər tərəfdən Əli Əkbər ağanın mübarək vücudunu zərbətlədilər. Hər tərəfdən qılınclar endirilir. Deyirlər, Əli Əkbər ağa atından möhkəm-möhkəm tutmuşdu ki, endilrilən qılınc zərbələrindən yerə yıxılmasın. Şəhadət məqamında olan Əli Əkbər ağa atası Hüseyni (ə) səsləyir: **"Atacan! Xudahafiz! (Artıq) başımın üstünə cəddim Rəsulullah (s) gəlib və su ilə dolu bir camı mənə içizdirir". Əba Əbdillah (ə) özünü balası Əli Əkbərə yetirir. Üzünü qoyur balasının üzünə, yanağını qoyur yanağına. Buyurur ki, "Səndən sonra, əziz oğlum, vay olsun bu dünyaya".**

İmam Cəfər Sadiqdən (ə) nəql olunur ki, Əba Əbdillah (ə) Əli Əkbər ağanın mübarək qanından bir ovuc götürür və göyə atır və bu qanın bir qətrəsi də yerə qayıtmır.

## Həzrət Zeynəb (s.ə) səhnəsi

Gedək İmam HüseynİN (ə) bacısı Həzrət Zeynəb (s.ə.) səhnəsinə. Bayaqdan sükut edən Zeynəb (s.ə.) Əba Əbdillahın (ə) bacısı ki, öz balaları şəhid olanda səsi çıxmırdı, insanları ruhdan salmamaq üçün, olmazın əzab və itkilər önündə səsini çıxartmırdı. Amma Əli Əkbər ağanın şəhadət səhnəsini görəndə "Vay, qardaşımın oğlu, ey vay", deyərək fəryad çəkir. Aşura səhnəsi Əli (ə) qızı Zeynəbin misilsiz dərdini görür. Rəsulullaha (ə) bəşər içində ən çox oxşayan qardaş balası şəhid edilib. Zeynəb (s.ə.) artıq tab gətirmir və özünü Əli Əkbər ağanın mübarək bədəninin üstünə atır. İmam Hüseyn (ə) Həzrət Zeynəbi (s.ə.) qaldırır və xeymələrə aparır və uşaqlara deyir: **"Qardaşınızı gətirin xeyməyə".**

Aşura səhnəsinin bir dərdli nöqtəsi də var. Deyirlər, Əba Əbdillah (ə) bütün şəhidləri xeyməyə özü gətirərdi. Amma Əbülfəzl Abbas və Əli Əkbər ağa şəhid olanda bunu edə bilmədi. Taqəti olmur Bəni-Haşimin parlaq Ayı olan Həzrət Əbülfəzi və Peyğəmbəri-Əkrəmə (s) ən çox bənzəyən Əli Əkbər ağanı xeymələrə gətirməyə.

## İzzət çağırışı

Xeymələr... Aşuranın xeymələri... Xeymələr deyəndə insanın qəlbi qovrulur. Nələrin şahidi olmadı bu xeymələr. Necə dərdlər, necə faciələr gördü və nə qəhrəmanlıqlar, dözümlülük və fədakarlıqlar gördü Aşuranın xeymələri.

Aşuranın əsr vaxtı... Əba Əbdillahın (ə) son anlarında gözü xeymələrdə idi. Əba Əbdillahı (ə) halqaya alıb, zərbələr yağdırır nanəcib düşmən, ümmətin İmamına qənim kəsilən düşmən. Və Əhli-beytin (ə) qanına susamış düşmən, xeymələri qarət etmək hərisliyinə düşür, zəlalət silsiləsini olmazın şərərəfsizliklərlə davam etdirmək istəyir. Yaralarından qan axa-axa qılıncına dayanaraq, min bir məşəqqətlə ayağa qalxır Həzrət Hüseyn (ə). Yalqızdır Hüseyn (ə), qəribdir Hüseyn (ə), hər mənada meydanda təkdir Hüseyn (ə). Ayaq ustə durmağa taqəti yox yaralı Zəhra (s.ə.) balasının. Düşməni qeyrətə səsləyir, müdafiəsiz xanım və uşaqları qarət etmək istəyən şərəfsiz nanəcibləri axırıncı dəfə kişi olmağa çağırır Hüseyn (ə). "Hürr olun, azad olun. Müsəlman deyilsinizsə, heç olmasa azad kişi olun!" deyir düşmənlərə İmam Hüseyn (ə).

Dünya nə qədər mövcuddur, bu cümlələr dəyərlidir. Hər anın, hər zamanın cümləlеridir bu. Düşmən olsan da, qeyrətin, kişiliyin olsun! Tökmə günahsız körpə qanını, dava etmə müdafiəsiz qadın, qoca, uşaqlarla! Müsəlman olmursan - özün bilərsən, heç olmasa, insanlığın, mərdliyin olsun! - səslənir bu gün Qəzzada, Qüdsdə, Şuşada, Bagdadda. Dünyaya ünvanlanır bu gün bu çağırış: "Müsəlman deyilsiniz, məsihi deyilsiniz, yəhudi deyilsiniz - heç olmasa zərrədək alicənablığınız olsun!".

Aşura bütün dövrlərə, zamanlara yönəli qeyrət, namus, mərdlik çağırışıdır. İnsanı alçalmamağa çağırır Aşura. İzzətli olmağa, sərəfli olmağa çağırır insanı Aşura. Budur Aşuranın ən böyük nəticəsi. Hər durumda, hər vəziyyətdə, hər bir halda şəxsiyyət və ləyaqəti, izzəti-nəfsi qorumaq! Heç bir vəziyyətdə insan imkan verməli deyil bu dəyərlərin tapdalanmasına. Budur Aşuranı dərsləri!

**Allahım, bizləri İmam Hüseynin (ə) yolunu gedənlərdən qərar ver!**

**Allahım, cəmi ümməti izzəti, mənəviyyatı, ləyaqəti yaşadanlardan qərar ver! Amin!**

# Azərbaycanda qışın necə keçəcəyi Afrikada bilinəcək

## Asif Verdiyev: “Azərbaycan ərazisində qış dövrünün necə keçəcəyi noyabrın sonunda açıqlanacaq”

**ABŞ-ın Milli Okean və Atmosfer Agentliyinin (NOAA) məlumatına görə, bu il dünya son 10 ilin ən soyuq qışını gözləyir. Qurumun okean sularına baxaraq apardığı müşahidələr nəticəsində axırıncı dəfə 1997-98-ci illərdə müşahidə olunan “Super El Nino” qasırğasının bu qış da özünü göstərəcəyi bildirilib. İntensiv qar, qasırğa, sel, torpaq sürüşməsi və quraqlığa səbəb olan “El Nino” bu qış dünyanın qütblərində pik həddə çatacaq.**

Xüsusilə yanvar və fevral aylarında dondurucu soyuqlar gözlənilir. Bu ilin ən sərt qışı olacağı ilə bağlı proqnoz verən yalnız ABŞ deyil. Rusiya Elmlər Akademiyasının Tümen Elmi Cəmiyyətinin Rəyasət Heyətinin sədri, akademik Vladimir Melnikov iqlimin dövriliyi haqqında aparılan müşahidələrin “soyuq era”nın başlanmasından xəbər verdiyini deyib. “Müşahidələrimiz təsdiqləyir ki, Yer kürəsində yalnız qlobal istiləşmə deyil, həm də soyuqlaşma prosesləri gedir” deyə, rusiyalı alim vurğulayıb.

Məlumata görə, soyuqlaşma dövrünün “qaranquş”u artıq Yamalda qeydə alınıb. Burada oktyabr ayında temperatur mənfi 18 dərəcədən də aşağı düşüb. Bütövlükdə Rusiyanı əvvəlki illərlə müqayisədə daha sərt qış gözləyir. Hələ 2010-cu ildə ingiltərəli alimlər dünyada “mini buz dövrü”nün başlanacağı iddiası ilə çıxış ediblər. Onların fikrincə, Avropanı və Şimal yarımkürəsini təsiri altına alan şaxtalı hava şəraiti 20-30 il davam edəcək, bununla da “mini buz dövrü” yaşanacaq. Məlumata görə, tanınmış alim və BMT-nin hökumətlərarası İqlim Qurumunun (İPCC) üzvü professor Mojib Latif da Sakit okean və Atlantik okeandan götürülmüş suyun hərarətini tədqiq edəndən sonra eyni nəticəyə gəlib. Rusiya və Böyük Britaniyanın bir qrup alimi isə iddia edir ki, 15 ildən sonra Yer üzündə buzlaşma dövrü başlayacaq. Qlobal soyuqlaşmanın 2030-cu ildə başlanacağı gözlənilir. Elm adamları Günəşdəki aktivliyin 2030-2040-cı illərdə 60 faizə qədər azalacağını bildirirlər. Alimlərin bu cür hava proqnozu əhalidə bu qışın sərt keçəcəyi ilə bağlı təşviş yaradıb.

Maraqlıdır, Azərbaycanda da deyilənlər kimi, sərt qış gözlənilirmi?

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun baş hidroloqu Asif Verdiyev qışın necə keçəcəyi haqda məlumat verməyin hələ tez olduğunu dedi:** “Azərbaycan ərazisində qış dövrünün necə keçməsi hər il noyabrın sonunda açıqlanır. Noyabrın sonunda Cənub-Şərqi Avropa və Qafqaz ölkələri üzrə Forum keçirilir. Bu il də bu forum Mərakeşdə baş tutacaq. Həmin forumda qışın necə keçəcəyi ilə bağlı müzakirələr aparılır və ölkələr üzrə yekun qərar verilir. Biz də hər il həmin forumda iştirak edirik, yalnız ondan sonra qışın necə keçəcəyi barədə məlumat veririk. İndidən qışın sərt keçəcəyi haqda hansısa bir söz demək hələ tezdir. Azərbaycanda elə də şiddətli soyuqlar olmur. Müşahidələr də onu göstərib ki, son illərdə qış dövrü mülayim keçib”.

**Oktyabr-noyabr aylarının hava proqnozuna gəlincə isə A.Verdiyev yağışlı günlərin hələ davam edəcəyini bildirdi:** “Oktyabr-noyabr ayları, ümumiyyətlə, yağışlı bir dövrdür. Bakı-Abşeron yarımadasında, Lənkəran, Astara bölgələrində ən çox yağıntı oktyabr, noyabr aylarında müşahidə edilmişdi. Son günlərdə də yağan yağışlar onu göstərir ki, il ərzində ən çox yağış oktyabr-noyabr aylarında düşür”.



## “Azərişıq” və “Azərsu” “hazırıq” deyir...

Maraqlıdır, əgər deyilənlər doğru olarsa, yəni son 10 ilin ən soyuq qışı Azərbaycana da gələrsə, kommunal xidmət sahələrində vəziyyət necə olacaq? Şaxtalı günlərdə işıq, qaz, su problemi yaşayacağıqmı?

**“Azərişıq”ın mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev qış nə qədər sərt keçirsə-keçsin işıqla bağlı heç bir problem yaşanmayacağını dedi:** “Nə qədər sərt qış olsa da, ”Azərişıq" tərəfindən aparılan yenidənqurma və təmir tikinti işləri elektrik enerjisinə olan tələbatı yüksək səviyyədə həyata keçirəcək. Tikdiyimiz yarımstansiyalar, çəkdiyimiz yeni kabel xətləri, quraşdırdığımız transfarmator məntəqələri, o cümlədən hava şəraitinə uyğun kabellərin izolyasiyası, yeni kiçik kabellərlə dəyişdirilməsi istər Bakı şəhərində, istərsə də ətraf kənd-qəsəbələrdə, o cümlədən regionlarda işıqla bağlı heç bir problem yaratmayacaq. Hansı rayonlarda nə kimi problemlər varsa, son 5-6 ay ərzində təftiş olunub və qeydə alınıb. 50-60 min taxta dayaqlar dəmir dayaqlarla əvəz olunub. 700-800 ədəd yeni transformator məntəqələri inşa olunub. Biz işimizi mövsüm olaraq qurmuruq. Biz 24 saat abonentlərimizin xidmətindəyik və təbii ki, nəzərə alırıq ki, qış ayları gələndə nəzərə alırıq ki, enerjiyə tələbat artır, hansısa problemlər arta bilər. Bütün bunları nəzərə alaraq əlavə avadanlıqlar, maşın mexanizmləri, ehtiyat hissələri bütün rayonlarda anbarlarda hazırdı. 199 saylı qəza xidmətimiz var ki, 24 saat abonentlərin xidmətindədir".

**“Azərsu”nun mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı isə bir neçə gün öncə “Yeni Müsavat”a verdiyi açıqlamasında “Azərsu” QSC-nin şəbəkələrində su borularının donması kimi problemlərin olmayacağını bildirmişdi:** ““Azərsu”nun öz şəbəkələri var. Su xətlərinin donması kimi problemlər adətən camaatın öz xətlərində olur. Məsələn, Sulutəpə, Binəqədi və ətrafdakı yaşayış məntəqələrində şəbəkəni camaat pul yığıb özləri çəkib. Yəni bu, mərkəzləşmiş, bizim balansımızda olan şəbəkə deyil. Problem yalnız bu şəbəkələrdə yarana bilər ki, biz də bununla bağlı həmişə tövsiyələrimizi veririk. Qəza olan zaman onların bizim şəbəkəmiz olmamasına baxmayaraq su itkilərinin qarşısını almaq üçün biz gedib o qəzanı aradan qaldırır, kömək edirik".

“Azəriqaz”la dəfələrlə əlaqə saxlamağa çalışsaq da cəhdimiz boşa çıxdı.

❑ **Günel MANAFLI**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*
SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (7500 AZN) təcili satılır.**
**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şossesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m. məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**
**Tel: (050) 614-40-24**

**Elan**

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**
**Əlaqə telefonu: (050) 343-59-72**

YENİ MÜSAVAT

Son səhifə

N 235 (6263) 23 oktyabr 2015

# Mühəndis yük maşınında yaşayır

Google şirkətində çalışan 23 yaşlı gənc yük maşınında yatıb-durur. Gəncin yük maşınında yaşamasının səbəbi isə San-Fransiskoda kirayə ev qiymətlərinin olduqca yüksək olmasıdır. Cəmi 23 yaşı olan Brandon bir çox insanın çalışmaq üçün xəyallar qurduğu google şirkətinin mühəndisidir. O, San-Fransiskoda kirayədə yaşayan bir nəfərin illik xərclərinin 40 min dollardan çox olduğunu deyib. Ona görə də zamanının çoxunu işdə və ofisdə keçirir. Əks halda, gündəlik xərcləri təxmin ediləndən daha çox olur. Brandon bir müddət ən ucuz evlərdən birində qaldığını, buna baxmayaraq, hər gecə üçün 65 dollar ödədiyini deyib. Evin ağır xərclərindən qurtulmaq üçün 10 min dollara yük maşını alıb və onun baqajında həyatına davam etməyə çalışır. Elektrik və kirayə dərdi olmayan Brandon yük maşını üçün aylıq 121dollar vergi ödəyir.



## Gecə klubunda işlədi, baş nazir oldu



Kanadada Stepan Harperin başçılığı altında 9 ildir davam edən Mühafizəkarlar Partiyasının iqtidarı sona çatıb. Ölkənin yeni lideri isə "Müasir Kanadanın atası" adlandırılan və 4 dəfə baş nazir vəzifəsini tutan Pyerre Trudeaunun Justin olacaq. Liberal Partiyanın 43 yaşlı lideri ölkənin ən gənc ikinci baş naziri olmağa hazırlaşır. Milli.az qaynar.info-ya istinadən bildirir ki, Liberal Partiyası seçkidə 338 deputatdan ibarət Kanada Parlamentində 170-dən artıq yer tutaraq təkbaşına iqtidarı ələ keçirib. Yenilgini qəbul edən Stepan Harper Mühafizəkarlar Partiyasının sədrliyindən də istefa edib.

Seçki kampaniyası müddətində Trudeaunu "naşı və cahil" adlandıran Harper ikinci olacağı halda siyasətdən gedəcəyini bildirmişdi. Kanada və dünya mətbuatının diqqət mərkəzinə düşən Justin Trudeau seçkidəki qələbəsinin bəlli olmasından sonra Montrealdakı çıxışında "gerçək dəyişiklik" sözü verib. "Bütün kanadalıların baş naziri olacağam" deyən yeni lider qeyd edib: "Liberallar seçkini qazandılar. Çünki biz səbir etməyi bacardıq. Qorxunun öhdəsindən ümidlə gəldik, kanadalıların hamısını bir araya gətirdik".

Justin Trudeau Kanadanın ən önəmli liderlərindən birinin oğlu olsa da, hər zaman diqqət mərkəzində olmaqdan yayınıb. İctimaiyyətin diqqətində olmaqdan qaçan Trudeau McGill Universitetində oxuduğu zaman xərclərini xizək müəllimliyi və gecə klubunda mühafizəçi işləyərək ödəyib. O, daha sonra bir məktəbdə ingilis dili müəllimi işləyib.

# Qadın və kişinin ürəyi fərqli şəkildə qocalır

Amerikadakı Cons Hopkins Universitetinin apardığı araşdırma nəticəsində məlum olub ki, qadınların və kişilərin ürəyi fərqli şəkildə yaşlanır. 3 min nəfərin iştirak etdiyi araşdırma nəticəsində məlum olub ki, onların ürəkləri zaman keçdikcə fərqli dəyişikliklərə məruz qalır.

54-lə 94 yaş arası tərcübəçilər araşdırmadan əvvəl heç bir narahatlıqları olmadığını deyiblər. Tədqiqatlar 2002-2012-ci illər arasında davam edib. Kişilərin ürəyini müayinə edən həkimlər onların ürəyinin sol divarının zaman keçdikcə büzüşdüyünü, qadınlarda isə bu problemin daha yüngül olduğunu deyiblər. Lakin infarkt əleyhinə istifadə edilən dərmanlar kişilərdən daha çox qadınlara yaxşı təsir edir. Buna görə də mütəxəssislər qadınlara və kişilərə ayrı-ayrı müalicə yazılmasının önəmli olduğunu deyiblər.



## 2 ay boşuna həbsdə qaldı



İsveçdə yaşayan 55 yaşlı oğru müstəntiqə xəbər verilmədiyi üçün boş-boşuna nəzarətdə saxlanılıb. Ölkənin rəsmi xəbər agentliyi TT-nin xəbərinə görə, iki ay əvvəl oğurluqda günahkar bilinən kişi vəkilini dəyişmək istədiyi zaman gerçək ortaya çıxıb. Nəzarətə götürülən şəxsin vəkili Olle Palmgren açıqlamasında haqqında danışılan şəxsin həbs edildiyindən xəbəri olmadığını söyləyib. Yenidən müstəntiqə xəbər verən vəkili onun boşuna 2 aydır nəzarətdə saxlanıldığını deyib. Araşdırmalar bitdikdən sonra həmin şəxs azadlığa buraxılıb və onu həbs edən polislər nəzarətə götürülüb.

## Qoroskop




**QOÇ** - Planetlərin neqativ yerdəyişməsini nəzərə alıb, hansısa qeyri-adi və yeni işlərə başlamayın. Yaxşısı budur ki, əsas vaxtınızı mənzil şəraitində keçirəsiniz. Axşama yaxınsa qonaq getmək olar.

**BUĞA** - Səhər saatlarını gərgin şəraitdə keçirsəniz də, özünüzü təmkinli aparmaqla gözlənilən xoşagəlməzliyi dəf edə biləcəksiniz. Nahardan sonra isə sevindirici hadisələrin şahidi olacaqsınız.

**ƏKİZLƏR** - Bürcünüz üçün kifayət qədər uğurlu bir gündəsiniz. Düzdür, saat 12-yə qədər müəyyən gərginlik olsa da, sonrakı müddətdə ovqatınız çox yüksək olacaq. Müəyyən sürprizlər də gözlənilir.

**XƏRÇƏNG** - Əsas enerjinizi sevgi amilinə yönəldin. Çalışın ki, hər bir kəlmənizdə, hər bir ifadənizdə özünüzə qarşı rəğbət oyadasınız. İndiki sərt cəmiyyətdə kiminsə qəlbinə dəymək məharət deyil.

**ŞİR** - Ulduzlar pulla bağlı məsələlərdə ehtiyatlı olmağı tövsiyə edir. Bir qədər qənaətcil olmağınız vacibdir. Kiməsə borc vermək və ya maliyyə sövdələşmələrinə girişmək yolverilməzdir.

**QIZ** - Nədənsə son vaxtlar sağlıq durumunuzla bağlı problemlər baş qaldırmaqdadır. Bu səbəbdən də özünüzə fikir verməli, qida rejiminə riayət etməlisiniz. Soyuq və spirtli içkilərdən uzaq olun.

**TƏRƏZİ** - Astroloji göstəricilər ümumi ovqatınızın yüksək olacağını bildirir. Maraqlı insanlarla rastlaşma ehtimalınız da böyükdür. Bununla yanaşı, göstərilən təqvimdə uzaq yola çıxmaq olmaz.

**ƏQRƏB** - Ümumi çalarlarına görə gərgin gün olsa da, özünüzü ələ almağı bacarmalısınız. Çünki qarşınızda duran perspektivlərə yetişmək üçün hansısa dedi-qoduya əhəmiyyət verməməlisiniz.

**OXATAN** - Fəaliyyət dairənizi genişləndirmək üçün durmadan işə başlayın. Nəzərə alın ki, bu addım karyeranız üçün böyük əhəmiyyət daşıya bilər. Pul məsələlərində isə ehtiyatlı olun.

**OĞLAQ** - Həftənin ən uğurlu gününü yaşayacaqsınız. Bir tərəfdən ailə-sevgi münasibətlərində, digər tərəfdənsə işgüzar sövdələşmələrdə vəziyyət xeyrinizə cərəyan edəcək. Hər sözünüzə diqqət edin.

**SUTÖKƏN** - Kifayət qədər uğurlu bir gün yaşayacaqsınız. İştirakçısı olduğunuz hər bir proses yalnız zövqünüzlə uyğunluq təşkil edəcək. Özünüzə inamı artırmaqla uğurları yaxınlaşdırın.

**BALIQLAR** - Həddindən ziyadə uğurlu təqvimdir. Əlalxüsus da saat 12-16 arası bəxtiniz gətirə bilər. Həmkarlarınızla aranızda yaranmış soyuqluq da səngiməyəcək. Amma bugünkü təkliflərdən imtina etməlisiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 100 yaşı olsa da işləyir



Amerikanın Buffalo şəhərində yaşayan Felimina Rotunda adlı qadın 100 yaşı olmasında baxmayaraq quru təmizləmə şirkətində çalışır. Həftənin 6 günü işləyən Rotunda saat 7-də işə gedir, axşam 6-da işdən çıxır. İşləməyin onu sağlamlaşdırdığını deyən qadın 65 yaşında təqaüdə çıxmağın çox erkən olduğunu deyir. 100 yaşlı qadın 65 yaşında təqaüdə çıxmış olsaydı indiyə qədər dəli olacağını düşünür. Rotunda yaşlı insanların çalışmadığı üçün xəstələndiyini və yaddaşlarının itdiyini deyib. Yaşlı qadın 15 yaşından etibarən ayaqqabı fabrikində çalışmağa başlayıb.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300